*Heç bir uşaq qanunsuz olaraq və ya özbaşınalıqla azadlıqdan məhrum edilməsin.*
*Uşağın tutulması, həbs olunması və ya azadlıqdan məhrum edilməsi*
*qanuna uyğun olaraq həyata keçirilir və bunlardan son tədbir kimi*
*və mümkün olan daha qısa müddət ərzində və müvafiq qaydada istifadə edilir.*

**BMT-nin UHK, Maddə 37**

# AZƏRBAYCANDA YUVENAL ƏDLİYYƏNİN İCRASINA DAİR MONİTORİNQİN HESABATI

**Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı**

"Azərbaycanda Yuvenal Ədliyyənin İcrasına dair Monitorinqin Hesabatı" yuvenal ədliyyə sahəsində milli və beynəlxalq ekspertlərin birgə əməyinin nəticəsidir. Hesabat Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansının ATƏT-in Bakı Ofisinin dəstəyilə həyata keçirdiyi monitorinqin nəticələri əsasında tərtib edilib.

Hesabat yuvenal ədliyyə sistemi daxilində uşaqların və uşaq hüquqlarının vəziyyətinə dair empirik tapıntıları əks etdirir və Azərbaycan Respublikasında yuvenal ədliyyə sistemini təşkil edən müəssisələrin fəaliyyətində olan çatışmazlıqlar və boşluqlara dair məlumat verir.

Bu kitab aidiyyatı dövlət qurumlarının mütəxəssisləri, yetkinlik yaşına çatmayanların işlərinə baxan hakimlər, dövlət ittihamçıları, vəkillər, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların üzvləri, aidiyyatı nazirliklərin nəzdində fəaliyyət göstərən təlim-tədris mərkəzlərinin müəllimləri və dinləyiciləri, elmlər akademiyasının elmi işçiləri, ali məktəblərin hüquq və beynəlxalq hüquq ixtisası üzrə təhsil alan tələbə, magistr, aspirantları, milli və beynəlxalq QHT-lərin nümayəndələri və uşaq hüquqları ilə maraqlananlar üçün tövsiyə edilir.

**"Azərbaycanda Yuvenal Ədliyyənin İcrasına dair Monitorinqin Hesabatı"**
**Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı**
**A4 format, 65 səhifə, Bakıda çap edilib, 2007**

**İSBN:**

**QHT ALYANSININ NƏŞRİ**
**117, Nizami küç, AZ-1010, Bakı, Azərbaycan**
**http://www.ngoalliance.net**

**Bütün hüquqlar qorunur. Müəllif hüquqları Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansına məxsusdur.**
**Copyright © Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı, 2007.**

**Müəllif Hüquqları qorunur. Kitabda əksini tapmış məlumatlar müəlliflərdən əvvəlcədən yazılı icazə alınmadan istifadə edilə bilər. Lakin, bu zaman orijinal mənbəyə istinad vacibdir.**

**ATƏT-in Bakı Ofisi**

**Böyük Britaniyanın Bakıdakı Səfirliyi**

**Monitorinq aparılması ATƏT-in Bakı Ofisi tərəfindən maliyyələşdirilib. Monitorinq nəticəsində hazırlanmış hesabatın nəşri Böyük Britaniyanın Bakıdakı Səfirliyi tərəfindən maliyyələşdirilib. Hesabatda əksini tapmış fikirlər müəlliflərə və tərtibatçılara məxsusdur və ATƏT-in Bakı Ofisinin və Böyük Britaniyanın Bakıdakı Səfirliyinin rəsmi mövqeyi ilə üst-üstə düşməyə bilər.**

# Mündəricat


**QISA XÜLASƏ**

İXTİSARLAR

**GİRİŞ VƏ METODOLOGİYA**

**I. EMPİRİK TAPINTILAR**
1.1. Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar
1.2. Rayon polis idarələrində (şöbələrində) fəaliyyət göstərən ictimai təhlükəsizlik bölməsinin yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili qruplarının işindəki qüsurlar
1.3. Rayon polis idarələrindəki (şöbələrindəki) müvəqqəti saxlama təcridxanalarının (MST) vəziyyəti
1.4. Məhkəmələr
1.5. İstintaq təcridxanaları
1.6. Açıq və qapalı tipli xüsusi tədris müəssisələri

**II. MONİTORİNQİN AYRI-AYRI MÜƏSSİSƏLƏR ÜZRƏ NƏTİCƏLƏRİ**
2.0. Xüsusi tədris müəssisələrinin müqayisəli cədvəli
2.1. Quba rayon Oğlanlar üçün qapalı tipli xüsusi texniki-peşə məktəbi
2.2. Bakı şəhər Mərdəkan qəsəbəsi Oğlanlar üçün xüsusi internat məktəbi

**ÜMUMI ŞƏRAİT**
2.3. 3 saylı İstintaq Təcridxanası
2.4. Tərbiyə müəssisəsi
2.5. 4 saylı cəzaçəkmə müəssisəsi (qadınlar üçün)
2.6. Məhkəmə prosesləri: hakimlər, dövlət ittihamçıları və vəkillərin yetkinlik yaşına çatmayanlara dair cinayət işlərinin aparılmasında rolu və iştirak

**III. AZƏRBAYCANDA YUVENAL ƏDLİYYƏ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ ÜZRƏ TƏKLİF VƏ TÖVSİYYƏLƏR**
3.1. Ümumi məsələlər üzrə təkliflər
3.2. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların fəaliyyəti ilə əlaqədar təkliflər
3.3. Uşaq inspektorlarının fəaliyyəti ilə əlaqədar təkliflər
3.4. Müvəqqəti saxlama təcridxanalarının (MST) vəziyyətinə dair təkliflər
3.5. Məhkəmə prosesləri və istintaq prosedurlarına dair təkliflər
3.6. Xüsusi tədris müəssisələrinin fəaliyyəti ilə əlaqədar təkliflər

**ƏLAVƏ 1. XÜSUSİ TƏDRİS MÜƏSSİSƏLƏRİ**

**ƏLAVƏ 2. 3 SAYLI İSTİNTAQ TƏCRİDXANASI**

**ƏLAVƏ 3. TƏRBİYƏ MÜƏSSİSƏSİ**

**ƏLAVƏ 4. 4 SAYLI CƏZAÇƏKMƏ MÜƏSSİSƏSİ (qadınlar üçün)**

**ƏLAVƏ 5. MƏHKƏMƏ PROSESLƏRİ**

**BİBLİOQRAFİYA**

# Qısa Xülasə

İnsan hüquqları bərabər şəkildə, insanların milli ləyaqətinə hörmətlə yanaşılaraq qəbul edilən və bütün şəxsləri əhatə edən əsas hüquqlardır. Bu hüquqlar hamılıqla qəbul olunan hüquqlardır və insan həyatının ayrılmaz tərkib hissəsi hesab olunur. İnsan hüquqları kişilərə, qadınlara, və uşaqlara eyni səviyyədə aiddir. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Bəyannaməsi uşaqların əsas insan hüquqlarını malik olması ilə yanaşı, eləcə də xüsusi qayğıya və yardıma olan hüquqlarını da təsbit edir. Bəyannamədə qeyd olunur ki, "uşaq, fiziki və əqli cəhətdən yetkin olmadığına görə, xüsusi qayğıya və mühafizəyə ehtiyacı var". Uşaqlar zəif olduqları üçün sırf onlara yönəlmiş və xüsusi müdafiəyə ehtiyacı olduqlarını təsdiqləyən hüquqlara malikdirlər.

Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyası (BMT-nin UHK) müxtəlif beynəlxalq sənədlərdə bəyan edilmiş uşaqlara aid insan hüquqlarını özündə cəmləşdirir. Konvensiya uşaqların hüquqlarına dair yönəldici prinsipləri müəyyənləşdirməklə yanaşı, həmçinin uşaqlara aid və onların inkişafı naminə potensiallarının tam gerçəkləşdirilməsi üçün zəruri olan hüquqları da təsbit edir. Azərbaycan Respublikası 1992-ci ildə BMT-nin UHK-nı ratifikasiya edib. Bununla da, üzv dövlət kimi Konvensiyada təsbit edilmiş hüquqların tam icrasına xidmət edən mövcud qanunlara düzəlişlər etməyə və ya yeni qanunlar qəbul etməyə öhdəlik götürüb.

BMT-nin UHK cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxslərin xüsusi qayğıya və yardıma olan hüquqlara malik olduğunu diqqətə çəkir. Uşaqlar qanunu pozduqları zaman, onların hüquqlarını tanıyan xüsusi ədalət mühakiməsi sisteminə cəlb olunma hüququna malikdirlər[1]. Uşaqların zəifliyi sadəcə cəza sanksiyalarının tətbiqini deyil, həm də onların islah edilməsinə və hüquqlarının bərpasına yönələn yanaşmanı tələb edir.

Azərbaycan respublikası üzv dövlət kimi, Pekin Qaydaları adı ilə tanınan Yetkinlik yaşına çatmayanlar barəsində ədalət məhkəməsinə dair Birləşmiş Millətlər Təşkilatının Minimal Standart Qaydalarına da qoşulub. Pekin Qaydaları cinayət törətmiş yetkinlik yaşına çatmayan çəxslərin islahı üzrə minimal standartları açıqlayır. O, yetkinlik yaşına çatmayanların işləri üzrə məhkəmə sistemini onlar üçün sosial ədalətin ayrılmaz tərkib hissəsi kimi müəyyən edir. Pekin Qaydaları yetkinlik yaşına çatmayanların rifahının yaxılaşmasına yardım məqsədi güdən konstruktiv sosial siyasətin onlar tərəfindən törədilən cinayətlərin və hüquq pozuntularının qarşısını alacağını təsbit edir. Bu isə öz növbəsində, yuvenal ədliyyə sisteminin müdaxiləsini minimuma endirir. Uşaqlar qanunla ziddiyyətdə olduqda, yuvenal ədliyyə sistemi çərçivəsində zəruri mühafizəni təmin edən Pekin Qaydaları tətbiq olunur.

Azərbaycan yuvenal ədliyyə sahəsində yeni təşəbbüslərə ehtiyac olacağını etiraf etdi və ümumilikdə öz ədalət mühakiməsi sistemini təkminləşdirməkdə ciddi cəhdlər etdi. 350 polis uşaq müfəttişi üçün UNICEF və Daxili İşlər Nazirliyi ilə birgə keçirilən təlim kursu kimi yeni proqramlar, və Penitensiar Xidmət və Yetkinlik yaşına çatmayanlar üçün İslah müəssisəsi tərəfindən azyaşlıların cəmiyyətə yenidən inteqrasiya edilməsi üçün hazirlanmasının gücləndirilməsi kimi yeni dəyişikliklərin həyata keçirilməsi çox güman ki, müsbət nəticə verəcək.

Lakin bu hesabatın nəticələrinə əsaslanaraq həll edilməli olan bəzi konkret məsələlərin ortaya çıxdığı görünür. Bu məsələlər Azərbaycan Respublikasına Pekin Qaydalarından irəli gələn öhdəliklərin yerinə yetirilməsində yardımçı olacaq.

Yuvenal ədliyyə sisteminin iki ən vacib məqsədi – uşaqların rifahının yaxşılaşdırılmasına yardım və cinayətlərə və digər hüquq pozuntularına dair qərarların çıxarılmasında proporsionallığın

[1] Bax: BMT-nin UHK maddə 40.

təmin edilməsidir[2]. Yetkinlik yaşına çatmayanların rifahının yaxşılaşdırılması tədbirlərinin tətbiqi əksər hallarda onların cinayət mühakimə prosesindən kənarlaşdırılmasına gətirib çıxarır. Alternativ tədbirlərdən istifadə və qərarların qısa bir zaman ərzində çıxarılması uşaqlara dəyə biləcək ziyanı minimuma endirir. Mütənasiblik prinsipi cinayətin ciddiliyini və hər bir uşağın şəxsi vəziyyətini nəzərə alaraq, işə düzgün reaksiya görtərilməsini tələb edir.

Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansının "Azərbaycanda yuvenal ədliyyə sisteminin vəziyyəti" haqqında hesabatı uşaqlar üçün qeyri-qənaətbəxş bir sistemin mövcudluğunu təsvir edir. Hesabat uşaqları müdafiə və islah etmək əvəzinə, mövcud sistemin yalnız onları cəzalandırmasını və təcridetmə müəssisələrinə yerləşdirməsini həyata keçirdiyini və bundan sonra, əksər hallarda, onlara nəzarət etmədiyini əks etdirən faktlar tapmışdır. Hesabatda lazımi resurslara malik olmayan sistem təsvir edilib və uşaqların xüsusi ehtiyaclarının ödənilməsi ilə bağlı narahatlıq öz əksini tapıb. Hesabatda daha sonra, yetkinlik yaşına çatmayanların rifahının yaxşılaşdırılmasına yönələn milli sosial siyasətin hazırlanmasına ehtiyacın olduğu göstərilir.

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların qanunla ziddiyyətdə və risk altında olan uşaqlara qayğının göstərilməsi sahəsində aparıcı qurum olması nəzərdə tutulur. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar çoxsaylı öhdəliklər götürüblər ki, bura, yetkinlik yaşına çatmayanların xüsusi təhsil müəssisələrinə yerləşdirilməsi və onlara nəzarət edilməsi, əfv komissiyasına müraciət edilməsi və uşaqlar tərəfindən törədilən hüquq pozuntularının profilaktikası məqsədi ilə sosial siyasətin, onların rifahının yaxşılaşdırılmasına dair, təkmilləşdirilməsinə tövsiyələr verilməsi də daxildir. Təəssüf ki, hesabat yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların uşaqlara qarşı öz öhdəliklərini yerinə yetirmədiyini vurğulayır. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların səlahiyyətləri və yerlərdəki fəaliyyəti rayon icra hakimiyyətlərinin yanında fəaliyyət göstərən digər komissiyalar və qurumlarla üst-üstə düşür. Aydındır ki, yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar vaxt və maliyyə vəsaitinin ayrılması baxımından icra hakimiyyətlərinin fəaliyyətində prioritet istiqamət sayılmır. Hesabatın hazırlanması zamanı müsahibə götürülmüş uşaqlar komissiyalar və onların fəaliyyəti haqqında indiyədək heç bir şey eşitmədiklərini və heç bir məlumata malik olmadıqlarını bildirib. Bu isə həmin komissiyaların fəaliyyətsizliyinin əyani sübutudur. Bundan əlavə, monitorinq zamanı komissiyalar öz rayonlarında yaşayan, həbs olunmuş, məhkəmə prosesini gözləyən və ya məhkum edilmiş uşaqların sayı barədə hər hansı məlumat verə bilməyib.

Hesabat həmçinin qeyd edir ki, digər dövlət qurumları da qanunla ziddiyətdə olan uşaqları prioritetləşdirmirlər. Hesabatda verilmiş nümunələrdə göstərilir ki, uşaq polis inspektorları, adətən, bu və ya digər səbəbə görə aşağı vəzifəyə keçirilmiş və ya yaxınlarda pensiyaya çıxacaq polis zabitlərindən formalaşır. Bu səbəbdən, onlara qarşı digər polis qurumlarının və ictimaiyyətin münasibəti fərqlidir və onlar "aşağı səviyyəli" qurum kimi qəbul edilir. Həmçinin qeyd etmək lazımdır ki, vəzifə öhdəliklərinə görə yetkinlik yaşına çatmayanların işləri ilə məşğul olmalı olduqlarına baxmayaraq, onların əksəriyyəti diqqət və vaxtlarını daha çox uşaqlarla əlaqədar olmayan başqa işlərin icrasına yönəldirlər.

Uşağın qanunla ilk dəfə ziddiyətə düşməsinə dair hesabatda verilmiş təsvir olduqca xoşagəlməz və narahatedicidir. Polis müvəqqəti saxlama təcridxanalarında uşaqlar üçün heç bir ayrıca saxlama kamerası yoxdur. Polis əməkdaşları, ümumilikdə, tutulmuş və ya həbs edilmiş yetkinlik yaşına çatmayanlarla davranma qaydaları barədə heç bir təlim almayıb. Uşaqlar öz hüquqlarını bilmir və hüquq və vəzifələri barədə məlumatladırılmır. Polis tərəfindən yetkinlik yaşına çatmayanları və ya olnarın valideynlərini proses barədə və ya onların hüquqları barədə məlumatlandırmaq üçün heç bir cəhdlər edilmir. Nəticədə, valideynlərə və qanuni nümayəndələrə polis tərəfindən saxanılmış və ya istintaq təcridxanalarına yerləşdirilmiş

[2] Pekin Qaydaları, Maddə 5.1.

uşaqlarla vaxtında və müntəzəm şəkildə əlaqə saxlamağa icazə verilmir və uşaq hüquqları sistematik şəkildə pozulur.

Bundan başqa, prokurorlar, vəkillər və hakimlər yetkinlik yaşına çatmayanların işlərinin araşdırımasına çox az maraq göstərir, prokurorlar və vəkillər məhkəməyə vaxtında çıxmır. Bu cür ləngimələr nəticəsində uşaqlar məhkəmə zalındakı qəfəsdə və ya məhkəmə zirzəmisində yeməksiz və susuz saxlanılırlar. Dövlət büdcəsi hesabına təyin olunmuş vəkillər yetkinlik yaşına çatmayanları öz iradəsi əleyhinə müdafiə edirlər. Eləcə də, yetkinlik yaşına çatmayanlar bildirirlər ki, dövlət tərəfindən təyin olunmuş vəkillər sadəcə ərizələri gözdən keçirir və onların müdafiəsini lazımi səviyyədə təşkil etmirlər. Hakimlər tərəflərə az məlumat verərək və ya heç bir xəbərdarlıq etmədən məhkəmə dinləmələrini dayandırır, təxirə salır və ya davam etdirir.

Gərgin şəraitdə keçən proses nəticəsində yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslər istintaq təcridxanasında orta hesabla altı ay yarım müddətə saxlanılır. Hesabat istintaq təcridxanasında saxlanıldığı müddət ərzində uşağa dəyə biləcək zərəri də açıqlayır. Yetkinlik yaşına çatmayanalar yetkinlik yaşına catmış şəxslərdən ayrı saxlanılmır, valideynlərlə və vəkillərlə görüşlərin keçirilməsi vaxtında təmin edilmir, uşaqların təhsili üçün heç bir şərait yoxdur və nizam-intizam tədbirlərinə cismani cəzalandırma və təkadamlıq kameraya salınma daxildir.

Tərbiyə Müəssisəsi təhsil və peşə təlimi üzrə uşaqlar üçün geniş imkanlar təmin edir. Burada cəza çəkən yetkinlik yaşına çatmayanlara yerli ali məktəblərə aparılan qəbul imtahanlarında iştirak etmək imkanı yaradılır. Buna baxmayaraq, müəssisə ümumilikdə uşaq hüquqlarının müdafiəsini tam şəkildə təmin edə bilmir. Müəssisənin ilk dəfə azadlıqdan məhrum etməyə məhkum olunmuş yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmasına baxmayaraq, burada həmçinin əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş yetkinlik yaşına çatmayanlar da saxlanılır. Müəssisədəki yetkinlik yaşına çatmayanlar arasında onların törətdikləri cinayətlərin ağırlığından asılı olaraq fərq qoyuımur, onlar bir-birindən təcrid edilmirlər və ağır və xüsusilə ağır cinayətlərə görə məhkum edilmişlər, dəfələrlə cinayət törətmişlər də digərləri ilə eyni yerdə saxlanılır. Hesabatda həmçinin bildirilir ki, müəssisədə cəza çəkən uşaqlara yönəlmiş hər hansı bir dəstək proqramı mövcud deyil. Ən çox narahatlıq doğuran statistik məlumat isə, intizam tədbiri kimi uşaqların tez-tez təkadamlıq kameraya salınmasıdır. 2005-ci ildə 38 tənbeh tədbiri tətbiq edilib ki, bunun 22-si uşağın təkadamlıq kameraya salınmasıdır.

Hesabatda narahatlıq doğuran digər məqam isə, uşaqların xüsusi tədris müəssisələrinə düzgün qayadada yerləşdirilməməsidir. Valideynlərin tələbi ilə və ya yalnız iqtisadi çətinliyə görə heç bir hüquq pozuntusu törətməmiş uşaqlar cinayət törətmiş və davranışında problemlər olan uşaqlarla birlikdə bu tipli müəssisələrə yeləşdirilir. Bu müəssisələrdə müxtəlif ehtiyaclara malik olan uşaqların hamısına eyni rejim tətbiq olunur. Hesabatda həmçinin bildirilir ki, müəssisələrdə uşaqlara yönəlmiş hər hansı bir dəstək proqramı mövcud deyil. İntizam tədrbirlərinə cismani cəzalandırma da daxildir. Uşaqların bu tipli müəssisələrə yerləşdirilməsi müntəzəm olaraq yoxlanılmır. "Müvəqqəti" yerləşdirmələr uzun müddət davam edərək bir çox hallarda iki ilə qədər davam edir.

Hesabada, həmçinin cinayətlərdə təqsirli bilinmiş və məhkum edilmiş qız uşaqlarının islahı üçün imkanların məhdudluğu da açıqlanır. Yetkinlik yaşına çatmayanlarla işin qurulmasına məsul olan üç əsas müəssisə –tərbiyə müəssisəsi və iki xüsusi tədris müəssisəsi – yalnız oğlan uşaqları üçün nəzərdə tutulub. Cinayətdə təqsirli bilinmiş qız uşaqları isə qadınlar üçün nəzərdə tutulmuş cəzaçəkmə müəssisəsinə göndərilir. Qadınlar üçün cəzaçəkmə müəssisəsində isə məhkum edilmiş qız uşaqları, törətdikləri cinayətlərin ağırlığına görə bir-birindən təcrid edilməmiş şəraitdə cəza çəkən böyüklərlə birgə saxlanılır və əvvəl təsvir edilmiş müəssisələrdən fərqli olaraq, bu müəssisədə xalçaçılıq və dərzilik sahələrində peşə təlimindən başqa qız uşaqlarına heç bir təhsil imkanları yaradılmır.

Son iki il ərzində Daxili İşlər və Ədliyyə Nazirlikləri sistemi yaxşılaşdırmaq istiqamətində fəal rol oynamış və yuvenal ədliyyə sisteminin monitorinq edilməsi üçün əməkdaşlıq etmişdilər. Belə əməkdaşlıq bu hesabatın tərtib edilməsində zəruri idi, və hər iki nazirliyin hesabatı nəzərdən keçirərək, ona dair fikirlərini ifadə etmək hazırlığı algışlanır. Ümüd edilir ki, bu lazımlı və vacib olan əməkdaşlıq davam etdiriləcək, çünki bütün tərəflər yuvenal ədliyyə sisteminə müsbət dəyişikliklərin edilməsi nöqtei nəzərindən çıxış edir.

Ümumilikdə, Azərbaycanda yetkinlik yaşına çatmayanlara dair ədalət mühakiməsi sistemi uşaqların müdafiəsini və onların hüquqlarının qorunmasını təmin etmək üçün ciddi şəkildə təkminləşdirilməlidir. İki əsas məqsəd – uşaqların rifahının yaxşılaşdırılmasına yardım və törədilən cinayətlərə görə verilən cəzalar arasında mütənasiblik təmin edilmir. Yetkinlik yaşına çatmayanlara dair ədalət mühakiməsi sistemində çalışanların uşaqlara daha böyük diqqət yetirməsi zəruridir. Bir şəxsiyyət kimi yetişməsi, eləcə də cəmiyyətdə öz potensialını tam ikişaf etdirməsi üçün hər bir uşaq qanunla nəzərdə tutulumuş və uşaqların ehtiyacı olduğu xüsusi qayğı ilə təmin edilməlidir.

**Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı** **1 Oktyabr 2007**

# İxtisarlar

**AR** – Azərbaycan Respublikası
**ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
**BMT-nin Komitəsi** – BMT-nin Uşaq Hüquqları üzrə Komitəsi
**BMT-nin UHK** – BMT-nin Uşaq Hüquqları Konvensiyası
**CİM** – Cəzaların İcrası Məcəlləsi
**CM** – Cinayət Məcəlləsi
**CPM** – Cinayət-Prosessual Məcəllə
**Dövlət Komitəsi** – Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi
**Ər-Riyad təlimatları** – Yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın aradan qaldırılmasına dair BMT-nin Aparıcı Təlimatları
**Havana qaydaları** – BMT-nin Azadlıqdan məhrum edilmiş yeniyetmələrin Müdafiəsi Qaydaları
**İcra Hakimiyyəti** – inzibati rayonun fəaliyyətini təmin edən qurum
**İstintaq Təcridxanası** – Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin tabeliyində olan məhkəməyə qədər təcridetmə müəssisəsi
**QHT Alyansı** – Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı
**MST –** polis idarələri (şöbələrinin) müvəqqəti saxlama təcridxanaları
**Nümunəvi Əsasnamə –** Xüsusi açıq və qapalı tədris müəssisələrinin fəaliyyətinə dair Nümunəvi əsasnamə
**Pekin Qaydaları** – Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin icrasına dair BMT-nin Minimal Standart Qaydaları
**Rayon Məhkəməsi** – inzibati rayonda fəaliyyət göstərən birinci instansiya məhkəməsi
**RİH** – Rayon İcra Hakimiyyəti
**RTŞ** – Rayon Təhsil Şöbəsi
**UNICEF** – BMT-nin Uşaq Fondu
**Uşaq İnspektoru** – yetkinlik yaşına çatmayanların işləri ilə məşğul olan polis əməkdaşı
**Yetkinlik yaşına çatmayan(lar) –** uşaq (uşaqlar) (bu terminlər mətndə bir-birini əvəzləyir)
**Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiya** – Rayon İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya
**YƏ** – Yuvenal Ədliyyə
**Yuvenal –** yetkinlik yaşına çatmayan şəxs
**Yuvenal Ədliyyə -** yetkinlik yaşına çatmayanlara dair ədalət mühakiməsi

# Tərtibatçılar

| | | |
|---|---|---|
| Nabil Seyidov | ➢ | Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı, milli əlaqələndirici Ümidli Gələcək Gənclər Təşkilatı, prezident |
| Sevinc Əliyeva | ➢ | "Azadlıqdan Məhrumetmə Yerlərinin Müşahidəsi" İctimai Birliyi, mütəxəssis |
| | ➢ | Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı, yuvenal ədliyyə üzrə baş mütəxəssis |
| Rəvan Səmədov | ➢ | "Azadlıqdan Məhrumetmə Yerlərinin Müşahidəsi" İctimai Birliyi, icraçı direktor |
| | ➢ | Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı, yuvenal ədliyyə üzrə baş mütəxəssis |
| Təranə Şərifova | ➢ | Azərbaycan Milli Valideyn-Müəllim Assosiasiyası, icraçı direktor |
| | ➢ | Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı, uşaq hüquqları üzrə baş mütəxəssis |
| Elmari Məmişov | ➢ | Azərbaycan Gənc Hüquqşünaslar Birliyi, Uşaq hüquqları departamentinin rəhbəri |
| | ➢ | Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı, yuvenal ədliyyə üzrə baş mütəxəssis |
| Dadaş Əhmədov | ➢ | Ümidli Gələcək Gənclər Təşkilatı, İnsan hüquqları və demokratiya proqramları departamentinin direktoru |
| Elmira Ələkpərova | ➢ | "El" İnkişaf Proqramları Mərkəzi, həmsədr |
| | ➢ | Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı, yuvenal ədliyyə üzrə baş mütəxəssis |
| Şahin İsmaylov | ➢ | Azərbaycan Gənc Hüquqşünaslar Birliyi, mütəxəssis |
| Nigar Abbasova | ➢ | Azərbaycan Gənc Hüquqşünaslar Birliyi, mütəxəssis |
| Zaur Zamanov | ➢ | Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) yanında baş mütəxəssis |
| Elnarə Qəribova | ➢ | "Azadlıqdan Məhrumetmə Yerlərinin Müşahidəsi" İctimai Birliyi, mütəxəssis |
| Nazir Quliyev | ➢ | "Hüquq Dünyası" İctimai Birliyi, sədr müavini |
| Rafiq İsmayilov | ➢ | |
| Faiq Ağayev | ➢ | Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) yanında Uşaq Hüquqları Mərkəzinin əməkdaşı |
| Elxan Mərdanlı | ➢ | Ümidli Gələcək Gənclər Təşkilatı, mütəxəssis |

## Araşdırma Məşvərət Qrupu

| | | |
|---|---|---|
| Diyerk Helmken | ➢ | Yuvenal hakim, Almaniya Federativ Respublikası |
| Kristin Vomak | ➢ | Müstəqil hüquq məsləhətçisi |
| Andre Dünan | ➢ | Keçmiş yuvenal hakim, İsveçrə |
| Andreas Buş | ➢ | ATƏT-in Bakı Ofisinin Qanunun Aliliyi Şöbəsinin Rəisi |
| Məhəmməd Quluzadə | ➢ | Hüquqşunas, ATƏT-in Bakı Ofisi |
| Kamran Bağırov | ➢ | Hüquqşunas, ATƏT-in Bakı Ofisi |

# Giriş və metodologiya

Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı ATƏT-in Bakı Ofisinin dəstəyi ilə 2006-cı ilin fevral-avqust ayları ərzində Azərbaycanda Yuvenal Ədliyyəyə – yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin icrasına məsul olan qurumların fəaliyyətinin monitorinqini həyata keçirib. Monitorinqin keçirilməsində məqsəd bu sahədə ölkədəki real vəziyyəti araşdırmaq, problemləri, onların meydana çıxması səbəblərini aşkar etmək, eyni zamanda problemlərin aradan qaldırılması yolları və usullarını müəyyən etmək, bu barədə məsul şəxslərin fikir və təkliflərini öyrənmək və təhlil etməkdən ibarət olub. Azərbaycanda Yuvenal Ədliyyənin təkmilləşdirilməsi və beynəlxalq standartların tətbiqi, mövcud vəziyyətin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq aktlara uyğunluğunun müəyyənləşdirilməsi də layihənin hədəfləri sırasında olub.

Layihənin nəticəsi olaraq hazırlanmış hesabatın, verilmiş təklif və tövsiyələrin dövlət orqanları, Milli Məclis, beynəlxalq təşkilatlar, milli QHT-lər və bütövlükdə ictimaiyyətə təqdim edilməsi də nəzərdə tutulub.

## *Monitorinqin aparıldığı müəssisələr*

Monitorinq respublikanın bütün şəhər və rayonlarını əhatə etmişdir. Monitorinq zamanı aşağıda göstərilən qurum və müəssisələrin fəaliyyəti araşdırılmışdır:
1. Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar;
2. Polis idarələrində (şöbələrində) müvəqqəti saxlama təcridxanaları;
3. Ədliyyə Nazirliyinin 3 saylı İstintaq təcridxanası (məhkəməyə qədər təcridetmə mərkəzi);
4. Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Tərbiyə Müəssisəsi (uşaqlar üçün);
5. 4 saylı cəzaçəkmə müəssisəsi (qadınlar üçün);
6. Xüsusi tədris müəssisələri:
   - Quba rayon Oğlan uşaqları üçün texniki-peşə məktəbi, və
   - Bakı şəhəri Mərdəkan qəsəbəsi Oğlan uşaqları üçün açıq tipli xüsusi internat məktəbi.

### 1. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar

Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar uşaq hüquqlarının müdafiəsi sahəsində başlıca rola malik olan, uşaqlara qarşı zorakılığın və onların hüquqlarının pozulmasının qarşısını alan və uşaqlar arasında hüquqpozmaların profilaktikasını həyata keçirən əsas qurumlardan biridir. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar hər bir inzibati şəhər və ya rayonda icra hakimiyyətlərinin nəzdində fəaliyyət göstərir. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar heç bir mərkəzi hökumət qurumunun qarşısında birbaşa hesabatlı olmasa da, onların hazırladıqları hesabatlar icra hakimiyyəti başçısının müavininə təqdim edilir. İcra hakimiyyəti isə rüb üzrə hesabatı Nazirlər Kabinetinə – Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Respublika Komissiyasına təqdim edir. Lakin, Respublika Komissiyası rayon və şəhərlərdə fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanlarla iş üzrə Komissiyalar üzərində bilavasitə rəhbərliyə malik deyil.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, icra hakimiyyətləri uşaq hüquqlarının müdafiəsi sahəsində əhəmiyyətli rola malikdir və bu sahədə fəaliyyət üç istiqamət üzrə həyata keçirilir: 1) Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiya; 2) qəyyumluq və himayə orqanı və 3) tibbi-psixoloji-pedaqoji komissiya. Burada sadalanan hər üç təsisatın uşaq hüquqları və uşaq məsələləri ilə məşğul olmalarına baxmayaraq, keçirilmiş monitorinq yalnız Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların fəaliyyətini əhatə edib. Monitorinq üçün məhz bu qurumun seçilməsi, onun

yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquq pozuntularının, o cümlədən uşaq cinayətkarlığının profilaktikası sahəsindəki rolu olub.

**2. Polis idarələrində (şöbələrində) müvəqqəti saxlama təcridxanaları**

Polis idarələrində (şöbələrində) müvəqqəti saxlama təcridxanaları Daxili İşlər Nazirliyinin tabeliyindədir.. Uşaqlar və böyüklər üçün ayrıca müvəqqəti saxlama təcridxanaları olmadığı üçün, uşaqların bu ümumi mərkəzlərdə saxlanılmasının öyrənilməsi vacibdir.

**3. 3 saylı istintaq təcridxanası**

3 İnstintaq təcridxanası Ədliyyə Nazirliyinin tabeliyindədir və əsas vəzifəsi istintaq və məhkəmə gedişatı zamanı şəxslərin təcrid edilməsidir. İstintaq təcridxanası üç bölmədən ibarətdir. Bu bölmələrdən biri uşaqların saxlanılması üçün nəzərdə tutulub və monitorinq zamanı məhz uşaqlar saxlanılan bölmə monitorinq edilib.

**4. Tərbiyə Müəssisəsi (uşaqlar üçün)**

Tərbiyə Müəssisəsi Ədliyyə Nazirliyi Penetensiar Xidmətinin tabeliyindədir və yetkinlik yaşına çatmayanların azadlıqdan məhrumetmə növündə cəza çəkdiyi yeganə müəssisədir.

**5. 4 saylı cəzaçəkmə müəssisəsi (qadınlar üçün)**

4 saylı cəzaçəkmə müəssisəsi Ədliyyə Nazirliyi Penetensiar Xidmətinin tabeliyindədir və qadınların azadlıqdan məhrumetmə növündə cəza çəkdiyi müəssisədir.

**6. Xüsusi tədris müəssisələri**

Azərbaycanda qanunla ziddiyyətdə olan uşaqlar üçün nəzərdə tutulmuş iki müəssisə - Bakı şəhər Mərdəkan qəsəbəsi Oğlan uşaqları üçün xüsusi açıq tipli internat məktəbi və Quba rayonu Oğlan uşaqları üçün xüsusi texniki-peşə internat məktəbi fəaliyyət göstərir. Mərdəkan qəsəbəsində fəaliyyət göstərən internat mətkəbində 8-16 yaşında olan uşaqlar, Quba rayonunda yerləşən müəssisədə isə 14-18 yaşlı uşaqlar təhsil və tərbiyə alırlar. Aşağıda göstərilən yetkinlik yaşına çatmayanlar xüsusi tədris müəssisələrinə yerləşdirilə bilər: qeyri-qanuni hərəkətlərə və hüquq pozuntularına yol verən; psixoloji zorakılıq qurbanı olan; məktəbə getməyən və valideynləri ilə çətin münasibətlərdə olan; polis orqanları tərəfindən əvvəlki hüquq pozuntularına görə qeydiyyata və nəzarətə götürülmüş, lakin reabilitasiyası mümkün sayılmayan; ağır və xüsusilə ağır cinayətlər törətmiş, lakin qanunvericilikdə göstərilmiş yaş məhdudiyyətinə görə cinayət məsuliyyəti daşımayan uşaqlar. Sadalanan uşaqlar yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar tərəfindən bu müəssisəyə yerləşdirilə bilər. Həmçinin, valideynlər və ya qanuni nümayəndələrin xahişi ilə də komissiya uşağın müəssisəyə yerləşdirilməsinə qərar verə bilər.

## *Məhkəmə dinləmələri*

Layihə çərçivəsində, yuxarıda sadalanan müəssisə və qurumlarla yanaşı, yetkinlik yaşına çatmayanlar barəsində aparılan məhkəmə proseslərinin də monitorinqi həyata keçirilib. İl ərzində yetkinlik yaşına çatmayanlar baraəsində aparılan məhkəmə proseslərinin sayı az olsa da, onların monitorinqi məhkəmə prosedurları və məhkəmə prosesində iştirak edən əsas tərəflərin fəaliyyətinin qiymətləndirilməsinə imkan yaratdı.

## *Təlimlər və Monitorinqi aparan təşkilatlar*

Monitorinq Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansının aşağıdakı üzv-təşkilatları tərəfindən həyata keçirilib:

- Ümidli Gələcək Gənclər Təşkilatı
- "Azadlıqdan Məhrumetmə Yerlərinin Müşahidəsi" İctimai Birliyi
- Azərbaycan Gənc Hüquqşünaslar Birliyi
- "Hüquq Dünyası" İctimai Birliyi
- "El" İnkişaf Proqramları Mərkəzi.

Göstərilən təşkilatların iyirmi nəfər mütəxəssisdən ibarət monitorinq qrupları fevral-avqust ayları ərzində monitorinqlərdə iştirak edib.
Monitorinqin keçirilməsi üçün hazırlıq mərhələsi hələ 2005-ci ilin payızından başlanıb. 2005-ci il 21-26 noyabr tarixində bir qrup QHT və dövlət orqanlarının nümayəndələri üçün yuvenal ədliyyə sahəsində ilk təlim keçirilib. İsveçrəli keçmiş yuvenal hakim Andre Dünantın apardığı təlim kursu zamanı, nəzəri məsələlərin əhatə olunması ilə yanaşı, bir sıra təcrübi məşğələlər də həyata keçirilib.

12-16 dekabr tarixində isə, bilavasitə monitorinqi həyata keçirəcək şəxslər üçün yuvenal ədliyyə üzrə almaniyalı mütəxəssis, yuvenal hakim Dyerk Helmken və "Azadlıqdan Məhrumetmə Yerlərinin Müşahidəsi" İctimai Birliyinin mütəxəssisi Sevinc Əliyeva tərəfindən beynəlxalq hüquq və standartlar, o cümlədən yerli qanunvericiliyi ehtiva edən məsələlərlə bağlı təlim-seminar reallaşdırılıb. Bundan sonra cənab Helmken, keçiriləcək monitorinq üçün, sorğu materiallarının ilkin variantını qısa müddət ərzində hazırlayaraq Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansına təqdim edib. Sorğular toplusu Alyansın mütəxəssisləri tərəfindən təkmilləşdirildikdən və yerli xüsusiyyətlərə uyğunlaşdırıldıqdan sonra kitabça şəklində nəşr edilib.

2006-cı ilin fevralında monitorinqi icra edəcək şəxslər üçün təcrübi məsələlər, monitorinq zamanı qarşıya çıxa biləcək suallarla bağlı iki günlük yekun seminar həyata keçirilib.

Aprelin ortalarından başlayaraq, hər biri iki nəfərdən ibarət olan 8 monitorinq qrupu Respublikanın bütün rayonlarına səfərlər edib yerlərdə fəaliyyət göstərən icra hakimiyyətləri yanında yaradılmış yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların və rayon polis idarələri (şöbələrinin) müvəqqəti saxlama təcridxanalarının fəaliyyəti ilə tanış olublar. Bu səfərlər zamanı komissiyaların sədrləri, yaxud məsul katibləri, eləcə də RPŞ-lərin İctimai Təhlükəsizlik Bölməsinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili qrupunun inspektorları və MST-lərin rəisləri ilə müsahibələr aparılıb.

# I. EMPİRİK TAPINTILAR

## *Yuvenal ədliyyə təsisatlarının fəaliyyətinə ümumi baxış*

Azərbaycanda yuvenal ədliyyə sistemində problemlər müxtəlif səpkili və çox mürəkkəbdir. Bunların hamısı uşaq hüquqları baxımından vacib hesab olunmalıdır. Ər-Riyad Prinsipləri, Pekin Qaydaları və BMT UHK kimi beynəlxalq qayda və prinsiplər qanunla mühakimə edilmiş uşaqlarla rəftarın əsasən həmin uşağın cəmiyyətə yenidən inteqrasiyasına yönəldiyini bildirir və uşağı buna ruhlandırmağı və ya həmin mühitdə konstruktiv rol oynamağı tələb edir. Bu yanaşma Azərbaycan Respublikasının Cinayət Məcəlləsində əksini tapsa da, reallıqda, yuvenal ədliyyə sistemində buna tam riayət edilmir.3

Azərbaycanın Respublikasının rayonlarında aparılmış monitorinqin ümumi nəticələri ondan ibarətdir ki, bölgələrdə qanunla münaqişədə olan yetkinlik yaşına çatmayanlarla aparılan iş arzu olunan səviyyədə deyil. İstər icra hakimiyyətləri yanında yaradılmış yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, istər rayon polis şöbələrində fəaliyyət göstərən ictimai təhlükəsizlik bölməsinin yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qruplarının, istərsə də rayon məhkəmələrinin bu sahədəki fəaliyyətləri günün tələblərinə cavab vermir. Göstərilən orqanlar ya onların üzərinə düşən işin öhdəsindən lazımınca gələ bilmir, ya da öz vəzifələrini layiqincə icra etmirlər.

Aparılmış müşahidələr və sorğular əsasında aşağıdakı ümumi çatışmazlıqları qeyd etmək mümkündür:

### 1.1. Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar:

- ***Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların rəhbərlərinin iş yükünün həddindən artıq çox olması***

Komissiya sədrlərinin icra strukturlarında yüksək vəzifə tutması bir yandan komissiyaların səlahiyyətli qurum kimi fəaliyyət göstərməsinə zəmin yaradırsa, digər tərəfdən isə, onların öz vəzifə səlahiyyətlərindən irəli gələn məsələlərlə məşğul olmaları üzündən komissiyaların işində "axsama"lara, işin səmərəli təşkilinə əngəllərin yaranmasına səbəb olur. Adətən, rayon və ya şəhər icra hakimiyyəti başçısının müavini yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyanın da sədri vəzifəsini həyata keçirir.[4] Onu da qeyd etmək lazımdır ki, komissiya üzvləri eyni zamanda bir neçə komissiyalarda təmsil olunurlar və bu da son nəticədə işlərin bir-birinə qarışmasına, onların hansı işin prioritet olduğunu müəyyən etmələrinə mane olur. Bundan başqa, komissiya üzvlərinin özlərinin (əsasən ştatlı işçi olan məsul katib və məsləhətçi psixoloqların) dediyinə görə, onları rayon icra hakimiyyətinin müxtəlif təsərrüfat işlərinə (işıq pulu yığmaq, qaz pulu yığmaq, abadlıq işləri və s.) cəlb edirlər. Bunun da nəticəsi olaraq, yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların sədrləri, məsul katibləri və məsləhətçi-psixoloqları işlərinə laqeyd yanaşır, komissiyanın işini ikinci dərəcəli hesab edirlər.

- ***Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların ayrıca və ixtsaslaşmış təsisat kimi fəaliyyət göstərməməsi***

---

[3] Azərbaycanda Yuvenal Ədliyyə. Uşaq hüquqları üzrə Azərbaycan QHT Alyansının alternativ hesabatı, 2006. s. 9

[4] Adətən komissiya sədrləri RİH başçısının 1-ci müavini, yaxud müavinlərindən biri olur. Bərdə rayonunda isə, komissiyaya sədrliyi RİH başçısının özü edir.

Monitorinq aparıldığı bir sıra rayonlarda yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar icra hakimiyyətləri tərkibində ayrıca qurum kimi fəaliyyət göstərmir. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların sədrləri və məsul katibləri öz vəzifə və səlahiyyətləri barədə dəqiq məlumata malik deyil. Məsələn, Bakı şəhərinin Nərimanov rayonunda yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyanın fəaliyyəti RİH-nin tərkibində olan digər qurumların, məsələn, qəyyumluq və himayə orqanının fəaliyyəti ilə səhv salınır. Qəyyumluq və himayəçilik məsələlərinə dair ərizələr daha çox daxil olduğundan, yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyanın məsul katibi bu məsələlərlə əlaqədar daha böyük təcrübəyə malikdir. Vəzifələrin qarışıqlığı digər rayon və şəhərlər üzrə aparılan monitorinq nəticəsində də təsdiq edilib. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların nümayəndələri ilə müsahibələr zamanı onların daha çox istinad etdikləri məsələlər məhz qəyyumluq və övladlığa götürmə məsələləri olub. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar ilə qəyyumluq və himayə orqanları arasında olan fərq barəsində suala cavab olaraq məsul katib və psixoloqlar hər iki qurumda fəaliyyət göstərdiklərini bildiriblər. Bəzi rayonlarda isə bu qurumların üzvlərinin eyni olduğu bildirilib.
Xüsusilə qeyd etmək lazımdır ki, Astara rayonu icra hakimiyyətində yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyanın fəaliyyət göstərməli olduğunu bilmirlər. Belə ki, Astara rayon icra hakimiyyəti başçısının birinci müavini monitoriq qrupuna bildirib ki, «Astara Rayon İcra Hakimiyyəti aparatında bu adda komissiya yoxdur. Belə işlərlə polis məşğul olur».

- ***Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalarda ştat çatışmazlığı və əmək haqqının azlığı***

Monitorinq aparılan yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların əksəriyyətindən səmərli fəaliyyətin qurulması üçün ştat çatışmazlığı probleminin həll olunmasının əsas məsələ olduğu bildirilib. Xüsusən psixoloqlar, uşaqlar və ailələrlə birbaşa işləmək üçün sosial işçilər və digər əlavə üzvlərə ehtiyac olduğu qeyd olunub. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar tərəfindən yetkinlik yaşına çatmayanlarla profilaktik işin səmərəli qurulmasına maneə kimi də məhz ştat çatışmazlığı göstərilib.

Müvəqqəti olaraq məsləhətçi qismində cəlb edilmiş psixoloqlar qanunla ziddiyətdə olan yetkinlik yaşına çatmayanlarla iş bacarığına və təcrübəyə malik deyillər. Onlara verilən əmək haqqının məbləği də çox azır. Məhz buna görə, əksər rayonların komissiyalarında bu vəzifələr adətən boş qalır.

Rayon icra hakimiyyəti başçıları, komissiyada iştirak etmək üçün, mərkəzi icra hakimiyyəti orqanlarının rayonlarda olan idarə və ya şöbələrinin nümayəndələrini ictimai əsaslarla komissiyaya təhkim edirlər[5]. Əksər rayon və şəhərlərdə yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların üzvləri passivdir və komissiyaların iclaslarında nadir hallarda iştirak edirlər. Elə buna görə də, yetkinlik yaşına çatmayanlar üzrə komissiyaların məsul katib və psixoloqları komissiya üzvlərinin və işlədikləri idarələrin adlarını çəkməkdə belə çətinlik çəkirlər. Monitorinq zamanı əldə edilən məlumatlara əsasən, sözügedən komissiyaların üzvlərinin sayı 7-11 nəfər təşkil edir.

- ***Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar uşaqların yerləşdirilməsini monitorinq etmir***

---

5 Polis idarəsi (şöbəsi), əmək və əhalinin sosial müdafiəsi departamenti, gənclər və idman departamenti, təhsil şöbəsi, səhiyyə şöbəsi tərəfindən komissiyanın faəliyyətində iştirak etmək üçün təhkim edilmiş nümayəndələr və RİH-in hüquqşünası

Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar uşaqların dövlət uşaq müəssisələrinə yerləşdirilməsini monitorinq etməlidir[6]. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar adətən uşaqların açıq və qapalı tədris müəssisələrinə yerləşdirməklə məşğuldur. Bakı şəhərinin bəzi yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaları istisna olmaqla, ümumilikdə komissiyalar tərəfindən uşaqların internat müəssisələri, uşaq evləri və ya xüsusi məktəblərə müvəqqəti və ya uzun müddətli yerləşdirilməsinin monitorinqi aparılmır. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların daha çox uşaqların internat müəssisələrinə yerləşdirilməsi məsələlərinə baxdığını nəzərə alsaq, uşaqların yerləşdirilməsinin dövrü monitorinqi və yenidən baxılmasının bu yerləşdirilmələrin nə dərəcədə səmərəli olub olmamasının öyrənilməsi nöqteyi nəzərindən əhəmiyyətli olduğunu görərik.

- ***Yetkinlik yaşına çatmayanlarla iş üzrə Komissiyalar məhkəmə dinləmələrində iştirak etmir***

Yetkinlik yaşına çatmayanlarla iş üzrə Komissiyaların əksəriyyəti yetkinlik yaşına çatmayanların işlərinə dair məhkəmə proseslərində iştirak etmir. Komissiyaların nümayəndələri bunu məhkəmə proseslərindən xəbərsiz olduqlarını və məhkəmələrdən bununla bağlı məlumatların daxil olmaması ilə izah edir. Əhatə etdikləri ərazi boyu uşaqlara dair məlumatın toplanması, təhlili, araşdırılması və məruzəsi birbaşa komissiyaların vəzifəsi olduğunu nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, komissiyalar bu vəzifələrin öhdəsindən gələ bilmir.[7] Bundan əlavə, polis müvəqqəti saxlama təcridxanaları, istintaq təcridxanaları və tərbiyə müəssisəsində olan uşaqlar heç bir mərhələdə yetkinlik yaşına çatmayanlar üzrə komissiyanın nümayəndələrini görməyiblər.

Monitorinq edilmiş yetkinlik yaşına çatmayanlar komissiyalarının heç biri məhkəmələr tərəfindən uşaqlara qarşı çıxarılan cəzalandırma tədbirlərinin yüngülləşdirilməsi, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi və ya uşağın vaxtından əvvəl cəzadan azad edilməsi və s. məsələlərlə bağlı indiyədək hər hansı bir məhkəməyə müraciət etməyib[8].

- ***Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar uşaqlarla işin təkmilləşdirilməsi sahəsində təklif və tövsiyələr vermir***

Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar fəaliyyət göstərdiyi ərazi üzrə uşaqlar arasında cinayətkarlıq və digər hüquqpozmalara dair mütamadi araşdırmalar aparmalı, mövcud vəziyyəti və onun dinamikasını təhlil etməli, müəyyən edilmiş cinayətkarlıq və hüquqpozmaların törədilməsi səbəblərini öyrənməli və bu halların profilaktikası və aradan qaldırılması məqsədi ilə tövsiyə və təkliflərini hazırlamalıdır[9]. Monitorinq zamanı sənədlərlə, rüblük və illik hesabatlarla tanışlıq onu deməyə əsas verir ki, komissiyalar fəaliyyət sahələri üzrə hər hansı bir təhlillərin aparılması, təklif və tövsiyələrin verilməsi ilə məşğul olmur.

Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar uşaqlara ünvanlanan, onların hüquqlarının qorunması, sosial müdafiəsinin gücləndirilməsi, reabilitasiyanın aparılması, qanunla ziddiyyətdə olan uşaqların cəmiyyətə inteqrasiyası və davranışlarının korreksiyası, təhsili və ya onlara təsir edəcək qanunlar, əsasnamələr və hüquqi-normativ aktların hazırlanmasında iştirak etməlidirlər[10]. Lakin monitorinq onu göstərdi ki, əksər komissiyalar vahid bir qurum olaraq yerli, regional və milli səviyyədə hər hansı bir sənədlərin, proqramların və fəaliyyət planlarının hazırlanmasında

---

[6] Yetkinlik yaşına çatmayanlarla iş və hüquqlarının müdafiəsi üzrə komissiyanın Əsasnaməsi, 31 may 2002. II Hissə, Maddə 5 (par.3).
[7] "Sizin rayon və ya şəhərdən müvəqqəti saxlama təcridxanası, instintaq təcridxanası və ya tərbiyə müəssisəsində uşaq saxlanılırmı?" sualına komissiya nümayəndələri aydın cavab verə bilmədi.
[8] Yetkinlik yaşına çatmayanlarla iş və hüquqlarının müdafiəsi üzrə komissiyanın Əsasnaməsi, 31 may 2002. II Hissə Mad. 5 (par.11)
[9] Yetkinlik yaşına çatmayanlarla iş və hüquqlarının müdafiəsi üzrə komissiyanın Əsasnaməsi, 31 may 2002. II Hissə Mad. 5 (par.18)
[10] Yetkinlik yaşına çatmayanlarla iş və hüquqlarının müdafiəsi üzrə komissiyanın Əsasnaməsi, 31 may 2002.

iştirak etməyib. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar tərəfindən Nazirlər Kabinetinə və RİH-ə təqdim edilən rüblük və illik hesabatlara nəzər yetirsək və bu məsələlərə dair heç bir məlumatın olmadığını nəzərə alsaq, yuxarıda təsvir edilmiş vəziyyətin nəyə görə baş verdiyini anlamaq olar. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar tərəfindən hazırlanan və Nazirlər Kabinetinə və RİH-ə təqdim edilən 1-3 səhifəlik hesabatlar daha çox komissiyanın görüşləri, məktəblərə etdikləri səfərlər, uşaqlara aid təşkil etdikləri və iştirak etdikləri tədbirlər, keçirilmiş konsertlər və digər mədəni tədbirləri təsvir edir və nadir hallarda, müzakirə edilmiş şikayətlər və ya daxil olan işlər üzrə çıxarılan qərarlara dair məlumatı əks etdirir. Nəticə etibarilə belə qənaətə gəlmək olar ki, yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar uşaqlarla işləyən əsas qurum kimi öz vəzifələrini yerinə yetirə bilmir.

- ***Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar alternativ tədbirlərdən istifadə etmir***

Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar qanuna uyğun olaraq az ağır və böyük ictimai təhlükə törətməyən cinayətlərə dair işlərə baxa və qanunda nəzərdə tutulmuş müxtəlif alternativ tərbiyəvi tədbirlər tətbiq edə bilər[11]. Lakin buna baxmayaraq, monitorinq onu göstərdi ki, son 2-3 il ərzində heç bir komissiya bu sahədə olan işlərə baxmayıb.

Monitorinq nəticəsində müəyyən olundu ki, yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların Azərbaycan Respublikası Prezidenti yanına Əfv komissiyasına müraciət etmək hüququna malik olmasına baxmayaraq, indiyədək heç bir komissiya 14-18 yaşında olan və məhkəmə tərəfindən azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş hər hansı bir uşağın əfv edilməsi ilə bağlı Əfv komissiyasına müraciət etməyib[12].

Qanuna əsasən, komissiya uşağın inkişafı, reabilitasiyası, inteqrasiyası, işlə təmin edilməsi və ya təhsili ilə bağlı dövlət və qeyri-hökumət təşkilatları, biznes qurumlarına müraciət etmək və onlardan dəstək istəmək hüququna malikdir. Məsələn, uşağın işlə təmin edilməsi məqsədilə komissiya hər hansı bir supermarketə və ya uşaqların idmana cəlb edilməsi ilə bağlı Azərbaycan Olimpiya İdman Mərkəzlərinə müraciət ünvanlaya bilər. Lakin montorinq nəticəsində yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların əksəriyyətinin yetkinlik yaşına çatmayanların tərbiyəsi, işə düzəlməsi, və ya təhsili ilə əlaqədar[13] dövlət orqanlarına, müəssisələrə, təşkilatlara rəsmi müraciət etmədiyi[14] aşkar olundu.

- ***Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar mütamadi görüşlər və müzakirələr keçirmir***

Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların iclaslarının vaxtı qeyri-müəyyəndir və bəzi rayonlarda daimi müntəzəmliyə malik deyil. Bəzi sədrlər və məsul katiblər, ümumiyyətlə, sonuncu iclasın vaxtını belə xatırlaya bilməyib.

- ***Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar dövlət uşaq müəssisələrindən süni şəkildə istifadə edir***

---

[11] Yetkinlik yaşına çatmayanlarla iş və hüquqlarının müdafiəsi üzrə komissiyanın Əsasnaməsi, 31 may 2002. II Hissə II Mad. 9 (par.1)
[12] Yetkinlik yaşına çatmayanlarla iş və hüquqlarının müdafiəsi üzrə komissiyanın Əsasnaməsi, 31 may 2002. II Hissə II Mad. 5 (par.13)
[13] Hacıqabul rayonundakı komissiyanın sədri RİH başçısının müavini Rövşən Şirəliyevlə aparılan sphbət zamanı məlub olub ki, yetkinlik yaşına çatmayanların işə düzəlmələri ilə bağlı özəl şirkətlərə müraciət etsələr də, bu işin nəticəsi gözlənilən kimi alınmır. Şirkət və müəssisələr uşaqların işə düzəlməsinə razılıq versələr də, onların gün ərzində cəmibir neçə saat işləmək üçün müqavilə bağlamaq lazım gəlir və bu da son nəticədə həmin uşaqların işdən çıxarılması ilə nəticələnir.
[14] Yetkinlik yaşına çatmayanlarla iş və hüquqlarının müdafiəsi üzrə komissiyanın Əsasnaməsi, 31 may 2002. II Hissə II Mad. 5 (par.10)

Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar bəzi hallarda məktəb rəhbərliyi və ya valideynlər tərəfindən ərizə verildikdə "çətin tərbiyə olunan uşaq" "damğa"sı altında uşaqların Bakı şəhər Mərdəkan qəsəbəsi və Quba rayonunda yerləşən xüsusi internat məktəblərinə yerləşdirilməsinə dair qərarlar çıxarır. Lakin, daha çox müşahidə edilən hal valideynlərinin imkansızlığını səbəb kimi tanıyaraq "çətin tərbiyə olunan" uşaqlar kateqoriyasına aid olmayan uşaqların ümumtipli internat məktəbləri və ya uşaq evlərinə göndərilməsidir.

- ***Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların fundamental resurslara ehtiyacı var***

Komissiyaların əksəriyətində nəqliyyat və maddi-texniki problemlər müşahidə olunur. Belə ki, uzaq kəndlərə getməyə çətinlik çəkirlər və mərkəzə yaxın olan müəssisələrin nəzarəti ilə kifayətlənməli olurlar. Rayon icra hakimiyyəti aparatlarında ən yaxşı halda bir və ya iki kompüter (və ya yazı makinası) var ki, əməkdaşlar orada yazı yazmaq üçün növbə gözləməli olurlar. Həmçinin, komissiyaların informasiya əldə etmə, ötürmə işi zəif təşkil olunub[15].

Yuxarıda göstərilənləri nəzərə alaraq, qeyd etmək olar ki, RİH aparatı yanında fəaliyyət göstərən yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların fəaliyyəti düzgün qurulmayıb və bu formal xarakter daşıyır. Bu isə, nəinki yetkinlik yaşına çatmayanlar arasında xırda hüquqpozmaların, eləcə də gələcəkdə narkomaniya, HİV/AİDS və s. bu kimi mənfi halların yayılmasının qarşısının alınmasına yönəlmiş fəaliyyətin göstərilməməsi deməkdir.[16]

## 1.2. Rayon polis idarələrində (şöbələrində) fəaliyyət göstərən ictimai təhlükəsizlik bölməsinin yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili qruplarının işindəki qüsurlar

- ***İctimaiyyət və idarə (şöbə)tərəfindən apatiya***

Rayon polis idarələrinin (şöbələrinin) ictimai təhlükəsizlik bölməsinin tərkibində fəaliyyət göstərən yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili qruplarının üzvləri daha çox uşaq inspektoru kimi tanınır. Polis uşaq inspektorlarının fəaliyyəti ictimaiyyət tərəfindən zəif qiymətləndirilir. Marağın və diqqətin az olması həmçinin polis uşaq inspektorarının özləri tərəfindən də müşahidə edilir. Bu səbəbdən də bu sahədə çalışan polis işçiləri vəzifə boyu yüksəlmək üçün digər xidmətlərə keçməyə üstünlük verirlər.

Polis uşaq inspektolarının əksəriyyəti uşaqlarla iş sahəsində xüsusi bilik və bacarıqlara malik deyil. Maraqlısı budur ki, bu işə cəlb edilən əməkdaşların konkret bacarıqlara malik olması tələb olunmur. Sorğular və müsahibələr uşaq inspektoru kimi işləyən şəxslərin əksəriyyətinin müxtəlif səbəblərə görə rütbəsi aşağı salınmış, əvvəl tutduğu vəzifəsindən azad edilərək daha aşağı vəzifəyə keçirilmiş və ya pensiya yaşına yaxınlaşanlar olduğunu deməyə əsas verir.

---

[15] Komissiya üzvlərinin bildirdiyinə görə, komissiyanın əsas problemi maddi-texniki bazanın çox zəif olmasıdır. Komissiyaların fəaliyyətinin daha səmərəli təşkil edilməsi məqsədilə onlar müvafiq avadanlıqla təchiz (kompüterlər, faks, kseroks və s.) olunmalı, yeni texnologiyalardan (internet) istifadə edilməsi üçün imkanlar yaradılmalı, həmçinin komissiya üzvləri üçün təlimlər keçirilmədir.

[16] Hacıqabul rayonunda uşaq inspektoru ilə aparılan söhbətdən məlum oldu ki, son vaxtlar yetkinlik yaşına çatmayanlar arasında narkomaniya ilə bağlı hal da qeydə alınıb. Qeyd etmək lazımdır ki, aparılan söhbətlər zamanı o da məlum oldu ki, Hacıqabul rayonunda böyüklər arsında narkomaniya digər rayonlara nisbətən daha yüksəkdir və bunun yetkinlik yaşına çatmayanlardan yan keçəcəyini düşünmək çətindir. Baş inspektorun fikrinə görə, uşaqların sağlam tərbiyəsi üçün rayon ərazisində idman komplekslərinin yaradılması, məktəblilərin müxtəlif ekskursiyalara aparılması müsbət nəticə verə bilər. Onun söylədiyinə görə, rayon ərazisində idman kompleksləri yetərli olmadığından rayondakı yeniyetmələr idmanla məşğul olmaq üçün Əli-Bayramlı şəhərinə getməli olurlar.

Onu da qeyd etmək lazımdır ki, polis uşaq inspektorlarının funksiyaları aydın müəyyənləşdirilməyib. Onlar uşaqlarla məşğul olmaqla yanaşı 24 saatlıq növbələrə qalır, böyüklər tərəfindən törədilən cinayətlərlə, vəzifələrinə aid olmayan digər işlərlə məşğul olurlar. Nəticə etibarilə, polis uşaq inspektorları yetkinlik yaşına çatmayanlar arasına profilaktik işin aparılmasına yönəlmiş əsas vəzifə borclarını lazımi səviyyədə yerinə yetirə bilmirlər.

- ***Əmək haqqının az olması***

Uşaq polis inspektorlarının əmək haqqı təxminən 107-112 manat (və ya 110-115 ABŞ dolları) təşkil edir. Müqayisə üçün demək olar ki, yol patrul xidməti əməkdaşlarının əmək haqları bundan beş-yeddi dəfə çoxdur.

- ***Resursların çatışmazlığı***

Uşaq inspektorlarının rayonun müxtəlif kəndlərinə səfər etmələri üçün nəqliyyatları yoxdur. Onlar məcbur olub yerlərə ya öz maşınları ilə, ya da taksi ilə getməli olurlar ki, bu da işin səmərəliliyinə təsir göstərir.[17]

- ***Qadın polis uşaq inspektorlarının sayının azlığı***

Uşaq inspektorlarının arasında qadın işçilərin sayı olduqca azdır. Monitorinq qrupu yalnız Qazax rayonunda bir, Bakı şəhərində isə yeddi qadın inspektorla görüşə bilib. Qalan rayonlarda isə qadın inspektorların olması qeydə alınmayıb.

- ***Profilaktik proqramların hazırlanmasında iştiraklarının məhdud olması***

Polis uşaq inspektorları əksər rayonlarda yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların ən fəal üzvü hesab olunurlar. Lakin qeyd etmək lazımdır ki, polis uşaq inspektorları qanunla ziddiyyətdə olan və çətin tərbiyə olunan uşaqlara ünvanlanan və ya onlara təsir edəcək yerli, regional və milli proqram və planların hazırlanmasından kənarda qalırlar.

Həmçinin qeyd etmək lazımdır ki, bəzi rayonlarda polis-komissiya-məktəb münasibətləri ya zəif təşkil olunub, ya da bu münasibətlərdə ziddiyyətlər müşahidə edilir.[18].

---

[17]Ümumiyyətlə, polis orqanlarında işləyənlər bir məsələnin ədalətsizlik olduğu qənaətindədirlər. Bu da yol patrul xidmətində işləyən əməkdaşların maaşlarının onlarınkından 5-6 dəfə çox olmasıdır. Bu kimi ayrı-seçkilik polislər arasında sosial ədalətsizlik kimi qiymətləndirilir.

[18] Ağdaş rayonundan uşaq inspektorları qaraçı uşaqların dərsdən yayınaraq avaraçılıq və dilənçiliklə məşğul olmalarının qarşısının alınmasının çətin olduğunu bildiriblər. Onların verdiyi məlumata görə, bu kimi halların qarşısı rayon ərazisində alınsa da, həmin uşaqlar Bakı şəhərinə üz tutur və həmin uşaqlar öz fəaliyyətlərini orada davam etdirirlər. Vəziyyəti çətinləşdirən məsələlərdən biri də, məktəb direktorlarının uşaqların davamiyyəti ilə bağlı polis inspektoruna məlumat verməməsidir. Onların dediyinə görə, avaraçılıqla məşğul olan uşaqlar üçün fərdi nəzarət vərəqi açılır. Qaydaya görə bu uşaqlar hər iki həftədən bir uşaq inspektorunun yanına gəlib hesabat verməlidər. Ancaq bəzən məlum olur ki, uşaqlar hesabat verəndən dərhal sonra Bakı şəhərinə yola düşür və onlar öz fəaliyyətlərini davam etdirirlər. Bu cür hallara daimi nəzarət etmək imkanı məhduddur. Uşaqların məktəbə davamiyyətinə nəzarət etməli olan məktəb rəhbərləri isə nədənsə, bəzən bu kimi hallara göz yumurlar.

## 1.3. Rayon polis idarələrindəki (şöbələrindəki) müvəqqəti saxlama təcridxanalarının (MST) vəziyyəti [19]

- ***Yetkinlik yaşına çatmayanlar üçün ayrıca müvəqqəti saxlama təcridxanaları mövcud deyil***

Yetkinlik yaşına çatmayanların saxlanılması üçün polis orqanlarında ayrıca müvəqqəti saxlama təcridxanası yoxdur. Polis idarələrinin (şöbələrinin) müvəqqəti saxlama təcridxanaları həm uşaqların, həm də yetkinlik yaşına çatmışların saxlanılması üçün istifadə edilir. Rayonlardakı müvəqqəti saxlama təcridxanalarının heç birində uşaqlar üçün xüsusi kameralar yoxdur. MST rəislərinin verdikləri məlumata görə, uşaqlar saxlanarkən böyüklərdən ayrı kameralarda saxlanılırlar. Əgər uşaqlar eyni cinayət əməlində təqsirli bilinmirlərsə, eyni kamerada saxlanılırlar. Monitorinq zamanı yalnız bir neçə MST-də uşaqların saxlanıldığı müşahidə edildiyi üçün MST-lərdə uşaqların böyüklərdən ayrı saxlanılması barədə dəqiq fikir söyləmək çətindir.

- ***Əməkdaşlar üçün xüsusi təlimlər keçilməyib***

MST rəislərinin bir qismi bu vəzifəyə təyin olunarkən xüsusi kurslar keçmiş olsalar da,[20] digər qismi bu işlə bağlı heç bir təlim, yaxud kursda olmayıb. MST-lərdə çalışan polis əməkdaşlarına sual verildikdə, onların BMT-nin Uşaq Hüquqları Konvensiyasından başqa, yetkinlik yaşına çatmayanların azadlıqdan məhrumetmə yerlərində saxlanmasına dair qaydalar da daxil olmaqla digər beynəlxalq sənədlərlə, qaydalar və ya prinsiplərlə tanış olmadıqları müəyyən edilib.

- ***Gəzinti üçün verilən müddətdə mövcud olan qeyri-müəyyənlik***

MST-lərdə uşaqlar üçün verilən gəzinti vaxtları müxtəlifdir. Bəzi MST rəisləri bu vaxtın 10-15 dəqiqə, bəziləri isə 50-60 dəqiqə olduğunu bildirib.

- ***Əmək haqqı məbləğinin az olması***

Əksər MST rəisləri öz işlərindən razı olduqlarını bildirsələr də, maaşlarının az olması (MST rəislərinin maaşı 95 manat, növbətçilərin maaşları isə 80-90 manatdır) işlərinə həvəslə yanaşmalarına təsir göstərdiyini qeyd ediblər.

- ***Yetkinlik yaşına çatmayanları onların hüquqları barədə məlumatlandırmaq istiqamətində mövcud olan çatışmazlıqlar***

MST-yə düşmüş yetkinlik yaşına çatmayanlar başa düşə biləcəkləri tərzdə öz hüquq və vəzifələri barədə məlumatlandırılmır. MST-lərdə uşaq hüquqları və həmçinin müvəqqəti saxlama

---

[19]Monitorinq keçirilən zaman Bərdə rayon polis şöbəsindəki müvəqqəti saxlama təcridxanasına baxış keçirmək mümkün olmadı. RPŞ-nin rəisi hər vəchlə monitorinq qrupunun MST-yə baxmasını əngəlləməyə çalışdı və buna nail ola bildi. Monitorinq qrupunun əlində Daxili İşlər Nazirliyindən məktub olmamasını bəhanə gətirən rəis hətta bu məsələ ilə bağlı telefon vasitəsilə şifahi razılıq alınması ideyasını belə qəbul etmədi. Bu rayondakı MST isə monitorinq baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Cəbhə bölgəsinə yaxın ərazidə yerləşən bu MST-də həm də qonşu Ağdam rayonundan tutulmuş şəxslər saxlanılır. Oxşar vəziyyət Sumqayıt şəhər polis idarəsində də təkrarlandı. Adı çəkilən idarədə nəinki idarə rəhbərliyi, hətta növbətçi hissəyə yaxınlaşmağa imkan verilmədi. Belə ki, idarənin yerləşdiyi həyətin qapısındakı polis köşkündə duran polis serjantı növbətçi hissə ilə yalnız telefon əlaqəsi saxlamağın mümkün olduğunu bildirdi. Telefon vasitəsilə növbətçi hissədən idarənin bütün əməkdaşlarının rəisin yanında iclasda olduğunu və heç kəslə əlaqə saxlamağın mümkün olmadığını bildirdilər və başqa vaxt əlaqə saxlamaq üçün telefon nömrəsi verdilər. Sonradan müəyyən olundu ki, həmin telefon nömrəsi işlək deyil. Sumqayıt şəhər polis idarəsi ilə sonralar da dəfələrlə əlaqə yaratmağa cəhd edilsə də, bu mümkün olmadı. Belə ki, hər dəfə hamının iclasda olduğu bildirildi. Göstərilən səbəblərdən, Sumqayıt şəhər polisi idarəsində monitorinq aparmaq mümkün olmadı.

[20] Digər tərəfdən bu kurslar və ya təlimlərdə yetkinlik yaşına çatmayanların MST-lərdə saxlanması qaydaları, onlarla davranış qaydaları və bu sahədə olan beynəlxalq standartların öyrədilməsi sual altındadır.

təcridxanalarında saxlanılan şəxslərin hüquq və vəzifələrinə dair uşaqların başa düşə biləcəyi dildə yazılmış buklet, broşür və ya plakatlar müşahidə edilməyib.

- ***Paltar və yataq dəstlərinin yuyulması üçün şəraitin olmaması***

Bir sıra şəhər və rayonlarda cinayət törətməkdə ittiham edilən uşaqların MST-lərdə bəzən uzun müddət ərzində saxlanıldıqlarını (Bakı və Gəncə şəhərlərində yerləşən istintaq təcridxanalarına keçiriləndək) nəzərə alsaq, MST-lərdə paltar və ağların yuyulması və kimyəvi təmizlənməsi üçün zəruri şəraitin olmaması antisanitariyanın yayılması təhlükəsindən xəbər verir.

## 1.4. Məhkəmələr

İlk növbədə onu qeyd etmək lazımdır ki, məhkəmələrdə monitorinq və sorğuların həyata keçirilməsi üçün Ədliyyə Nazirliyi və ya Ali Məhkəmə tərəfindən icazə məktubunun alınması lazım oldu. Lakin məhkəmələrin əksəriyyəti bu cür icazə məktubunun təqdim edilməsini tələb etmədi[21]. Bərdə rayon məhkəməsində isə, monitorinq aparılmasına şərait yaradılmayıb.

- ***Beynəlxalq standartların tətbiq edilməsində mövcud olan çatışmazlıqlar***

Hakimlər, vəkillər və dövlət ittihamçıları qanunla ziddiyətdə olan uşaqlarla davranışa dair beynəlxalq standartlarla tanış deyil. Hakimlər, vəkillər və dövlət ittihamçılarının əksəriyyətinin BMT-nin UHK haqqında məlumatı var, lakin buna baxmayaraq onlar Konvensiya ilə təmin edilmiş hüquqları tam anlamırlar. Bakı və bir neçə rayonlarda aparılan monitorinqlər zamanı vəkillər BMT-nin UHK-na istinad etsələr belə, bu sadəcə ümumi xarakter daşıyıb və hər hansı bir spesifik maddənin tətbiqinə toxunulmayıb.

- ***Alternativ tədbirlərin tətbiqində mövcud olan çatışmazlıqlar***

Həbs qətimkan tədbirinə alternativlərin (nəzarət altına vermə) yalnız az ağır cinayətlərin (oğurluq) törədilməsində təqsirləndirilən uşaqlara qarşı tətbiq edilməsi müşahidələr zamanı müəyyən edilib. Lakin ağır və xüsusilə ağır cinayətlərin törədilməsində şübhəli bilinən uşaqlara qarşı həbs qətimkan tədbiri yeganə vasitə kimi tətbiq edilib.

Rayonlarda monitorinqi aparılan məhkəmə prosesləri zamanı böyük ictimai təhlükə törətməyən, az ağır cinayətlərə görə (məsələn, oğurluq) uşaqlara qarşı cəzalandırmaya və ya azadlıqdan məhrum etməyə alternativ tədbirlərin tətbiq edilməsi müşahidə edilib. Lakin, ağır və xüsusilə ağır cinayətlərə görə hakimlər bütün hallarda azadlıqdan məhrumetmə cəzası vermək qərarını seçiblər.

- ***Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların cəlb edilməsində mövcud olan çatışmazlıqlar***

Əksər şəhər və rayonlarda fəaliyyət göstərən məhkəmələr yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaları uşaqlara dair məhkəmə prosesləri barədə məlumatlandırmır.

- ***Əmək haqqı məbləğinin az olması***

[21] Müqayisə üçün qeyd etmək lazımdır ki, rayon polis idarələri (şöbələri) monitorinqin keçirilməsinin yalnız Daxili İşlər Nazirliyindən məktub və ya onlara zəng olunduqdan sonra mümkün olacağını bildirib. Rəislər bunu nazirliyin monitorinqin keçirilməsi barədə məlumatının olub-olmamasını təsdiqləmək üçün tələb olunduğunu bildirib.

Yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsini təmin etmək məqsədilə dövlət tərəfindən təyin edilmiş vəkillər aldıqları az miqdarda məvacibə görə öz vəzifələrini lazımi səviyyədə yerinə yetirmir.

- ***Məhkəmə tərəfindən işlərin ağlabatan müddət ərzində baxılmaması***

Monitorinq zamanı Ağır cinayətlərə dair işlər üzrə Məhkəmə ağır və xüsusilə ağır cinayətlərin törədilməsində ittiham edilən uşaqların işlərinin baxılması nöqteyi nəzərindən ən fəal olub. Lakin bu məhkəmənin fəaliyyətində xeyli çatışmazlıqlar müəyyən edilib. Məsələn, əvvəlcədən uşaqlara, onların valideynləri və vəkillərinə məlumat verilmədən məhkəmə iclaslarının vaxtının tez-tez dəyişdirilməsi. Bu xırda detal olsa da, onun məhkəmə prosesində iştirak edənlərə nə dərəcədə mənfi təsir etməsi aşağıdakı təsvirdən daha aydın görünür. Məhkəmə vaxtının dəyişdirilməsi səbəbindən uşaqlar bir neçə dəfə istintaq təcridxanasından məhkəmə binasına gətirilib, məhkəmənin binasında saxlanılıb və məhkəmə dinləməsində iştirak etmədən geri qaytarılıb. Məhkəmə binasında uzun müddət saxlanılarkən onlar normal qida ilə təmin olunmur, və susuz saxlanılırlar.
Beynəlxalq sənədlədə, habelə milli qanunvericilikdə yetkinlik yaşına çatmayanlara dair istintaq və məhkəmə işlərinin tez bir zaman kəsiyi ərzində başa çatdırılması qeyd edilsə də, Ağır cinayətlərə dair işlər üzrə Məhkəmənin icraatında olan bir neçə məhkəmə işi 10-12 ay ərzində baxılır. Bu cür hallar onu deməyə əsas verir ki, uşaqlar məhkəmə tərəfindən qeyri-insani və alçaldıcı rəftara məruz qalır.

## 1.5. İstintaq təcridxanaları

- ***Uşaqların yetkinlik yaşına çatmış şəxslərlə birgə saxlanılması***

Bakı şəhərinin Şüvəlan qəsəbəsində yerləşən İstintaq Təcridxanası cinayət törətməkdə ittiham edilən və barəsində həbs qətimkan tədbiri çıxarılmış yetkinlik yaşına çatmayanların saxlanılması üçün xüsusi bölməyə malikdir. Lakin burada qanunvericiliyə zidd olaraq, uşaqlarla birlikdə yetkinilk yaşına çatmış şəxslərin saxlanılması faktı da müşahidə edilib.

- ***Təhsilin təşkili üçün resursların olmaması***

Uşaqların bir çoxunun burada uzun müddət ərzində saxlanılmasına (3-15 ay və ya daha çox) baxmayaraq, onlar təhsil almaq hüququndan istifadə edə bilmir və müəssisədə heç bir təhsil alma imkanı mövcud deyil. Qeyd etmək lazımdır ki, bu məsələ hələ 2005-ci ildə QHT Alyansının BMT-nin Uşaq Hüquqları Komitəsinə hazırladığı "Azərbaycanın yuvenal ədliyyə sistemi" adlı alternativ hesabatda qaldırılaraq aidiyyatı qurumların diqqətinə çatdırılsa da, indiyədək uşaqların təhsil hüquqlarının təmin edilməsi ilə bağlı heç bir addım atılmayıb.

Onu da qeyd etmək lazımdır ki, CPM-in 434.2 maddəsinə əsasən, yetkinlik yaşına çatmayan şəxs barəsində həbs qətimkan tədbiri yalnız müstəsna tədbir kimi və ən qısa müddət ərzində tətbiq edilməlidir. Azadlıqdan məhrumetmənin (və ya həbs qətimkan tədbirinin) tətbiqi və müddəti müəyyən edildikdə beynəlxalq standartlar "mütənasiblik" və "ağlabatanlıq" prinsiplərinin tətbiqini tələb edir. Yetkinlik yaşına çatmayanların 3 saylı İstintaq təcridxanasında saxlanılması CPM-nin 434.2 maddəsinin pozulmasını aydın göstərir.[22]

## 1.6. Açıq və qapalı tipli xüsusi tədris müəssisələri

[22] AR CPM, Maddə 434.2: "Yetkinlik yaşına çatmayana şəxs barəsində həbs qətimkan tədbirinin müstəsna tədbir kimi və mümkün qədər qısa müddət ərzində tətbiq edilməsinə yol verilir".

- ***Müəssisələrə yerləşdirmənin zəruriliyinin yoxlanılması və müntəzəm monitorinqin aparılması***

Uşaqların xüsusi tədris müəssisələrinə yerləşdirilməsinin müntəzəm olaraq monitorinqi aparılmır. Müvəqqəti tərbiyəvi tədbir vasitəsi kimi buraya yerləşdirilmiş uşaqların əksəriyyəti burada hətta 2 ildən artıq saxlanılır.

Müəssisəyə yerləşdirmənin səmərəliliyi və müxtəlif səbəblərə görə buraya yerləşdirilmiş uşaqlara təsiri araşdırılmayıb, öyrənilməyib və müzakirə edilməyib. Bu isə kortəbii olaraq, geniş mənaya malik olan "ozünü pis aparır" "damğa"sı altında, uşaqların bu müəssisələrə yerləşdirilməsinə gətirib çıxarır.

Açıq və ya qapalı xüsusi tədris müəssisələri müxtəlif aspektlərə görə reallıqda qapalı müəssisələr kimi fəaliyyət göstərir. Burada heç bir ictimai nəzarət və monitorinq və həmçinin hesabatlılıq mexanizmləri mövcud deyil. Müəssisələrə daxil olmaq üçün Təhsil Nazirliyi tərəfindən icazənin alınması tələb olunur. Burada saxlanılan uşaqlar ciddi nəzarət altındadır və müəssisəni icazə olmadan tərk edə bilməz. İcazə verildiyi halda isə uşaq müəssisəni yalnız müəssisə nümayəndəsinin müşayəti ilə tərk edə bilər. İctimai nəzarət mexanizmi olmadığına görə, uşaq hüquqlarının pozulması, uşaqlara qarşı zorakılıq və müəllim və digər işçi heyəti tərəfindən vəzifələrindən sui-istifadə halları geniş yayılıb.

- ***Reabilitasiya xidmətlərinin təşkilində çatışmazlıqlar***

Konkret uşağın problem və ehtiyaclarına uyğun olaraq onların inkişafı və reabilitasiyası üçün hər hansı bir fərdi inkişaf planları mövcud deyil.

Monitorinq nəticəsində bu müəssisələrin sadəcə olaraq davranışı "çətin" olan, "özünü pis aparan" və ya qanunla münaqişədə olan uşaqların 18 yaşına çatanadək "qapalı məktəblərdə" təcrid edilərək saxlanılması üçün istifadə olunduğu aşkar edildi. Nəticədə bu uşaqlar müəssisələrdən cəmiyyətə hazırlıqsız buraxılırlar.

Monitorinq həmçinin uşaqların spesifik problemlərini həll etməyə yönəlmiş hər-hansı sosial reabilitasiya və inteqrasiya tədbirlərinin tətbiq olunmadığını təsdiq etdi.

Sosial işçilərin, yetkinlik yaşına çatmayanlar üzrə komissiyalarda tam ştatda işləyən mütəxəssislərin, habelə uşaqlara dair detallaşdırılmış və bu və ya digər meyara əsasən təsnifləşdirilmiş məlumatın mövcud olmaması ilk növbədə, yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların islahatının həyata keçirilməsini zəruri edir. Bu islahat uşaqların hər hansı bir müəssisəyə yerləşdirilməsinin komissiyalar tərəfindən yalnız bütün mümkün profilaktik və reabilitasiya tədbirləri özünü doğrultmadıqda mümkün olmasını təmin etməlidir.

# II. MONİTORİNQİN AYRI-AYRI MÜƏSSİSƏLƏR ÜZRƏ NƏTİCƏLƏRİ

## 2.0. Xüsusi tədris müəssisələrinin müqayisəli cədvəli

Azərbaycanda iki xüsusi tədris müəssisəsi fəaliyyət göstərir ki, bunlardan biri Quba rayonunda yerləşən Oğlanlar üçün qapalı tipli texniki-peşə məktəbi, digəri isə Bakı şəhəri Mərdakan qəsəbəsində yerləşən Oğlanlar üçün açıq tipli xüsusi internat məktəbidir.
Aşağıda verilmiş cədvəldə bu müəssisələrin müqayisəli təhlili aparılıb:

| Meyarlar | Bakı ş. Mərdəkan qəs. Oğlanlar üçün açıq tipli xüsusi internat məktəbi | Quba rayon Oğlanlar üçün qapalı tipli xüsusi texniki-peşə məktəbi |
|---|---|---|
| **Yaş məhdudiyyəti** | 8-18 yaş | 11-18 yaş |
| **Yerləşdirmənin səbəbləri** | Polis və ya yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyanın barəsində çıxarılan qərarlara tabe olmadıqda və ya onlara əməl etmədikdə, məktəbə davamlı şəkildə getmədikdə, valideynlərlə çətin münasibətlərdə olduqda, psixoloji zorakılığa məruz qaldıqda, davranış tərzi və özünü aparması pis olduqda. | Qeyri-qanuni hərəkət, hüquq pozuntusu və ya cinayət törətdikdə və bu zaman AR CM-ə əsasən cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmadıqda, həmçinin əvvəllər valideyn və ya polis nəzarətinə verilmiş lakin bununla reabilitasiya edilməsi mümkün sayılmayan uşaqlar. |
| **Göndərən təşkilat və ya qurum** | Valideynlərin və ya hüquqi nümayəndələrin vəsatəti əsasında yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar tərəfindən.<br>14 yaşından yuxarı olan uşaqların yazılı razılığı alınmalıdır. | Məhkəmələr (yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyanın qərarı və vəsatəti əsasında). |
| **Funksiyalar** | Qanunla münaqişədə olan və xüsusi müdafiə tədbirlərinə ehtiyac duyan uşaqların müdafiəsi və onlar arasında profilaktik işin təşkili. Təhsilin təşkili, sosial inteqrasiya və reabilitasiyanın aparılması. | Ağır və xüsusilə ağır cinayətlər törətmiş, lakin yaş faktoruna görə cinayət məsuliyyəti daşımayan, həmçinin müvafiq dövlət qurumları tərəfindən əvvəl barələrində çıxarılan müxtəlif qərarlara tabe olmayan və ya onları yerinə yetirməyən, yaxud hüquqpozmalar törətmiş və pozğun həyat tərzi sürən uşaqların saxlanması üçün nəzərdə tutulub. Təhsilin təşkili, sosial inteqrasiya və reabilitasiyanın aparılması. |
| **Müəssisələrin şəraiti** | Açıq tipli | Qapalı tipli, xüsusi rejimli |
| **Xüsusiyyətlər** | Uşaqlar müəssisəni tərk edə bilməzlər. Lakin tərk etmək üçün icazə almaq mümkündür. | Müvəqqəti təcridetmə rejimi. Uşaqlar müəssisəni yalnız xüsusi icazə almaqla və mətkəbin nümayəndəsinin nəzarəti altında tərk edə bilərlər. |
| **Yazışma** | Senzura tətbiq edilmir. Telefon danışıqları məhdudlaşdırılmayıb. | Telefon danışıqları və yazışma senzuradan keçir. |
| **Nəzarət** | Daimi nəzarət və video-müşahidə nəzərdə tutulmayıb. | Nəzarət və müşahidə tələb olunur (gecə-gündüz, yatmaq vaxtı da daxil olmaqla). |

## 2.1. Quba rayon Oğlanlar üçün qapalı tipli xüsusi texniki-peşə məktəbi

***Quba rayon oğlanlar üçün qapalı tipli xüsusi texniki-peşə məktəbində saxlanılan yetkinlik yaşına çatmayanların kateqoriyası:***

Aşağıdakı meyarlara cavab verən yetkinlik yaşına çatmayanlar qapalı tipli xüsusi texniki-peşə məktəbinə yerləşdirilə bilər[23]:

1) 11-18 yaş;
2) Mütamadi olaraq qeyri-qanuni hərəkətlərə və hüquqpozuntularına yol verən;
3) Polis orqanları tərəfindən əvvəlki hüquq pozuntularına görə qeydiyyata və nəzarətə götürülmüş, lakin reabilitasiyası mümkün sayılmayan;
4) Ağır və ya az ağır cinayət törədərkən 14 yaşı tamam olmayan;
5) Az ağır cinayət törədərkən 14-16 yaş arasında olan və məhkəmə tərəfindən törətdiyi cinayətin xüsusiyyətlərinə görə cəzadan azad edilən və bunun əvəzində cəzalandırmanın məqsədinə nail olmaq üçün xüsusi tədris müəssisəsi və ya tibb müəssisəsinə yerləşdirilən.

Ağır və xüsusilə ağır cinayət törətmiş, lakin AR CM-ə əsasən cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan[24] uşaqla bağlı yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar məhkəmə qarşısında uşağın xüsusi tədris müəssisələrinə yerləşdirilməsi vəsatətilə çıxış edə bilər. Uşağın xüsusi tədris müəssisəsinə yerləşdirilməsi barədə məhkəmə, həmçinin 14-16 yaşda olan uşaq tərəfindən törədilmiş az ağır cinayətə görə təyin ediləcək cəzanın məqsədinə uşağın xüsusi tədris müəssisəsinə yerləşdirilməsi nəticəsində nail olmağın mümkünlüyü zamanı da qərar verə bilər. Bu halda yerləşdirmənin müddəti yetkinlik yaşına çatmayan tərəfindən törədilmiş cinayətə görə CM ilə müəyyən edilmiş cəzanın müddətindən çox ola bilməz.

Monitorinq zamanı müəssisədə 13-18 yaş arasında 23 oğlan uşağının tərbiyə aldığı qeydə alınıb. Lakin qanun müəssisənin yaradılması və fəaliyyəti üçün minimum 25 uşağın olması tələbini təsbit edir[25]. Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnaməyə əsasən, sözügedən müəssisədə 25-dən az uşaq olduğu üçün müəssisənin bağlanması zəruridir[26].

Müəssisədə saxlanılan 23 uşaqdan 22-si yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların qərarı, 1-i isə uşaq-qəbuledici-paylayıcı məntəqəsinin müraciəti ilə Təhsil Nazirliyi tərəfindən göndərilib.

Monitorinq keçirilən zaman müəssisədə cinayət əlamətləri olan əməl (oğurluq) törətmiş 3 yetkinlik yaşına çatmayan şəxs tərbiyə alırdı.

Monitorinq aparılan zaman müəyyən edilib ki, müəssisədə ən uzun müddət saxlanılan uşaq artıq 3 ildir ki, buradadır. Müəssisədə saxlanılan uşaqlardan ən kiçik oğlan uşağının 13, ən böyüyünün isə 18 yaşı tamam olub.

Qapalı tipli xüsusi tədris müəssisəsində saxlanılma müddəti 3 ildən artıq ola bilməz. Sorğu zamanı məlum olub ki, burada saxlanılan uşaqlardan biri artıq 3 ildir ki, müəssisədə saxlanılır.

---

[23] "Açıq və qapalı tipli xüsusi təlim- tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə", 31 may 2002. Mad. 1.3-1.4.

[24] AR CM-in 20.1-ci maddəsinə əsasən, cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir. Lakin, 20.2-ci maddə ilə, bir sıra cinayətlərə görə bu yaş on dörd müəyyən edilib.

[25] "Açıq və qapalı tipli xüsusi təlim- tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə", Mad 2.1: "Müəssisə şagirdlərin sayı 25-dən az olmadıqda yaradılır".

[26] "Açıq və qapalı tipli xüsusi təlim- tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə". Mad 2.1: "Müəssisə şagirdlərin sayı 25-dən az olmadıqda yaradılır".

Qanunda uşağın müəssisədə saxlanması müddətinə dair məhdudiyyət qoyulsa da, müəssisədən vaxtında əvvəl buraxılma yalnız müəssisə rəhbərinin tövsiyəsi və məhkəmənin qərarı ilə mümkündür[27]. Müəssisə rəhbərliyi yetkinlik yaşına çatmayanların müəssisədən buraxılması qənaətinə gəldikdə və yaxud onlar yetkinlik yaşına çatdıqda, uşağın davranışını nəzərə alaraq yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya müraciət edir.

***Tərbiyə olunanların saxlanılma şəraiti***

Müəssisə məktəbdən, yeməkxanadan, yardımçı təsərrüfat yerlərindən, həyətyanı sahədən, peşə emalatxanalarından ibarətdir. Məktəbdə sinif otaqları, kitabxana, idman zalı, müəllimlər üçün otaqlar var. Burada dərsləri keçmək üçün ayrı-ayrı fənn otaqları nəzərdə tutulub. Sinif otaqlarının vəziyyətini qənaətbəxş hesab etmək olar.

Qeyd etmək lazımdır ki, "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsi haqqında" Nümunəvi Əsasnamənin 2.2-ci bəndinə əsasən, bu tippli müəssisələrdə hər 1-3 tərbiyə olunan üçün ayrıca yataq otaqları olmalıdır. Monitorinq zamanı isə 5-10 uşaq üçün nəzərdə tutulmuş yataq otaqları müşahidə edilib. Müsahibədə iştirak etmiş 23 uşaq onların ümumi otaqlarda – "barak"larda yatdığını və yataq dəstlərinin köhnə və çirkli olduğunu bildirib. Söhbət zamanı uşaqlardan 5-i təkadamlıq otaqda qalmaq istədiyini qeyd edib. 4 nəfər isə gecələr onlara qarşı pis rəftar olunmasından şikayət edib.

Monitorinq zamanı həmçinin məlum olub ki, müəssisə hər bir uşağın ehtiyacı və problemlərinə uyğun olaraq sosial işçi, psixoloq və yuvenal ədliyyə sahəsində mütəxəssislərin iştirakı ilə hazırlanmış və uşaqların sosial-psixoloji reabilitasiyası, cəmiyyətə və ailəyə inteqrasiyasına yönəlmiş xüsusi proqram və ya fəaliyyət planına malik deyil[28]. Müəssisə rəhbərliyinin verdiyi məlumata görə, müəssisədə saxlanıldığı müddət ərzində hər bir uşağın vəziyyətinin inkişafı və ya sosial-psixoloji statusunun dəyişməsinə dair dövrü araşdırmalar aparılır və araşdırmanın nəticəsi əsasında psixoloqun iştirakı ilə inkişaf planı hazırlanır. Lakin monitorinq keçirən zaman bu cür planlarla tanış olmaq mümkün olmadı və uşaqlarla söhbətdən məlum oldu ki, onlar bu planların mövcudluğundan məlumatsızdırlar.[29].

23 uşaqdan 18-i valideynləri və qohumlarının onlara baş çəkmədiyini, 4 nəfər hərdənbir, 1 nəfər isə mütamadi olaraq baş çəkdiklərini bildirib. Uşaqlardan 10 nəfəri müəssisədə ziyarət edənlərlə rahat, azad və məhdudiyyyətsiz görüşmək və söhbətləşmək imkanının yaradılmadığını bildirib.

İntizam tədbirlərinin tətbiqinə gəlincə isə, uşaqların əksəriyyəti məcburi əməyə[30] cəlb olunduqlarını bildirib. Bu isə məcburi əməyə cəlb edilmənin intizam tədbiri kimi istifadəsinə qadağa qoyan qanunun kobud şəkildə pozulmasıdır[31]. Döyülmə barədə verilən suala[32] 6 nəfər

---

[27] "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə". Mad 3.3: "Şagirdlər qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsində 3 ilə qədər saxlanılırlar. Saxlanma müddəti şagirdin arzusu ilə təhsil pillələrindən biri başa çatdırılanadək müəyyən edilmiş qaydada uzadıla bilər".

[28] "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə". Mad. 3.4: "Qapalı tipli müəssisədə şagirdin reabilitasiya müddəti onun 3 ay ərzində diaqnostikası keçiriləndən sonra müəssisənin psixoloji-tibbi-pedaqoji komissiyası tərəfindən müəyyən edilir. Şagird müəssisəyə daxil olarkən onun psixoloji, tibbi və sosial reabilitasiyasının dərəcəsini və dinamikasını müəyyənləşdirmək üçün xüsusi vərəqə açılır ki, bu da şagirdin müəssisədə qaldığı bütün müddət ərzində pedaqoq-psixoloq tərəfindən doldurulur. Bu vərəqəyə diaqnostik müayinə və müşahidələrin nəticələri, şagirdin təhsili, əməyi, ictimai fəaliyyəti və digər şagirdlərlə, valideynləri ilə (qanuni nümayəndələrilə), pedaqoqlarla qarşılıqlı münasibəti, onlarla ünsiyyəti haqqında qeydlər daxil edilir. Alınan bütün məlumat konfidensial hesab edilir və şagirdlərin hüquqlarının və qanuni mənafeyinin ziddinə istifadə edilə bilməz."

[29] "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə", Mad. 1.7: "Yetkinlik yaşına çatmayanların müəssisədə saxlanılması, təhsili və tərbiyəsi qaydası onların yaşı, cinsi, habelə psixoloji vəziyyəti və səhhəti nəzərə alınmaqla müəyyən edilir. Bu zaman fərdi sosial-psixoloji diaqnostika əsasında psixokorreksiya işi üçün şəraitin yaradılması, sağlamlaşdırıcı tərbiyə tədbirləri sisteminin, ictimai faydalı işlə məşğulluğun, şagirdlərin asudə vaxtı da daxil olmaqla, günün səmərəli bölgüsünün təşkili, şagirdlərin neqativ hallardan maksimum müdafiəsi təmin edilməlidir."

[30] Uşaqlara «Siz nadinclik edəndə müəllimlər, tərbiyəçilər sizə qarşı hansı tədbirlər tətbiq edirlər?» sualı verilmişdir.

[31] "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə", Mad.5.12: "məcburi ictimai işlər intizam tədbiri kimi tətbiq edilə bilməz".

yetkinlik yaşına çatmayan cavab vermək istəmədiyini, 4 nəfər isə hərdən döyülmə hallarının olduğunu bildirib.

***Qidalanma və tibbi xidmətin təşkili***

Daxili qaydalara uyğun olaraq, müəssisədə uşaqlar, gündə üç dəfə olmaqla, məktəb yeməkxanasında yeməklə təmin edilir. Məktəbin yeməkxanası köhnədir və təmirə ehtiyacı var. Monitorinq zamanı yeməkxananın təmiz olduğu müşahidə edilib.

Açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsində tərbiyə olunan şəxslərə tibbi xidmətin göstərilməsi məqsədi ilə tibbi qovşaq fəaliyyət göstərir. Lakin stomatoloji kabinet mövcüd deyil. Müəssisənin tibbi hissəsindəki mövcud vəziyyəti ümumilikdə qənaətbəxş hesab etmək olar. "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsi haqqında" Nümunəvi Əsasnamənin 2-ci bəndinə əsasən, müəssisədə tibbi kabinetlə yanaşı, psixoloq kabineti də fəaliyyət göstərməlidir[33]. Müəssisə rəhbərinin sözlərinə görə, müəssisədə, ayrıca psixoloq kabineti mövcud olmasa da, psixoloq tam ştatda fəaliyyət göstərir.

## 2.2. Bakı şəhər Mərdəkan qəsəbəsi Oğlanlar üçün xüsusi internat məktəbi

***Müəssisədə saxlanılan yetkinlik yaşına çatmayanların kateqoriyası:***

Aşağıdakı meyarlara cavab verən yetkinlik yaşına çatmayanlar açıq-tipli xüsusi internat məktəbinə yerləşdirilə bilər[34]:

- 8-18 yaş;
- yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyanın qərarı əsasında;
- Valideynləri və ya qanuni nümayəndələrinin vəsatəti əsasında;
- 14 yaşından yuxarı olan uşaqların yazılı razılığı əsasında;
- Davamlı şəkildə qanun pozuntularına yol vermiş uşaqlar;
- Hər-hansı psixoloji zorakılıq qurbanı olmuş uşaqlar;
- Məktəbə getməyən və valideynləri ilə çətin münasibətlərdə olan uşaqlar[35].

Əlavə olaraq, aşağıdakı şəxslər yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların xahişi ilə açıq-tipli xüsusi tədris-tərbiyə müəssisələrinə göndərilə bilər[36]:

1. 14 yaşına çatmış yetkinlik yaşına çatmayanların, onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı ilə;
2. Xüsusi pedaqoji yanaşma tələb olunan 8 yaşından on 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar;
3. Böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanlar;
4. Valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı ilə çətin tərbiyə olunan hesab edilmiş yetkinlik yaşına çatmayanlar;
5. Müxtəlif hüquqpozmalara görə daxili işlər orqanları tərəfindən qeydiyyata alınmış, lakin islah olunması mümkün olmayan şəxslər.

---

[32] Uşaqlara "Siz döyülməyə, təhqirə məruz qalmısınızmı?" sualı verilmişdir.
[33] "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə", Mad.2.
[34] "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə", Mad. 3.1, "Qapalı tipli müəssisədə 11 yaşından 18 yaşınadək şəxslər yerləşdirilə bilərlər. Açıq tipli müssisəyə 8 yaşından 18 yaşına qədər şəxslər qəbul edilirlər."
[35] "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə", Mad. 1.4.
[36] AR-in 24 may 2005-ci il tarixli "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquqpozuntularının profilaktikası haqqında" Qanununun 13.1 maddəsi.

Monitorinq aparılan zaman müəyyən olunub ki, müəssisədə 8-16 yaş arasında 72 oğlan uşağı tərbiyə alır.

Burada uşaqlar 9-cü sinfə qədər təhsil alırlar.

Uşaqlar bura yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalarn qərarı ilə aşağıdakı meyarlara əsasən yerləşdirilib:

- təhsildən yayınma və evdən qaçma;
- valideynlərlə ünsiyyətdə çətinlik və
- çətin tərbiyə olunan sayıldığından.

Monitorinq aparılan müddətdə bu müəssisədə cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətmiş yetkinlik yaşına çatmayan şəxslər qeydə alınmayıb. Əvvəllər isə 14 yaşınadək olan və cinayət törətmiş uşaqlar bu müəssisədə saxlanılıb.

Qanunvericiliyə əsasən, müəssisədə 8-18 yaşlı yetkinlik yaşına çatmayanların saxlanılması nəzərdə tutulsa da, bura 14 yaşından yuxarı uşaq qəbul edilmir[37].

Uşaqlar müəssisədə 3 ilə qədər saxlanıla bilər, istisna hallarda isə təhsil pilləsindən birini başa çatdıranadək onlar daha uzun müddətə saxlanıla bilərlər[38]. Müəssisə rəhbərinin sorğu vərəqəsində göstərdiyi məlumata əsasən, müəssisədə ən uzun müddət saxlanılan uşaq buraya 2001-ci ildə qəbul edilib.

Müəssisə rəhbərliyi yetkinlik yaşına çatmayanların müəssisədən buraxılmasının mümkünlüyü qənaətinə gəldikdə isə, uşağın davranışını nəzərə alaraq, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya müraciət etdiklərini bildirib[39]. Tərbiyə olunmuş uşaqlar yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın qərarı ilə bu müəssisədən valideynlərinin yanına, valideynlər olmadıqda isə müvafiq müəssisələrə göndərilə bilərlər. Lakin müəssisə rəhbəri hər hansı bir uşağın özünü yaxşı aparmasına görə vaxtından əvvəl azad edilməsi ilə bağlı yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaya müraciət etməsinə dair nümunə gətirə bilmədi.

***Tərbiyə olunanların saxlanılma şəraiti***

Açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi məktəbdən, yeməkxanadan, yardımçı təsərrüfat yerlərindən, böyük həyətyanı sahədən ibarətdir.

Uşaqların təhsil aldıqları məktəb öz quruluşuna görə adi ümümtəhsil məktəblərindən, demək olar ki, fərqlənmir. Məktəbdə sinif otaqları, kitabxana, idman zalı, müəllimlər üçün otaqlar var. Burada dərsləri keçmək üçün ayrı-ayrı fənn otaqları nəzərdə tutulub. Məktəbdəki sinif otaqlarının vəziyyətini qənaətbəxş hesab etmək olar.

---

[37] Bu amilin qanuna uyğun olmaması ilə razı olan müəssisə rəhbəri bildirdi ki, tərbiyə müəssisəsinin nə maddi-texniki bazası, nə də ki, tərbiyə-təhsil bazası buraya yuxarı yaş həddində olan yetkinlik yaşına çatmayan uşaqların yerləşdirməsinə imkan yaratmır. Yalnız uşağın təhsil pilləsini başa çatdırmaq lazım olduqda o, 14 yaşından sonra da burada saxlanılır. Göstərilən halı müəssisə rəhbəri, həmçinin, onunla da izah etdi ki, azyaşlıların 17-18 yaşlı yeniyetmələrlə birgə tərbiyə olunması psixoloji və pedaqoji baxımdan çətindir və məqsədəuyğun deyildir.

[38] "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə", Mad. 3.3.

[39] "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə", Mad. 3.3: "Psixoloji-tibbi-pedoqoji komissiya hər 6 aydan bir reabilitasiya prosesinin dinamikasını nəzərdən keçirir və şagirdlərlə iş üzrə fərdi plana düzəlişlər edir. Müsbət nəticələr olarsa, müəssisənin müdiriyyəti müəssisənin yerləşdiyi ərazi üzrə Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyaya şagirdin müəssisədən vaxtından əvvəl buraxılması barədə təkliflə müraciət edir. Şagirdin qapalı tipli müəssisədən buraxılması müəssisənin müdiriyyətinin rəyi əsasında həmin müəssisənin yerləşdiyi yerin məhkəməsinin qərarı ilə həyata keçirilir."

Bəzi otaqlarda televizor var. Monitorinq aparılan zaman, isitmə sistemi işləmədiyindən, sinif otaqları soyuq idi. Müəssisənin müdiri belə vəziyyəti aparılan təmir işləri ilə əlaqələndirib və ümumiyyətlə müəssisədə istilik sisteminin yaxşı işlədiyini bildirib. Lakin qeyd etmək lazımdır ki, məktəbin dəhlizlərində ümumiyyətlə isitmə sistemi yoxdur və bu səbəbdən dəhlizlər həddindən artıq soyuqdur.

Uşaqlar üçün nəzərdə tutulmuş gəzinti meydançaları (burada futbol, voleybol və s. oyunlar oynamaq üçün şərait var) və binaların həyətyanı sahələrindəki şərait, onların təmizliyi mövcud tələblərə cavab verir.

Müəssisədə uşaqların istifadəsi üçün ayrılmış kitabaxana mövcuddur. Kitabxana, demək olar ki, yetərli ədəbiyyat bazasına malikdir. Burada azərbaycan və xarici ədəbiyyat nümunələri var. Kitabxanada kitablar azərbaycan və rus dillərindədir. Azərbaycan dilində olan kitablar həm latın, həm də kiril əlifbası ilə nəşr edilmiş kitablardır.

Müəssisənin ərzaq və məişət məmulatlarının saxlanılması üçün nəzərdə tutulmuş yardımçı təsərrüfat yerləri də var ki, burada ən zəruri ərzaq və məişət məhsulları saxlanılır.

Müəssisənin uşaqlar üçün nəzərdə tutulmuş hamamında daimi isti və soyuq su olsa da, təmirə böyük ehtiyacı var. Lakin monitorinq keçirilən vaxt müəssisədə, ümumi hamamdan başqa, tərbiyə olunanların bir-birindən təcrid olunmuş şəkildə yuyunmasını təşkil etmək üçün xüsusi kabinələri olan hamamın tikintisi, demək olar ki, yekunlaşmaq üzrə idi.

Qeyd etmək lazımdır ki, "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsi haqda" Nümunəvi Əsasnamənin 2.2-ci bəndinə əsasən, bu müəssisələrdə hər 1-3 tərbiyə olunan üçün yataq otaqları olmalıdır[40]. Monitorinq aparılarkən müəyyən olunub ki, tərbiyə alanlar üçün məktəbin idman zalında 50-60 çarpayı yerləşdirilib. Müdiriyyətin sözlərinə görə, bu, binada aparılan təmirlə bağlıdır. Məktəbdə həmçinin 24 çarpayıdan ibarət olan yataq otağı da var. Otağın havası, sahəsi kiçik, çarpayıların sayı isə çox olduğundan, ağırdır. Yataq dəstlərinin vəziyyətini qənaətbəxş hesab etmək olar.

Müəssisə rəhbərliyinin məlumatına görə, ozünü davamlı şəkildə pis aparan və ya barəsində tətbiq edilən reabilitasiya tədbirləri nəticə verməyən uşaqlar Quba rayon texniki-peşə məktəbinə göndərilir. Hansı reabilitasiya tədbirlərinin tətbiq edildiyi barədə verilən suala müəssisə rəhbəri cavab verə bilmədi.

Barələrində intizam tədbirlərinin tətbiq edilməsi haqda verilən suala cavab olaraq, uşaqlar tənbeh edildiklərini bildiriblər. Onlar tənbeh tədbiri kimi qulaqlarının buruldüğunu, üzlərinə şillə vurulduğunu, habelə asudə vaxtlarının məhdudlaşdırıldığını qeyd ediblər.

Monitorinq zamanı monitorinq qrupunun üzvləri məktəbin müəllimi tərəfindən uşağa şillə vurulduğunun şahidi olub və bu barədə müəssisə rəhbərinə məlumat veriblər. Müəssisə rəhbəri buna inanmadığını və bu cür halların ümumiyyətlə mövcud olmadığını bildirsə də, bu hadisəni araşdıracağına söz verib.

Monitorinq zamanı həmçinin aşkar olunub ki, müəssisə hər bir uşağın ehtiyacı və problemlərinə uyğun olaraq onların sosial və psixoloji reabilitasiyası, cəmiyyətə və ailəyə inteqrasiyasına yönəlmiş xüsusi proqram və ya fəaliyyət planına malik deyil. Uşaqlarla söhbətdən məlum olub ki, onlar bu planların mövcudluğundan məlumatsızdır[41].

---

[40] "Açıq və qapalı tipli xüsusi təlim- tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə", Mad. 2.2: "Müəssisə... 1-3 nəfər üçün nəzərdə tutulmuş yataq otaqlarına, müəyyən edilmiş normalara müvafiq olaraq ayrı-ayrı kabinetləri olan sanitariya qovşaqlarına".

[41] "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə", Mad. 1.7: "Yetkinlik yaşına çatmayanların müəssisədə saxlanılması, təhsili və tərbiyəsi qaydası onların yaşı, cinsi, habelə psixoloji vəziyyəti və səhhəti

*Uşaqların qidalanması və tibbi xidmətin vəziyyəti*

Daxili intizam qaydalarına uyğun olaraq, uşaqlar, gündə üç dəfə olmaqla, ümumi yeməkxanada qidalanırlar. Yeməkxananın xörəklərin hazırlandığı hissəsinin köhnə və təmirə ehtiyacı olmasına baxmayaraq, gigiyenik vəziyyəti normaldır. Qidanın rasionunu qənaətbəxş hesab etmək olar. Müəssisə rəhbərinin sözlərinə görə, hər gün bir uşağın qidalanması üçün 2,2-2,4 manat və ya 2,5-3 ABŞ dolları məbləğində vəsait xərclənir. Yeməkxana, təmirə ehtiyacı olsa da, təmiz və səliqəlidir.

Açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsində tərbiyə olunan şəxslərə tibbi xidmətin göstərilməsi məqsədi ilə tibbi qovşaq nəzərdə tutulub. Müdiriyyətin verdiyi məlumata görə, burada tam ştatda 1 nəfər həkim və 2 nəfər tibb bacısı çalışır. Lakin qeyd etmək lazımdır ki, müəssisədə stomatoloji kabinet yoxdur. Müəssisənin tibbi hissəsindəki mövcud vəziyyəti ümumilikdə qənaətbəxş hesab etmək olar.

Qanuna uyğun olaraq, tibbi kabinetlə yanaşı, müəssisədə psixoloq kabineti də fəaliyyət göstərməlidir[42]. Müəssisə rəhbərinin sözlərinə görə, müəssisədə, ayrıca psixoloq kabineti mövcud olmasa da, psixoloq yarımştat fəaliyyət göstərir. Lakin müəssisəyə təkrarən səfərlər edilməsinə baxmayaraq monitorinq qrupunun üzvləri psixoloqla görüşə bilməyib.

## 2.3. 3 saylı İstintaq Təcridxanası

*Təcridxanada saxlanılan yetkinlik yaşına çatmayanların kateqoriyası və sayı*

Bakı şəhəri Əzizbəyov rayonunun Şüvəlan qəsəbəsində yrləşən 3 saylı İstintaq Təcridxanasında barələrində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxslər saxlanılır[43].

Monitorinq aparılan zaman müəyyən olunub ki, təcridxanada 15-18 yaş arasında 31 oğlan uşağı saxlanılır. Burada saxlanılan uşaqlar əsasən ağır və xüsusilə ağır[44], o cümlədən az ağır[45], hətta böyük ictimai təhlükə törətməyən cinayətlər törətməkdə təqsirləndirilirlər.

*Yetkinlik yaşına çatmayanların saxlanılma şəraiti*

Təcridxanadakı dərs otağında 1 kompüter, televizor, kitab şkafı və bir neçə parta var. Kitabxananın kitab bazası çox zəifdir. Müdiriyyətin bildirdiyinə görə, müəllimlər təhsil almaq istəyən uşaqlara burada dərs keçirlər. Lakin sorğu aparılmış yetkinlik yaşına çatmayanların əksəriyyətinin bildirdiyinə görə, buradakı dərslər formal xarakter daşıyır və yox səviyyəsindədir.

---

nəzərə alınmaqla müəyyən edilir. Bu zaman fərdi sosial-psixoloji diaqnostika əsasında psixokorreksiya işi üçün şəraitin yaradılması, sağlamlaşdırıcı tərbiyə tədbirləri sisteminin, ictimai faydalı işlə məşğulluğun, şagirdlərin asudə vaxtı da daxil olmaqla, günün səmərəli bölgüsünün təşkili, şagirdlərin neqativ hallardan maksimum müdafiəsi təmin edilməlidir."

[42] "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə"

[43] AR CPM, Mad. 434.1: "Yetkinlik yaşına çatmayan şübhəli və təqsirləndirilən şəxs barəsində həbsə alma qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona az ağır zorakı cinayətin, habelə ağır və ya xüsusilə ağır cinayətin törədilməsi istinad edildikdə yol verilir."

[44] Bunların arasında həyat və sağlamlıq və mülkiyyət əleyhinə olan cinayətlər çoxluq təşkil edir.

[45] Bura, məsələn, CM-nin aşağıdakı maddələrinə əsasən zorakılıqla müşayət edilməyən cinayətlər aid edilir:
Maddə 185. Talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə.
Maddə 177. Oğurluq
Maddə 177.2.2. təkrar törədildikdə;
Maddə 177.2.3. yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla törədildikdə;
Maddə 177.2.4. xeyli miqdarda ziyan vurmaqla törədildikdə.

Təcridxananın kitabxanası təmirə ehtiyacı olan və köhnə kitablarla təchiz edilmiş otaqdan ibarətdir. Müəssisəyə yeni kitablar da gətirilsə də, onlar təsərrüfat işləri üzrə briqadirin otağındakı şkafda saxlanılır (bu kitablar latın əlifbası ilə çap edilmiş milli və dünya ədəbiyyatı nümunələridir).

Gəzinti meydançasının vəziyyətini qənaətbəxş hesab etmək olar. Təcridxanada saxlanılan yetkinlik yaşına çatmayanların gün ərzində iki saatlıq gəzinti hüququ var[46]. Müdiriyyətin sözlərinə görə, uşaqlara gündə 1-2 saatlıq gəzinti hüququ verilir. Bu məlumat uşaqlar tərəfindən də təsdiqlənib.

Qanunvericiliyə əsasən, yetkinlik yaşına çatmayanlar yetkinlik yaşına çatmışlardan ayrı saxlanılmalıdırlar[47]. 3 saylı İstintaq Təcridxanasında yetkinlik yaşına çatmayanlar 4-5 nəfər olmaqla ayrı-ayrı kameralarda saxlanılırlar. Kamera otaqlarında 4-5 çarpayı və kiçik masa var, həmçinin kameraların küncündə ayaqyolu üçün nəzərdə tutulmuş hissə mövcuddur. Qeyd etmək lazımdır ki, burada hər kamerada yetkinlik yaşına çatmayanlarla birgə yetkinlik yaşına çatmış şəxs saxlanılır[48]. Bu fakta dair müdiriyyət burada yetkinlik yaşına çatmayanlarla yetkinlik yaşına çatmış şəxslərin saxlanılmasının zəruri olduğunu və bunun uşaqlar tərəfindən bir-birinə göstərilə bilən fiziki və psixi təcavüzün, hər hansı bir mənfi təsirin qarşısını almaq məqsədi daşıdığını bildirib. Təcridxananın rəisi onu da bildirib ki, sözügedən yetkinlik yaşına çatmış şəxslər ağır, xüsusilə ağır və umumiyyətlə zorakı cinayətlər törətməkdə ittiham olunmayan və uşaqlara pozitiv təsir göstərə bilən şəxslər arasından seçilir. Təcridxanadakı uşaqların söylədiklərinə görə, onlarla birgə saxlanılan böyüklərin adətən 21, 38, 34, 42, 45, 47 və 52 yaşlarında olublar. Uşaqlardan 4 nəfəri əvvəllər məhkum edilmiş şəxslərlə birgə saxlanıldığını söyləyib[49].

Böyüklərlə birgə saxlanılmalarına dair uşaqlara sual verdikdə, əksəriyyəti bunun pis olmadığını bildirib və qeyd edib ki, "ağsaqqal"lar kamerada nizam-intizamın təmin olunmasında böyük rol oynayır. "Təkadamlıq kamerada qalmaq istərdinizmi?" sualına isə, bir nəfər istisna olmaqla, uşaqlar neqativ cavab verib.

Uşaqlardan yalnız 6 nəfəri valideynlərinin onlara baş çəkdiyni, digər 6 nəfər isə çox nadir hallarda qohumları tərəfindən ziyarət edildiklərini söyləyib. Onlar həmçinin qeyd ediblər ki, görüşə heç bir məhdudiyyət qoyulmayıb. Lakin uşaqların digər qismi isə bildirib ki, valideynləri ilə görüşə icazə verilmir. Uşaqlardan üçü isə, təcridxanaya gətirildikdən indiyədək ümumiyyətlə valideynlərini görmədiyini söyləyib. Onlar bunun səbəbini "istintaq altında" olmaqları ilə izah ediblər. Bu məsələ barəsində təcridxana rəhbərliyinə sual verildikdə, o, "uşaqlarla görüşmək üçün valideynlər ilk öncə istintaq aparan şəxs tərəfindən təcridxanada saxlanılan şəxsin qanuni nümayəndəsi kimi tanınmalıdır"[50] cavabını verib.

Təcridxanadakı sanitar-gigiyenik vəziyyəti ümumilikdə qənaətbəxş hesab etmək olar. Burada saxlanılanların yuyunması üçün hamam var. Müdiriyyətin və yetkinlik yaşına çatmayanların əksəriyyətinin bildirdiyinə görə, burada saxlanılanlara on gündə bir dəfə çimmək imkanı yaradılır. Kameranın ayaqyolu hissəsində təmizləyici vasitələr və sudan istifadə etmək üçün

[46] Həbsdə saxlanılma yerlərində şəxslərin saxlanılmasına dair Müvəqqəti Əsasnamənin 3.1-ci maddəsinə əsasən

[47] AR-nın CPM-in 434.3-cü maddəsi və "Həbsdə saxlanılma yerlərində şəxslərin saxlanılmasına dair Müvəqqəti Əsasnaməsinin 2.10 maddəsinə əsasən yetkinlik yaşına çatmayanlar böyüklərdən ayrı saxlanmalıdır.

[48] Müəssisənin rəisi onu da bildirdi ki, sözügedən yetkinlik yaşına çatmış şəxslər xüsusi olaraq seçilmiş (onlar ağır, xüsusilə ağır və umumiyyətlə zorakı cinayətlər törətməkdə ittiham olunmayan şəxslər arasından seçilir) və yetkinlik yaşına çatmayan şəxslərə müsbət təsir göstərə biləcək şəxslərdir. Həmçinin qeyd etmək lazımdır ki, Uşaq Hüquqları Konvensiyasının 37-ci maddəsinin "V" bəndinə əsasən, uşağın mənafelərinin daha yaxşı təmin olunması naminə məhbəslərdə yetkinlik yaşna çatmayanlarla yetkinlik yaşına çatmış şəxslərin saxlanılmasına icazə verilə bilər.

[49] AR CPM Maddə 434.3: "Həbsdə saxlanılan yetkinlik yaşına çatmayan şəxslər digər şəxslərdən ayrı saxlanılmalıdırlar. Onlar yaşının, cinsinin və şəxsiyyətinin xüsusiyyətlərinə görə tələb olunan qulluq, müdafiə və digər fərdi yardımla təmin edilməlidirlər".

[50] Belə qənaətə gəlmək olar ki, işi aparan müstəntiq və ya istintaqı aparan şəxs uşağa və onun valideynlərinə onların hüquq və vəzifələrini izah etməmişdir.

müvafiq qablar mövcüddur, pis qoxu gəlmir. Monitorinq aparılmış kamera otaqlarının pəncərəsi var. Kameralardakı şəraiti, o cümlədən, sanitar-gigiyenik vəziyyəti qənaətbəxş hesab etmək olar. Onların döşəməsi taxtadan, ayaqyolu hissəsi isə metlax örtükdən ibarətdir. Kamera otaqlarında istilik sistemi bir o qədər də yaxşı təşkil olunmayıb. Yataq dəstlərinin vəziyyətini qənaətbəxş hesab etmək olmaz. Belə ki, yataq dəsti nazik, çirkli döşək və örtükdən ibarətdir. Bu dəstlər qış ayları və soyuq hava şəraiti zamanı istifadə üçün yararsızdır.

Uşaqların bildirdiyinə görə, burada onlar vaxtlarını masaüstü oyunlar oynamaq, kitab oxumaqla keçirirlər.

Müdiriyyətin sözlərinə görə, kameralarda uşaqların dini ayinləri icra etmələrinə maneəçilik törədilmir.

İbtidai araşdırma və məhkəmə istintaqı altında olan və təcridxanada saxlanılan şəxslərə münasibətdə tənbeh tədbirlərinin tətbiq edilməsi məqsədilə intizam mövcuddur. Monitorinq qrupunu müşaiyət edən əməkdaşın verdiyi məlumata görə, intizam təcridxanasında barəsində tənbeh tədbiri tətbiq edilmiş yetkinlik yaşına çatmayanlar bir neçə gün müddətində saxlanılır[51]. İntizam təcridxanasının vəziyyətini qənaətbəxş hesab etmək olmaz. Belə ki, monitorinq zamanı müəyyən edilib ki, döşəmə metlaxdandır, istilik sistemi yaxşı işləmir və ayaqyolu qovşağından pis qoxu gəlir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın tərəfdar çıxdığı "Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair" BMT Təlimatları uşaqların tənbeh tədbiri kimi cərimə təcridxanasına və ya cərimə kamerasına salınmasını qəti şəkildə qadağan edir[52].

***Uşaqların qidalanması və tibbi xidmətin vəziyyəti***

Uşaqlar milli qanunvericiliyə uyğun olaraq, gündə üç dəfə saxlanıldıqları kameralarda qidalanırlar. Xörəklərin hazırlandığı hissəsinin köhnə və təmirə ehtiyacı olmasına baxmayaraq, gigiyenik vəziyyəti normaldır. Qidanın rasionunu qənaətbəxş hesab etmək olar. Təcridxana rəhbərinin sözlərinə görə, hər uşağın qidalanması üçün ayda təxminən 100 ABŞ dolları məbləğində vəsait xərclənir. Müəssisənin ərzaq və məişət məmulatlarının saxlanması üçün nəzərdə tutulmuş yardımçı təsərrüfat yerləri də var ki, burada ən zəruri ərzaq və məişət məhsulları saxlanılır.

Təcridxanada saxlanılanlara tibbi xidmət göstərilməsi məqsədi ilə tibbi qovşaq nəzərdə tutulub. Tibb şöbəsinin rəisi bildirib ki, müəssisədə 1 terapevt, 1 dermatoloq-veneroloq, 1 psixiatr (məzuniyyətdə olub), 1 ftiziatr, 1 stomatoloq, 1 rentgenoloq (yarımştat), 1 feldşer (monitorinq zamanı ştat boş idi) və 1 qeydiyyatçı çalışır. Monitorinq zamanı 3 həkim yerində idi.

Tibbi qovşaq qeydiyyat otağından, tibb otağı, rentgen otağı, laboratoriya və stomatoloji kabinetdən ibarətdir. Laboratoriya, tibb otağı və stomatoloji kabinet (burada yalnız bir yararsız kreslo var idi) yararsız halda idi, lakin müdiriyyətin sözlərinə görə, burada təmir işləri aparılır. Rentgen otağı isə, təzə təmir olunub və yeni avadanlıqlarla təchiz edilib.

---

[51]Həbsdə saxlanılma yerlərində şəxslərin saxlanılmasına dair Müvəqqəti Əsasnamənin 5.3-cü maddəsinə əsasən, tənbeh tədbiri qismində yetkinlik yaşına çatmayan şəxslərin intizam təcridxanasında saxlanılma müddəti 5 sutkadan çox ola bilməz.

[52] Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair BMT-nin Təlimatları, Mad.67: "Qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar təşkil edən bütün intizam tədbirləri, o cümlədən bədən cəzaları, karserə salma, ciddi rejimdə və ya biradamlıq kamerada saxlama, yaxud yetkinlik yaşına çatmayan şəxsin fiziki və ya psixi sağlamlığına ziyan yetirə bilən istənilən cəza qadağan olunmalıdır. Hər hansı məqsədlə qidanın azaldılması, ailə ilə əlaqələrin məhdudlaşdırılması qadağan olunmalıdır. Əməyə həmişə tərbiyə üsulu kimi və yetkinlik yaşına çatmayan şəxs cəmiyyətə qayıdışa hazırlaşarkən ona özünə hörmət hissinin aşılanması vasitəsi kimi baxılmalı və o, intizam tədbiri kimi tətbiq edilməməlidir. Heç bir yetkinlik yaşına çatmayan şəxs eyni intizam pozuntusuna görə bir dəfədən artıq cəzalandırılmamalıdır. Kollektiv cəzalar qadağan olunmalıdır."

## 2.4. Tərbiyə Müəssisəsi

### Müəssisədə saxlanılan yetkinlik yaşına çatmayanların sayı və dairəsi

Tərbiyə Müəssisəsi ümumi rejimlidir və burada ilk dəfə müəyyən müddətə azadlıqdan məhrumetmə növündə cəzaya məhkum olunmuş yetkinlik yaşına çatmayan (14-18 yaş) oğlanlar cəza çəkirlər[53]. Qanunvericiliyə görə, məhkəmənin qərarına əsasən məhkumlar burada iyirmi yaşınadək saxlanıla bilərlər[54]. Təcrübə göstərir ki, bu müddəa yalnız cəza çəkən yetkinlik yaşına çatmayan şəxsin cəza çəkmə müddəti onun 20 yaşı tamam olanadək bitməsi gözlənildiyi hallarda tətbiq edilir. Onu da qeyd etmək lazımdır ki, qanunvericiliyə əsasən, möhkəm rejimli tərbiyə müəssisəsinə göndərilməli olan (əvvəllər azadlıqdan məhrumetmə növündə cəza çəkmiş) yetkinlik yaşına çatmayan oğlan məhkumlar da, elə bir müəssisə olmadığından, burada saxlanılırlar.

Müəssisə 100 nəfərə qədər məhkumun saxlanılması üçün nəzərdə tutulub. Monitorinq zamanı müəyyən olunub ki, müəssisədə 16-18 yaşlarında 61 oğlan saxlanılır. Onlardan 2-si 16 yaşında, 14-ü 17 yaşında, 32-si 18 yaşında, 13-ü 19 yaşındadır.

Monitorinq zamanı müəssisədə cəza çəkən yetkinlik yaşına çatmayan şəxslərdən:
- 12-si xüsusilə ağır,
- 31-i ağır,
- 15-i az ağır,
- 3-ü isə böyük ictimai təhlükə törətməyən cinayətlər törətməkdə təqsirli bilinib.

***Yetkinlik yaşına çatmayanların saxlanılma şəraiti***

Müəssisə işıq, gigiyena, temperatur, qoxu, səs-küy, habelə verilən qidanın keyfiyyəti baxımından normal vəziyyətdədir. Müəssisədə adambaşına düşən yer norması milli standartlara əsasən təmin edilib. Lakin bu standartlar beynəlxalq standartlara uyğun deyil. Müəssisədə, həmçinin, fərdi otaqlar və ya guşələrin olmaması uşaqların özəl həyata olan hüquqlarını pozur.

Tərbiyə Müəssisəsində hər birində 6-dan 15-dək çarpayı olmaqla 9 yataq otağı, 8 kabinədən ibarət 4 tualet otağı və 3 kabinədən ibarət 1 hamam var. Çarpayıların və yataqların vəziyyəti qənaətbəxşdir. Müdiriyyətin və yetkinlik yaşına çatmayanların əksəriyyətinin bildirdiyinə görə, onlara həftədə bir dəfə çimmək imkanı yaradılır.

Müəssisədə yetkinlik yaşına çatmayanların istirahət və asudə vaxtının səmərəli təşkili üçün kitabxana, futbol oynamaq üçün meydança, masaüstü oyunlar (nərd, şahmat), o cümlədən, masaüstü tenis var. Onlar həmçinin, ümumi radio və televizor, videofilmlər və qəzetlərlə təmin edilirlər.

Uşaqların ibadətlə məşğul olmaları üçün yaradılmış dini güşənin vəziyyətini qənaətbəxş hesab etmək olar. Lakin, müşahidə onu deməyə əsas verir ki, bu otaq nadir hallarda təmizlənir.

---

[53] AR CM, Mad.85.5: "Yetkinlik yaşına çatmayan məhkumlar cəzalarını aşağıdakı tərbiyə müəssisələrində çəkirlər:
AR CM, Mad. 85.5.1 yetkinlik yaşına çatmayan qızlar, habelə ilk dəfə azadlıqdan məhrum etməyə məhkum olunmuş yetkinlik yaşına çatmayan oğlanlar — ümumi rejimli tərbiyə müəssisələrində;
AR CM, Mad. 85.5.2: əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş yetkinlik yaşına çatmayan oğlanlar — möhkəm rejimli tərbiyə müəssisələrində".
[54] AR CİM, Mad.128.1: "On səkkiz yaşına çatmış məhkumlar bir qayda olaraq tərbiyə müəssisələrindən cəzaçəkmə müəssisələrinə keçirilirlər. Tərbiyə müəssisələrində məhkəmənin qərarına əsasən məhkumlar iyirmi yaşınadək saxlanıla bilərlər".

Müəssisə rəhbərliyinin bildirdiyinə görə, məhkumlara öz paltarlarını geyinməyə icazə verilir. Lakin monitorinq qrupunun üzvlərinin müşahidəsi onu göstərib ki, müəssisədə saxlanılan bütün yetkinlik yaşına çatmayanlar "uniforma"ya bənzər paltar geyinir.

Müəssisədə məhkumların valideynləri ilə görüşməsinə həftədə bir dəfə icazə verilir. Qısa müddətli görüş otağının vəziyyəti qənaətbəxşdir[55]. Lakin xüsusi olaraq qeyd etmək lazımdır ki, müəssisədə uzun müddətli görüş otağı yoxdur [56].

Müəssisədə 37 nəfər işçi çalışır. O cümlədən 1 həkim (tam iş günü), 1 psixoloq (tam iş günü), 10 müəllim (tam iş günü) və 2 peşə təlimi üzrə müəllim (tam iş günü) fəaliyyət göstərir. İşçi heyət silah gəzdirmir.

Müəssisədə axşam məktəbi fəaliyyət göstərir. Burada uşaqlara kompüter dərsləri də keçilir və onlar kompüterlə bağlı zəruri biliklərə yiyələnirlər. Yetkinlik yaşına çatmayan məhkumlar, həmçinin texniki-peşə təlimi də alır. Bununla yanaşı, müəssisədə ali məktəblərə qəbul üçün keçiriləcək imtahanlara hazırlıq kursları təşkil olunub. Lakin, ümumilikdə, müəssisə uşaqları azadlığa çıxdıqdan sonra düşəcəkləri həyata hazırlamır. Onu da xüsusilə qeyd etmək lazımdır ki, yaxın zamanlarda cəzaçəkmə müəssisəsini tərk edəcək yetkinlik yaşına çatmayan şəxslərə psixoloji yardımım göstərilməsi üçün müəssisədə hər hansı bir xüsusi proqram və ya bölmə fəaliyyət göstərmir.

Tərbiyə müəssisəsində qanunvericilikdə nəzərdə tutlmuş intizam təcridxanasına keçirmək (7 günədək) növündə tənbeh tədbirinin tətbiq edilməsi üçün intizam təcridxanası mövcuddur [57]. Lakin qeyd etmək lazımdır ki, göstərilən intizam tədbirinin tətbiqi Azərbaycanın tərəfdar çıxdığı "Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair" BMT Təlimatlarını kobud şəkildə pozur[58]. Təcridxananın vəziyyətini qənaətbəxş hesab etmək olar. Müdiriyyətin bildirdiyinə görə, 2005-ci il ərzində daxili rejim qaydalarını pozmağa görə cəmi 38 intizam tədbiri təbiq edilib ki, bunlardan 22-si intizam təcridxanasına keçirmə, 16-sı isə töhmət və xəbərdarlıq olub.

***Uşaqların qidalanması və tibbi xidmətin vəziyyəti***

Uşaqlar gündə üç dəfə qidalanırlar. Xörəklər yaxınlıqda olan qadınlar üçün nəzərdə tutulmuş 4 saylı cəzaçəkmə müəssisəsində hazırlanır. Qidanın rasionunu qənaətbəxş hesab etmək olar.

Müəssisədə yetkinlik yaşına çatmayan məhkumlara tibbi xidmət göstərilməsi üçün tibbi qovşaq mövcuddur. Qovşağın vəziyyətini qənaətbəxş hesab etmək olar.

---

[55] AR CİM, Mad.124.2.3: "məhkumlar… il ərzində qısa müddətli qırx səkkiz və uzun müddətli səkkiz görüş almaq hüququna malikdirlər";
AR CİM, Mad.124.4.3: "məhkumlar….il ərzində qısa müddətli iyirmi dörd görüş və uzun müddətli üç görüş almaq hüququna malikdirlər".

[56] AR CİM, Mad. 81.3.: "Məhkumlara uzunmüddətli görüşlər birlikdə yaşamaq hüququ ilə yaxın qohumlarla (arvadı, əri, valideynləri, babası, nənəsi, övladları, övladlığa götürənləri və götürdükləri, nəvələri, qardaşları və bacıları) verilir. Məhkumların xahişi ilə uzun müddətli görüşlər qısa müddətli görüşlərlə əvəz edilə bilər."

[57] AR CİM, Mad. 125: "Tərbiyə müəssisələrində məhkumlara tətbiq edilən tənbeh tədbirləri: Cəzanın icrası qaydalarını pozan yetkinlik yaşına çatmayan məhkumlara bu Məcəllənin 107.1.1 və 107.1.2-ci maddələrində nəzərdə tutulmuş tənbeh tədbirlərindən əlavə təhsili davam etdirmək şərtilə yeddi günədək müddətə intizam təcridxanasına keçirmək növündə tənbeh tədbiri də tətbiq edilə bilər".

[58] "Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair BMT-nin Təlimatları", Mad.67: "Qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar təşkil edən bütün intizam tədbirləri, o cümlədən bədən cəzaları, karserə salma, ciddi rejimdə və ya biradamlıq kamerada saxlama, yaxud yetkinlik yaşına çatmayan şəxsin fiziki və ya psixi sağlamlığına ziyan yetirə bilən istənilən cəza qadağan olunmalıdır. Hər hansı məqsədlə qidanın azaldılması, ailə ilə əlaqələrin məhdudlaşdırılması qadağan olunmalıdır. Əməyə həmişə tərbiyə üsulu kimi və yetkinlik yaşına çatmayan şəxs cəmiyyətə qayıdışa hazırlaşarkən ona özünə hörmət hissinin aşılanması vasitəsi kimi baxılmalı və o, intizam tədbiri kimi tətbiq edilməməlidir. Heç bir yetkinlik yaşına çatmayan şəxs eyni intizam pozuntusuna görə bir dəfədən artıq cəzalandırılmamalıdır. Kollektiv cəzalar qadağan olunmalıdır."

## 2.5. 4 saylı cəzaçəkmə müəssisəsi (qadınlar üçün)

*Müəssisədə saxlanılan yetkinlik yaşına çatmayanların dairəsi və sayı*

4 saylı cəzaçəkmə müəssisəsində barələrində məhkəmə tərəfindən müəyyən müddətə azadlıqdan məhrumetmə növündə cəza təyin edilmiş qadın məhkumlar saxlanılır. Yetkinlik yaşına çatmayan qızlar üçün tərbiyə müəssisəsi olmadığı üçün, onlar da cəzalarını qadınlar üçün nəzərdə tutulmuş cəzaçəkmə müəssisəsində çəkirlər.

Qız uşaqları üçün ayrıca cəzaçəkmə müəssisəsinin olmaması və onların qadınlar üçün nəzərdə tutulmuş cəzaçəkmə müəssisəsində saxlanılması, həmçinin monitorinq zamanı burada azadlıqdan məhrum edilərkən yetkinlik yaşına çatmayan olan 3 nəfər şəxsin saxlanılmasını (bu hal milli və beynəlxalq qanunvericiliyə ziddir)[59] nəzərə alaraq, sözü gedən müəssisənin monitorinqinin həyata keçirilməsi zəruri hesab olunub.

Monitorinq zamanı müəssisədə 248 qadın çəza çəkirdi. Monitorinq qrupunun üzvlərinin müsahibə götürdükləri qadınlardan biri cəzaçəkmə müəssisəsinə düşdüyü zaman 17 yaşında (8 il müddətinə azadlıqdan məhrum edilib), ikincisi – 16 yaşında (5 il müddətinə azadlıqdan məhrum edilib), üçüncüsü – 16 yaşında (10 il müddətinə azadlıqdan məhrum edilib) və nəhayət, sonuncusu – 19 yaşında (10 il müddətinə azadlıqdan məhrum edilib) olub. Monitorinq aparılan zaman müəssisədə 19 (üç nəfər) və 20 (1 nəfər) yaşında qadın vardır. Bunlar da digər qadınlarla birlikdə 23-30 nəfərlik otaqlarda saxlanılır. Təkadamlıq otaqda qalmaq istədikləri barədə soruşduqda, müsahibə verən qadınlardan ikisi müsbət, biri isə mənfi cavab verərək, tək olduqda darıxacağını bildirib.

Burada saxlanılan gənc qızlar ağır və xüsusilə ağır cinayət törətməkdə təqsirli bilinmiş şəxslərdir. Bu müəssisədə şübhəli bilinən və ya təqsirləndirilən şəxslər saxlanılmır. Bunun üçün Gəncə şəhəri və Bakı şəhərinin Şüvəlan qəsəbəsində yerləşən istintaq təcridxanaları vardır ki, burada qadınların saxlanması üçün ayrıca bölmələr mövcuddur. Lakin lazım gəldikdə, şübhəli bilinən və ya təqsirləndirilən şəxslər məhkəminin qərarı ilə məhkumlardan ayrı saxlanılmaq şərti ilə 4 saylı cəzaçəkmə müəssisəsinə yerləşdirilə bilərlər[60]. Qeyd etmək lazımdır ki, buradakı yetkinlik yaşına çatmayan məhkumlar yetkinlik yaşına çatmış şəxslərlə birgə saxlanılır və müəssisədə eyni rejim növü tətbiq edilir ki, bu da cinayətlərin ağırlığına görə məhkumları bir-birindən ayırmır.

Yetkinlk yaşına çatmayan qız məhkumlar üçün ayrıca tərbiyə müəssisəsinin yaradılması haqda müvafiq dövlət qurumlarının münasibətini öyrəndikdə, qızların sayının çox az olduğundan (ildə ən çox 2-4 nəfər) ayrıca tərbiyə məssisəsinin yaradılmasının məqsədəuyğun hesab edilmədiyi səsləndirilib. 4 saylı cəzaçəkmə müəssisəsinin tərkibində qız uşaqlarının saxlanması üçün ayrıca bölmənin yaradılması ilə bağlı verilən suala isə cavab alınmayıb.

*Cəzaçəkmə müəssisəsində saxlanılma şəraiti*

Müəssisənin köhnə binadan ibarət olmasına baxmayaraq, buradakı səliqə-sahman göz oxşayır. Pis qoxunun olmaması, təmizlik və həyətdə çoxsaylı su kranlarının olması müşahidə edilib. Müəssisənin vəziyyətini ümumilikdə qənaətbəxş hesab etmək olar. Burada mütamadi isti suyu olan hamam və gigiyena otaqları, səliqəli və təmiz yataq dəstləri ilə təchiz olunmuş yataqxanalar,

---

[59] AR-nın CPM-nin 434.3 maddəsi və "Həbsdə saxlanılma yerlərində şəxslərin saxlanılmasına dair Müvəqqəti Əsasnaməsinin 2.10 maddəsinə əsasən yetkinlik yaşına çatmayanlar böyüklərdən ayrı saxlanmalıdır. Bu həmçinin "Azadlıqdan məhrumedilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair BMT-nin qaydalarında da təsbit edilib.

[60] Mad.2.2, "Həbsdə saxlanılma yerlərində şəxslərin saxlanılmasına dair Müvəqqəti Əsasnamə".

kitabxana, ibadət otağı, müalicə mərkəzi, gözəllik salonu, ana-uşaq otaqları, televizorla təchiz olunmuş istirahət otağı təşkil olunub.

İstirahət və əyləncə imkanları masaüstü oyunlar oynamaq, kitab oxumaq və gün ərzində təyin olunmuş müvafiq saatlarda ümumi otaqlarda televizora baxmaqdan ibarətdir. Məhkumlar 25-30 çarpayı və tumbalar ilə təchiz olunmuş yataqxanalarda yaşayırlar. Müəssisənin geniş həyətyanı sahəsində məhkumlar məhdudiyyətsiz gəzmək hüququna malikdir.

Təcridxanadakı sanitar-gigiyenik vəziyyəti ümumilikdə qənaətbəxş hesab etmək olar. Burada saxlanılanların gündəlik yuyunması üçün gigiyena otağı və qışda həftədə 1 dəfə, yayda isə həftədə 2 dəfə çimmək üçün hamam vardır. Onların təmirə ehtiyacı olsa da, su kranlarından isti və soyuq su gəlirdi. Buradakı gözəllik otağında qadınlar ən zəruri qulluq prosedurlarını həyata keçirirlər. Müvafiq ləvazimatları qadınlara yaxınları gətirir.

Müəssisənin ərzaq və məişət məmulatlarının saxlanılması üçün nəzərdə tutulmuş yardımçı təsərrüfat yerləri vardır ki, burada ən zəruri ərzaq və məişət məhsulları saxlanılır.

Müəssisədə monitorinq aparılan zaman anaları ilə 6 nəfər 3 yaşına qədər uşaq yaşayırdı. Uşaqların saxlanılması üçün nəzərdə tutulmuş otağın genişləndirilməsinə ehtiyac var.

Müəssisədə yetkinlik yaşına çatmayanlar və ümumilikdə məhkumlar üçün təhsil almaq (peşə təlimi istisna olmaqla) imkanları nəzərdə tutulmayıb. Yetkinlik yaşına çatmayan qız uşağının cəzaçəkmə müəssisəsinə göndərildiyi halda onun təhsil alması ilə bağlı suala cavab alınmayıb.

Məhkumların reabilitasiyası yalnız peşə təlimindən ibarətdir. Xüsusi fərdi reabilitasiya proqramları hazırlanmır və həyata keçirilmir. Onu da qeyd etmək lazımdır ki, yaxın zamanlarda cəzaçəkmə müəssisəsini tərk edəcək qadınlara psixoloji yardımım göstərilməsi üçün müəssisədə hər hansı bir xüsusi proqram və ya bölmə fəaliyyət göstərmir.

Cəzaçakmə müəssisəsində 17 dəzgahdan ibarət olan xalçaçılıq sexi fəaliyyət göstərir. Müdiriyyətin bildirdiyinə görə, burada peşə təlimi üzrə 20 nəfər müəllim çalışır və onlar məhkumlara toxuculuq və xalçaçılıq sənətlərini öyrədirlər.

Müəssisədə saxlanılan şəxslərə münasibətdə tənbeh tədbirlərinin tətbiq edilməsi məqsədilə cərimə təcridxanaları mövcuddur. Buradakı cərimə təcridxanaları yeni təmir olunub və müdiriyyətin bildirdiyinə görə, bu kameralardan nadir hallarda istifadə edilir.

Yuxarıda qeyd edildiyi kimi, cinayət əməlinin ağırlığına görə müəssisədə saxlanılan qadınlar biri-birindən ayrılmırlar. Bu müəssisədə həm az ağır, ağır və xüsusilə ağır cinayətlər törətmiş qadınların saxlanıldığını nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, bu cür qarışıq rejimli müəssisədə hamı vahid, möhkəm rejimə əsasən cəza çəkir.

***Məhkumların qidalanması və tibbi xidmətin vəziyyəti***

Məhkumlar daxili intizam qaydalarına uyğun olaraq gündə üç dəfə ümumi yeməkxanada qidalanırlar. Xörəklərin hazırlandığı hissəsinin köhnə və təmirə ehtiyacı olmasına baxmayaraq, gigiyenik vəziyyəti normaldır. Qidanın rasionunu qənaətbəxş hesab etmək olar. Yeməkləri müəssisədə cəza çəkən qadınlar özləri hazırladıqları üçün (bu halda ərzaqları onlara yaxınları gətirirlər) onlar digər azadlıqdan məhrumetmə yerlərində verilən yeməklərdən öz rasionu və keyfiyyəti ilə seçilir.

Müəssisədə saxlanılanlara tibbi xidmətin göstərilməsi məqsədi ilə tibbi qovşaq nəzərdə tutulub. Qovşaq yeni təmir olunub, xəstələrin müalicə alması üçün nəzərdə tutulmuş geniş otaqdan,

həkimlər üçün nəzərdə tutulmuş otaqdan və ginekoloji kabinetdən ibarətdir. Qeyd etmək lazımdır ki, monitorinq aparılmış digər müəssisələrdən fərqli olaraq, buradakı tibbi qovşağın vəziyyətini səhiyyə standartlarına uyğun hesab etmək olar. Tibbi qovşağın vəziyyəti Bakı şəhərində fəaliyyət göstərən adi xəstəxanaların müvafiq şöbələrində müşahidə edilən vəziyyətə oxşardır. Qovşaqda ginekoloq, diş həkimi və terapevt fəaliyyət göstərir. Müdiriyyətin sözlərinə görə, müəssisədə 1 nəfər zabit – psixoloq çalışır.

## 2.6. Məhkəmə prosesləri: hakimlər, dövlət ittihamçıları və vəkillərin yetkinlik yaşına çatmayanlara dair cinayət işlərinin aparılmasında rolu və iştirakı

Monitorinq qrupunun üzvləri monitorinq dövrü ərzində bir neçə məhkəmə prosesini izləyiblər. Bu barədə daha ətraflı məlumat hesabatın sonunda təsviri əlavə kimi verilib. Məhkəmə işlərinin moitorinqi nəticəsində məhkəmələrin fəaliyyətinin öyrənilməsi və əsasən də, yetkinlik yaşına çatmayanların işlərinə baxılması təcrübəsinə dair faydalı və vacib nəticələrin çıxarılması mümkün olub. Monitorinq həmçinin hakimlər, dövlət ittihamçıları və vəkillərin bilik və bacarıqlarını, onların proseslərdə iştirak səviyyəsini də öyrənməyə imkan verib.

➢ ***Uşaq hüquqlarının müdafiəsinə dair hər hansı bir qanuna istinad edilməməsi***

Monitorinq zamanı diqqəti cəlb edən əsasən o olub ki, Bakı şəhəri və rayonlarda izlənilən məhkəmə prosesləri zamanı bir dəfə də olsun milli və beynəlxalq uşaq hüquqları sənədləri, konvensiyalar və ya qaydalara, yaxud standartlara istinad edilməsinə rast gəlinməyib. Məhkəmədə tərəflərdən heç biri çıxışları zamanı beynəlxalq insan hüquqları hüququ və ya beynəlxalq sənədlərə (BMT-nin UHK da daxil olmaqla) istinad etməyiblər.

Dinləmələr zamanı monitorinq qrupunun üzvləri tərəflərin diqqətsiz olduqlarını, hakimlərin çıxış edən tərəflərə qulaq asmamasını və dövlət büdcəsi hesabına təyin edilmiş vəkillərin passiv olduğunu müşahidə ediblər. Vəkillər məhkəmədən təqsirləndirilən şəxs barəsində həbslə bağlı olmayan qətimkan tədbirinin seçilməsini, həmçinin azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəza, habelə yüngül cəza, yaxud bəraət verilməsi xahiş etdikdə, məhkəmənin diqqətini yalnız təqsirləndirilən şəxsin uşaq olmasına yönəldiblər.

Ağır cinayətlərə dair işlər üzrə Məhkəmədə aparılan monitorinqlər zamanı burada da uşaq hüquqları sahəsində beynəlxalq sənədlərə, həmçinin milli qanunvericiliyə heç bir istinad edilmədiyi və tərəflərin məhkəmənin diqqətinə bununla bağlı heç nə təqdim etmədiyi aşkar olunub.

➢ ***Yetkinlik yaşına çatmayanlara yönəlmiş alternativ tədbirlərin tətbiqində çatışmazlıqlar***

Digər diqqəti cəlb edən xüsusiyyət ondan ibarətdir ki, bir sıra məhkəmə proseslərində hakimin dövlət ittihamçısını dəstəklədiyi müşahidə olunub. Cinayət işləri ilə bağlı verilən qərarların əksəriyyəti dövlət ittihamçılarının məhkəmədən xahiş etdikləri cəzalarla üst-üstə düşür.

Müşahidəçilər həbsə və azadlıqdan məhrumetməyə alternativ olan tədbirlərin tətbiqi məsələlərini daha diqqətlə və dərindən öyrənməyə çalışıblar. Buna səbəb alternativ tədbirlərin səmərəli və beynəlxalq standartlara uyğun fəaliyyət göstərən yuvenal ədliyyə sisteminin əsas göstəricisi hesab edilməsidir. İstintaq təcridxanasında saxlanılan uşaqların ittiham edildikləri cinayətləri öyrənməklə, alternativ tədbirlərin həqiqətən də nadir hallarda tətbiq edildiyi təsdiqlənib. Monitorinq zamanı istintaq təcridxanasında saxlanılan və məhkəmə baxışını gözləyən 30 nəfər uşaq arasında oğurluq, soyğunçuluq, quldurluq, avtomaşın qaçırma üzrə ittiham edilən uşaqlar da olub.

Eyni zamanda məmnunluqla qeyd etmək lazımdır ki, oğurluğa görə cinayət məsuliyyətinə cəlb olunan uşaqlar barəsində rayon məhkəmələri tərəfindən həbs qətimkan tədbiri deyil, başqa yerə getməmək barədə iltizam və ya nəzarət altına vermə qətimkan tədbiri seçilib.

- ***Vəkillə təmin olunma***

Uşaqların vəkillə təmin olunması və ya vəkilə olan çıxışlarını öyrənmək məqsədilə iki üslubdan istifadə edilib: birincisi, məhkəmə dinləmələri zamanı; ikincisi, monitorinq zamanı istintaq təcridxanası və Tərbiyə Müəssisəsində saxlanılan və ya cəza çəkən uşaqlarla müsahibə aparmaqla.

*1. Məhkəmə dinləmələri*

Bakı şəhərində və rayonlarda fəaliyyət göstərən məhkəmələrdə, o cümlədən Ağır cinayətlərə dair işlər üzrə məhkəmədə aparılan müşahidə əksər uşaqların, öz vəkiləri olduğundan, dövlət tərəfindən vəkillə təmin edilməməsi müəyyən olundu. Lakin qeyd etmək lazımdır ki, işlərinə Ağır cinayətlərə dair işlər üzrə məhkəmədə baxılan uşaqların hamısı valideynləri tərəfindən tutulmuş vəkillə təmin ediliblər. Bununla bağlı verilən suala belə cavab alındı ki, dövlət tərəfindən təmin edilən vəkillər buna görə az pul aldıqları üçün məhkəmə proseslərində maraqlı olmur və əksər hallarda prosesdə formal şəkildə iştirak edirlər. Məhz bu baxımdan insanların əksəriyyəti onlara inanmır.

Diqqəti çəkən başqa bir xüsusiyyət monitorinq aparılan rayonların bir neçəsində məhkəmə zallarına baxış keçirərkən məlum oldu. Bu, məhkəmə zallarının uzun müddət ərzində bilavasitə təyinatı üzrə istifadə edilməməsidir. Məhkəmə zalları təmizlənməyib, masalar və oturacaqlar isə toz ilə örtülüb. Bu zallarda həmçinin məhkəmədə iştirak edənlər və dinləyicilər üçün oturacaqların da olmadığı aşkar edilib. Məhkəmə binasında bununla bağlı rəyi soruşulan vətəndaşlar qeyd etdi ki, hakimlər şikayətlərə öz şəxsi otaqlarında baxdığı üçün məhkəmə zalından istifadə edilmir.

*2. Yetkinlik yaşına çatmayanlarla aparılan söhbət*

AR CM-in 92.3.5 və 432.2 maddələrinə görə, əgər uşaq cinayətdə şübhəli bilinirsə və ya ittiham edilirsə onun vəkillə təmin edilməsi və vəkilin bütün mərhələlərdə iştirak etməsi məcburidir. Vəkilin iştirakı uşağın tutulduğu andan təmin edilməlidir. Müsahibədə iştirak etmiş bütün yetkinlik yaşına çatmayanlar qeyd edib ki, qanunda göstərilən müddət ərzində vəkillə təmin edilməyə olan huquqları pozulub.

Tərbiyə Müəssisəsində cəza çəkən uşaqların hamısı müsahibələr zamanı vəkillə dövlət tərəfindən təmin edildiklərini qeyd edib. Onlar həmçinin dövlət tərəfindən təyin edilmiş vəkillərin prosesdə iştirakı və ümumi fəaliyyətinin formal xarakter daşıdığını bildiriblər.

3 saylı İstintaq Təcridxanasında rəyi soruşulan uşaqlardan 4 nəfəri ümumiyyətlə vəkili görmədiklərini, digərləri isə vəkili yalnız tutulduqları andan bir neçə gün keçdikdən sonra gördüklərini bildirib. Müsahibənin nəticələrinə əsasən, 3 nəfər tutulduqdan 1 gün, 1 nəfər – 15 gün, 2 nəfər – 7 gün, 1 nəfər – 1 ay (təxminən 30 gün), 1 nəfər – 2 həftə (təxminən14 gün) və 2 nəfər tutulduqdan 3-4 gün keçdikdən sonra vəkillə görüşə biliblər. Digər uşaqlar vəkillə ilk dəfə nə vaxt görüşdüklərini xatırlamayıb. Lakin uşaqların hamısı qeyd edib ki, dövlət tərəfindən təyin edilmiş vəkillərin fəaliyyəti və göstərdikləri hüquqi yardım sadəcə olaraq formal xarakter daşıyıb. Uşaqlar həmçinin qeyd ediblər ki, onlar Şüvəlan qəsəbəsində yerləşən 3 saylı İstintaq Təcridxanasına köçürüldükdən xeyli sonra onların valideynləri, vəkilləri və ya qanuni

nümayəndələri ilə görüşmələrinə icazə veriblər. Uşaqlar həmçinin ilk dəfə dindirildikdə və MST-də saxlanıldıqları müddətdə vəkillə təmin olunduqlarını xatırlamırlar.

4 saylı cəzaçəkmə müəssisəsində çəza çəkən qadınlar (cinayət törədərkən uşaq olmuş) müsahibə zamanı bildiriblər ki, onlara qarşı tətbiq olunmuş təcridetmə müddəti qanunda göstərilmiş müddətlərə zidd olaraq kobud şəkildə pozulmuş və onların valideynləri, qanuni nümayəndələri və vəkilləri onların yanına yalnız xeyli müddət keçdikdən sonra buraxılıb. Aparılmış sorğuya əsasən, qadınlardan biri tutulduğu tarixdən 5-6 gün, ikincisi 3 gün, üçüncüsü isə tutulduğu tarixdən 3-4 gün keçdikdən sonra vəkillə ilk dəfə görüşüb. Digər qadın isə, tutulduğu andan sonra 8 ay ərzində ümumiyyətlə vəkillə görüşmədiyini söyləyib.

### *3. Ağır cinayətlərə dair işlər üzrə Məhkəmə*

Ağır cinayətlərə dair işlər üzrə Məhkəmədə aparılan monitorinq ağır və xüsusilə ağır cinayətlərin törədilməsində ittiham edilən yetkinlik yaşına çatmayanların işləri üzrə məhkəmə proseslərini və beynəlxalq standartların tətbiqini izləməyə imkan yaratdı. Hələ ilkin müşahidələr məhkəmə prosesi zamanı ittiham edilən uşaqlara qarşı neqativ emosional atmosferin olduğunu göstərib. Məhkəmə zalında uşaqlar qəfəsdə saxlanılıb. Monitorinq zamanı məhkəmə iclaslarının tez-tez təxirə salındığı müşahidə edilib. Bu cür hallarda isə həm uşaqlar, həm də onların vəkilləri və valideynləri əvvəlcədən xəbərdar edilməyib. Əvvəlcədən məhkəməyə gətirilən uşaqlar adətən məhkəmənin zirzəmisində ac və susuz uzun müddət saxlanılıb, həmin müddət ərzində isti yeməklə təmin edilməyib. Uşaqların əziyyət çəkdiyi emosional, fiziki və əqli stressə əlavə olaraq, zərərçəkmişlər, onların valideynləri və/və ya qohumları məhkəmə zamanı uşaqlara hücum edib. Məhkəməni iclasına sədrlik edən və hakimlər isə iclas zalında sakitlik və nizam-intizam yarada bilməyib. Hakimlər həmçinin iclasın gedişatına mane olan şəxslərə qarşı heç bir tədbir görməyib.

# III. AZƏRBAYCANDA YUVENAL ƏDLİYYƏ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ ÜZRƏ TƏKLİF VƏ TÖVSİYƏLƏR

## *3.1. Ümumi məsələlər üzrə təkliflər:*

1. 13-14 Aprel 2006-cı il tarixində hökumət qurumları, beynəlxalq və milli QHT-lərin birgə səyi nəticəsində keçirilmiş "Azərbaycanda Yuvenal Ədliyyənin İnkişafı Perspektivlərinə dair 1-ci Milli Konfrans"ın nəticəsi olaraq yuvenal ədliyyənin inkişafına dair hazırlanmış Milli İnkişaf Planının qəbul edilməsi və onun icrasına çalışmaq.

2. Azərbaycan Respublikası Prezidenti və ya Ədliyyə Naziri yanında bütün aidiyyatı dövlət qurumları, milli və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə Azərbaycanda yuvenal ədliyyə sisteminin inkişafına dair ilə xüsusi komissiyanın yaradılması.

3. Yuvenal ədliyyə sistemini təşkil edən qurumların nümayəndələri tərəfindən fiziki gücün tətbiqi hallarının aradan qaldırılması məqsədilə səmərəli monitorinq mexanizminin qurulması. Yuvenal ədliyyə sistemini təşkil edən və yetkinlik yaşına çatmayan şəxslərin azadlıqdan məhrum edildiyi və ya müvəqqəti saxlandığı müəssisələrə, əvvəlcədən xəbərdarlıq etmədən, monitorinq səfərləri etmək üçün QHT-lərə xüsusi şərait yaradılması.

4. BMT-nin Uşaq Hüquqları Konvensiyası tərəfindən təsbit edilmiş hüquqların xüsusi tədris müəssisələrində təmin edilməsinə nəzarət etmək məqsədilə hökumət qurumları və QHT-lərdən ibarət birgə monitorinq mexanizminin yaradılmasına çalışmaq.

5. Respublikada yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlıq və hüquq pozuntularına dair vəziyyətin müzakirəsi və nəticədə yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlıq və hüquq pozuntuların profilaktikası üçün tövsiyələrin və strategiyaların hazırlanması məqsədilə bütün aidiyyatı dövlət qurumlarının iştirakı ilə mütamadi ictimai müzakirələrin keçirilməsi.

6. Qanunla ziddiyyətdə olan yetkinlik yaşına çatmayanların reabilitasiyası, cəmiyyətə inteqrasiyası və həyat bacarıqlarının inkişaf etdirilməsi üçün mövcud mexanizmlərin gücləndirilməsi.

7. Yetkinlik yaşına çatmayanlara barəsində həbs və azadlıqdan məhrubetməyə alternativ tədbirlərin geniş tətbiq edilməsi və icma əsaslı alternativlərin təşkilində ictimaiyyətin iştirakına dair geniş ictimai debatların keçirilməsi.

8. Hər bir rayonda uşaqların vəziyyətinə dair mütamadi olaraq məlumatların toplanması və saxlanması. Xüsusi tədris və ya tərbiyə müəssisələrinə yerləşdirilmiş uşaqlar da daxil olmaqla, uşaqların vəziyyətinə dair məlumata ictimai çıxışın təmin edilməsi. Bu məlumat bazası bütün aidiyyatı dövlət qurumları tərəfindən toplanmış məlumatlardan ibarət olmalıdır. Məlumat bazası uşaqlara dair işlərin sayı, müxtəlif müəssisələrdə və polis orqanlarının qeydiyyatında olan uşaqların sayı, törədilmiş cinayətlər və hüquqpozmaların növü və xarakteri, uşaqlara aid işlərə dair qəbul edilmiş qərarlar, övladlıq, qəyyumluq, himayəçilik, sosial və ictimai tədbirlər, tətbiq edilmiş alternativ tədbirlər, residivlər və s. məsələlərə dair məlumatı əks etdirməlidir.

9. Uşaqlarla işləyən bütün dövlət qurumlarının nümayəndələrinin uşaq hüquqlarına dair beynəlxalq və milli qanunvericilik, BMT-nin UHK da daxil olmaqla məlumatlılığını artırmaq məqsədilə milli səviyyədə tədris və təlim proqramlarının təşkili. Bu proqramlar yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiya üzvlərinin təliminə çərçivəsində üstünlük verilməlidir.

10. Bakı Dövlət Universitetində, Naxçıvan Dövlət Universitetində yuvenal ədliyyə idarəçiliyi üzrə xüsisi təhsil proqramının və Ədliyyə Nazirliyinin təlim və tədris mərkəzlərində, DİN-in Polis Akademiyasında və digər ali məktəblərdə xüsusi tədris proqramlarının yaradılması.

11. Hakimlər, dövlət ittihamçıları, polis əməkdaşları, vəkillər və digər aidiyyatı dövlət qurumlarının nümayəndələri üçün keçirilən imtahanlara yuvenal ədliyyəyə dair sualların daxil edilməsi. Bu suallar BMT-nin UHK, Ər-Riyad təlimatları, Pekin və Tokio Qaydaları və s. beynəlxalq sənədləri də əhatə etməlidir.

12. Qanunla ziddiyyətə olan uşaqlar və onların ailələrinə hüquqi yardım göstərilməsi məqsədilə Uşaq Hüquqları üzrə Hüquq Klinikasının yaradılması.

13. Uşaq hüquqlarının müdafiəsi, uşaq hüquqlarının pozulmasına dair uşaqlar və ya onların valideynləri, yaxud qanuni nümayəndələri tərəfindən verilən şikayətlərə baxılması məqsədilə Uşaq Hüquqları üzrə Müvəkkil (Ombudsman) vəzifəsinin yaradılması.

14. Uşaq hüquqları və ya yuvenal ədliyyə sahəsində işləyən müvafiq dövlət qurumlarının ixtisaslaşmış nümayəndələri üçün səmərəli tədris və təlim imkanlarının yaradılması.

15. Daxili İşlər Nazirliyi tərkibində, polis uşaq inspektorlarından ibarət, xüsusi Yuvenal Polis qurumunun yaradılması.

16. Ölkə üzrə yetkinlik yaşına çatmayanlara dair cinayət işləri ilə məşğul olmaq üçün Baş Prokurorluqda xüsusi yuvenal prokurorluq şöbəsinin yaradılması[61].

17. Azadlıqdan məhrum etmə yerlərindən azad edilmiş yetkinlik yaşına çatmayanların, habelə qanunla ziddiyyətdə olan uşaqların sosial reabilitasiyası, inteqrasiyası və tərbiyəsinə yönəlmiş yerli və milli proqramların hazırlanması və həyata keçirilməsi.

18. Yetkinlik yaşına çatmayanlara dair cinayət işlərinə baxarkən məhkəməyə qədər yönləndirmə (diskresion) mexanizmləri və alternativ tədbirlərin tətbiqinə üstünlüyün verilməsinin təbliğ edilməsi.

19. Yetkinlik yaşına çatmayanlar arasında hüquq pozuntularının profilaktikası məqsədilə xüsusi strukturlaşdırılmış və əsaslandırılmış preventiv proqramların hazırlanması və yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar və digər aidiyyatı dövlət qurumları tərəfindən icra edilməsi.

20. Tərbiyə Müəssisəsində cinayət əməli və yetkinlik yaşına çatmayan şəxsin sosial vəziyyəti, psixoloji və əqli durumundan irəli gələn və onun ehtiyaclarının ödənilməsinə yönələcək ixtisaslaşmış fərdi reabilitasiya və sosial inteqrasiya proqramlarının hazırlanması və həyata keçirilməsi.

[61] AR-nın CPM, Maddə 432.1. “Yetkinlik yaşına çatmayan şəxs barəsində ibtidai istintaq imkan dairəsində müvafiq ibtidai istintaq orqanlarının xüsusi bölmələri və ya yetkinlik yaşına çatmayan şəxslərələ müvafiq iş təjrübəsinə malik olan şəxslər tərəfindən aparılmalıdır.”

### *3.2. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların fəaliyyəti ilə əlaqədar təkliflər:*

1. İcra hakimiyyətləri tərkibində fəaliyyət göstərən müxtəlif komissiya və orqanların vəzifələrinin üstü-üstə düşməsini nəzərə alaraq, bu qurumların birləşdirilməsi və vahid Uşaq Müdafiə Departamentin yaradılması.

2. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların (və ya öncə təklif edilmiş Uşaq Müdafiə Departamentinin) Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi və ya Uşaq Hüquqları üzrə Ombudsmanın tabeliyinə verilməsi.

3. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyada mövcud olan ictimai əsaslarla üzvlüyün səmərəsiz olduğunu nəzərə alaraq, yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların (və ya öncə təklif edilmiş Uşaq Müdafiə Departamentinin) ştatının tam ödənişli əsaslarla aidiyyatı dövlət qurumlarının peşəkar nümayəndələrindən ibarət tərkibdə yaradılması.

4. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyanın (və ya öncə təklif edilmiş Uşaq Müdafiə Departamentinin) nümayəndələrinin yetkinlik yaşına çatmayanlara dair bütün məhkəmə proseslərində mütləq iştirakının təmin edilməsi məqsədilə Cinayət-Prosessual Məcəlləyə əlavə və dəyişikliklərin edilməsi.

5. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyada (və ya öncə təklif edilmiş Uşaq Müdafiə Departamentində) sosial işçi(lər) ştatının yaradılmasının təmin edilməsi.

6. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar (və ya öncə təklif edilmiş Uşaq Müdafiə Departamenti) tərəfindən daha mükəmməl, əhatəli və dolğun hesabatların hazırlanması və təqdim edilməsi prosedurları və qaydalarının təkmilləşdirilməsi. Bu cür hesabatlar hər bir rayon və şəhərdə uşaqların vəziyyətinin təhlili, uşaq hüquqları və yuvenal ədliyyənin icrası, yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyalar (və ya öncə təklif edilmiş Uşaq Müdafiə Departamenti) ilə təmasa girmiş uşaqlara dair məlumatlar və həmçinin hər bir sahəyə uyğun olaraq təkmilləşdirmə üçün təklif və tövsiyələri özündə əks etdirməlidir. Hesabatlara digər faydalı məlumatlar da daxil edilə bilər.

### *3.3. Uşaq inspektorlarının fəaliyyəti ilə əlaqədar təkliflər:*

1. Uşaq polis inspektorlarının bütün iş vaxtını yetkinlik yaşına çatmayanlarla işin aparılmasına sərf edilməsinin təmin edilməsi.

2. Hər bir rayon polis idarəsində (şöbəsində) Uşaq Otağının yaradılması və bura ayrıca girişin olmasının təmin edilməsi.

3. Polis orqanlarının müxtəlif sahələrində çalışanlar arasında əmək haqlarının bərabərləşdirilməsi.

4. Polis uşaq inspektorları və sahə müvəkkilləri arasında, yetkinlik yaşına çatmayanlarla bağlı məlumat mübadiləsinin təşkili məqsədilə, əlaqələndirmənin gücləndirilməsi və effektiv kommunikasiya sisteminin yaradılması.

5. Ölkə üzrə fəaliyyət göstərən polis uşaq inspektorlarının yarısının qadınlardan ibarət olması məqsədilə əlverişli şəraitin yaradılması.

### *3.4. Müvəqqəti saxlama təcridxanalarının (MST) vəziyyətinə dair təkliflər:*

1. Bütün müdafiə tədbirlərinin təmin edilməsinin zəruriliyini nəzərə alınmaqla, yetkinlik yaşına çatmayanların MST-lərdə saxlanmasına dair xüsusi prosedurların hazırlanması.

2. Yetkinlik yaşına çatmayanların MST-lərdə qısa müddət ərzində saxlanılması və onların valideynləri və ya qanuni nümayəndələrinin nəzarətinə buraxılmasının təmin edilməsi.

3. MST-də saxlanılan yetkinlik yaşına çatmayanın valideyn və ya qanuni nümayəndələrinin dərhal məlumatlandırılması və ona baş çəkilməsi üçün şərait yaradılması.

4. Müvafiq hökumət qurumu tərəfindən müəyyənləşdirilmiş standartlara uyğun olaraq, MST-də saxlanılan yetkinlik yaşına çatmayanlara normal qida, isti paltar, yataq dəsti və digər gigiyenik ləvazimatların verilməsinin təmin edilməsi.

5. Polis nəzarətində olan yetkinlik yaşına çatmayanların psixoloq, təhsil işçisi, sosial işçi və qanuni nümayəndəyə çıxışla təmin edilməsi.

6. Yetkinlik yaşına çatmayanların MST-lərdə saxlanmasına dair məlumatın dərhal yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaya ötürülməsinin təmin edilməsi üçün işlək mexanizmin yaradılması.

7. MST-lərdə saxlanılan uşaqların vəziyyətinin QHT-lər tərəfindən monitorinq edilməsi üçün icazənin verilməsi.

### *3.5. Məhkəmə prosesləri və istintaq prosedurlarına dair təkliflər:*

1. Yetkinlik yaşına çatmayanların müdafiəsinin daha yaxşı təşkili məqsədilə paytaxt üzrə yetkinlik yaşına çatmayanlara dair daxil olan bütün işlərin baxılması üçün Bakı şəhərində yuvenal məhkəmənin, həmçinin, bir neçə rayondan daxil olan yetkinlik yaşına çatmayanlara dair bütün işlərin baxılması üçün bir neçə iri şəhərdə regional yuvenal məhkəmələrin yaradılması.

2. Hər bir rayon məhkəməsindən (Bakı şəhər məhkəmələri istisna olmaqla) iki hakim seçilərək yuvenal ədliyyə və uşaq hüquqları sahəsində intensiv təlim keçməlidir ki, gələcəkdə öz rayonu üzrə yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş az ağır cinayətlərə dair işlərə baxsın. Ağır və xüsusilə ağır cinayətlərə dair işlər Regional Yuvenal Məhkəmələrə və ya Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmənin tərkibində yaradılması təklif edilən Yuvenal İşlər üzrə Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəməyə göndərilməlidir.

3. Azərbaycan Respublikası Baş Prokurorluğu yanında yetkinlik yaşına çatmayanların cinayət işlərinin baxılması məqsədilə yetkinlik yaşına çatmayanların işləri ilə məşğul olan ixtisaslaşmış yuvenal prokurorluq şöbəsi və ya sektorunun yaradılması. Bu şöbə və ya sektorun ştatı ixtisaslaşmış yuvenal prokurorlardan ibarət olmalıdır. Baş Prokurorluq yanında yaradılmış bu yuvenal prokurorluq şöbəsi və ya sektoru, Bakı şəhəri istisna olmaqla, respublikanın bütün rayonlarını əhatə etməlidir. Bakı şəhəri üzrə isə yetkinlik

yaşına çatmayanlara dair cinayət işləri Bakı şəhər Prokurorluğu tərkibində yaradılması təklif edilən yuvenal prokurorluq şöbəsi və ya sektoru tərəfindən aparılmalıdır.

4. Məhkəmə müvafiq yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyadan məhkəmə işi üzrə keçən hər bir yetkinlik yaşına çatmayan barəsində standartlaşdırılmış formaya əsasən məlumat tələb etməlidir. Bu məlumat onun sosial durumu, ailəsinin vəziyyəti və digər faydalı məlumatı da əks etdirməlidir. Yetkinlik yaşına çatmayanlarla iş üzrə Komissiyanın nümayəndələrinin məhkəmə iclaslarında mütləq iştirakı təmin edilməlidir.

5. Vəkillər Kollegiyası öz üzvləri üçün yuvenal ədliyyə, uşaq hüquqları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər müvafiq beynəlxalq müqavilələrə, dair xüsusi təlim proqramları təşkil etməli, davamlı şəkildə təlim aparmalıdır.

6. Yetkinlik yaşına çatmayanlara dair məhkəmə işlərinin monitorinq edilməsi məqsədilə QHT-lərə icazə verilməlidir. Monitorinqlər nəticəsində hazırlanacaq hesabatlar müvafiq dövlət qurumları və monitorinq edilmiş məhkəmələrin sədrlərinə təqdim edilməlidir.

7. Cinayət-Prosessual Məcəllədə[62] cinayət işlərində şahid, zərərçəkmiş və ya cinayətdə təqsirli bilinən şəxs qismində çıxış edən yetkinlik yaşına çatmayanların hüquqlarının və mənafelərinin müdafiəsinə dair verilmiş zəmanətlər daha da gücləndirilməlidir. Əsasən, 18 yaşınadək olan hər bir şəxsin, dindirilməsi də daxil olmaqla, cinayət işinə dair aparılan bütün prosedurlar zamanı pedaqoq, psixoloq və qanuni nümayəndənin iştirakı şərtsiz olaraq təmin edilməlidir. Uşağın valideyni və ya qanuni nümayəndələrinin araşdırılan cinayət əməlinin törədilməsində iştirakı güman edildiyi halda onların yuxarıda qeyd edilmiş prosedurlar zamanı iştirakı məhdudlaşdırıla bilər. Həmçinin, əgər valideyn və ya qanuni nümayəndələrin iştirakı uşaq mənafelərinin üstünlüyü prinsipinə uyğun deyilsə, onların iştirakı məhdudlaşdırıla bilər. Bu zaman cinayət işini aparan məsul şəxs cinayət işinə dair sənədlərdə xüsusi qeydlər aparmalıdır.

8. Tutulmuş, barəsində həbs qətimkan tədbiri seçilmiş, və ya azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanlar üçün xüsusi mentorluq proqramlarının təşkil edilməsi məqsədilə QHT-lərin fəaliyyəti stimullaşdırılmalıdır. MST-lər və istintaq təcridxanalarında, habelə Tərbiyə Müəssisəsində saxlanıldığı müddət ərzində yetkinlik yaşına çatmayanların icma əsaslı, həmçinin ixtisaslaşmış və akkreditasiya keçmiş QHT-lər tərəfindən təqdim edilən mentorluq xidmətlərindən yararlanması üçün müvafiq şərait yaradılmalıdır. Bu proqramların arxasında duran məqsəd təcrid edilmiş uşağı onun inana biləcəyi və xüsusi təlimdən keçmiş şəxslə təmin edilməsidir.

9. Hüquq sahəsində olan mütəxəssislər – hakimlər, prokurorlar və vəkillər bir araya gələrək Cinayət-Prosessual Məcəllədə verilmiş alternativ tədbirlər siyahısını nəzərdən keçirməlidir. Həbs qətimkan tədbiri və ya azadlıqdan məhrumetmə ilə bağlı çıxarılan qərarların müvafiq olaraq yalnız ağır və xüsusilə ağır cinayətlərdə təqsirləndirilən və ya təqirli bilinmiş uşaqlara dair çıxarılması istiqamətində səylər göstərilməlidir. Mütəxəssislər həmçinin azadlıqdan məhrumetməyə alternativ olan tədbirlərin tətbiq edilməsinin genişləndirilməsini nəzərdən keçirməlidir.

10. Məhkəmə zallarında, beynəlxalq standartlara uyğunlaşdırma məqsədilə, müvafiq dəyişikliklər edilməlidir. Əsasən də, məhkəmə prosesləri zamanı yetkinlik yaşına

[62] CPM, Maddə 228.1: "Yetkinlik yaşına çatmayan şahid iş üçün əhəmiyyətli məlumatları şifahi və ya digər formada təqdim edə bilərsə, o, yaşından asılı olmayaraq dindirilə bilər."
CPM, Maddə 228.2: "14 yaşınadək, müstəntiqin mülahizəsinə görə isə 16 yaşınadək olan yetkinlik yaşına çatmamış şahidin dindirilməsi müəllimin, zəruri hallarda isə həkimin və onun qanuni nümayəndəsinin iştirakı ilə aparılır."

çatmayan şəxslərə əl qandalları vurulmamalı və məhkəmə zalında onlar barmaqlıqlar arxasında əyləşdirilməməlidirlər. Bu birbaşa qeyri-insani və alçaldıcı rəftar kimi qiymətləndirilir. Təhlükəsizlik təminatı digər vasitələrlə təmin edilə bilər. Məsələn, yetkinlik yaşına çatmayanlara polis əməkdaşları nəzarət edə bilər.

11. Uşaqların böyük əksəriyyətinin məhkəmə prosedurlarını, hüquqi terminologiyanı, o cümlədən məhkəmə tərəfindən qəbul edilən qərarları başa düşmədiyini nəzərə alaraq, məhkəmə bütün tərəflərdən uşaqların başa düşə biləcəyi sadə danışıq dilindən istifadə etməyi tələb etməlidir. Bu mümkün olmadığı halda, məhkəmədə baş verənləri aydınlaşdırmaq üçün yetkinlik yaşına çatmayan şəxs pulsuz olaraq pedaqoqla təmin edilməlidir.

12. Məhkəmə prosedurları və hüquqi terminologiyanın uşaqlar tərəfindən daha asan başa düşülməsini təmin etmək məqsədilə hökumət qurumları və QHT-lər tərəfindən xüsusi aydınlaşdırıcı materialların (bukletlər, plakatlar, broşürlar və s.) hazırlanması tövsiyə edilir.

### *3.6. Xüsusi tədris müəssisələrinin fəaliyyəti ilə əlaqədar təkliflər:*

1. Açıq və qapalı tipli xüsusi tədris müəssisələri haqqında Nümunəvi Əsasnamədə Azərbaycanın tərəfdar çıxdığı və öhdəlik götürdüyü BMT-nin UHK və digər beynəlxalq konvensiyalara uyğun olaraq əlavə və dəyişikliklər edilməlidir. Nümunəvi Əsasnamənin mövcud maddələri özəl həyata və yazışmaya, təhsilə və zorakılıqdan müdafiə olunmağa, habelə qeyri-insani və alçaldıcı rəftardan azad olmağa olan hüquqları pozur.

2. Xüsusi tədris müəssisələri QHT-lər və icma nümayəndələri tərəfindən dövrü monitorinq edilməlidir.

3. Uşaqlara BMT-nin UHK-da təsbit edilmiş hüquqları öyrədilməli və bu hüquqların pozulması hallarına dair dərhal məlumatın azad şəkildə müvafiq qurumlara çatdırılması üçün şərait yaradılmalıdır. Hər bir müəssisədə uşaq hüquqlarının pozulması və ya uşaqların məruz qaldığı zorakılıq halları ilə bağlı məlumatın və ya şikayətlərin verilməsi məqsədilə Uşaq Şikayət Qutuları quraşdırılmalıdır.

4. İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) və Ombudsman təsisatı yanında yaradılmış Uşaq Hüquqları Mərkəzi tərəfindən xüsusi tədris və tərbiyə müəssisələrində rübdə bir dəfə monitorinqlər aparılmalıdır.

5. Uşaqların özünə inamının artırılması, onların iştiraklarının təmin edilməsi məqsədilə hər bir tədris müəssisəsində uşaq parlamenti yaradılmalıdır. Uşaq parlamenti uşaqlara öz fikirlərini söyləmək, müxtəlif məsələlər qaldırmaq və onları müzakirə etmək, problemlər ətrafında fikir mübadiləsi aparmaq və danışıqların aparılması bacarıqlarının inkişaf etdirilməsinə yardımçı olacaq.

6. Tədris müəssisələri yetkinlik yaşına çatmayanların psixoloji reabilitasiyasına diqqəti artırmalı, onların inkişafı üçün təhlükəsiz və müdafiəli mühit yaratmalı və müstəqil həyata hazır olmaları üçün düzgün iş aparmalıdır.

7. Xüsusi tədris və tərbiyə müəssisələrində yetkinlik yaşına çatmayanların peşə təliminə cəlb edilməsi məsələlərinə diqqət artırılmalı, bu təlimlərin əmək bazarında mövcud tələbata əsasən qurulması nəzərdən keçirilməlidir. Yetkinlik yaşına çatmayanların ali

təhsil müəssisələrinə daxil olması məqsədilə, onların qəbul imtahanlarında iştirakının təmin edilməsi üçün daha geniş imkanlar və şərait yaradılmalıdır.

8. Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiyaların nümayəndələri tərəfindən xüsusi tədris və tərbiyə müəssisələrində saxlanılan yetkinlik yaşına çatmayanların saxlanılması və tərbiyəsi vəziyyəti mütamadi olaraq monitorinq edilməli və lazım gəldikdə onların bu müəssisələrdə qalmasının zəruriliyinə yenidən baxmalıdır.

9. Quba rayonunda yerləşən Oğlanlar üçün texniki-peşə məktəbi iki səbəbə əsasən bağlanmalıdır: 1) müəssisənin fiziki şəraiti uşaqların saxlanması və tərbiyəsi üçün yararsızdır; və 2) müəssisədə 25 nəfərdən az uşağın saxlanıldığı və tərbiyəyə cəlb olunduğunu nəzərə alaraq, bu müəssisə qanuna əsasən bağlanmalıdır. Burada saxlanılan uşaqlar Mərdəkan qəsəbəsində yerləşən Oğlanlar üçün xüsusi tədris müəssisəsinə göndərilməlidir.

10. Xüsusi tədris müəssisələrinin işçiləri üçün yuvenal ədliyyə, yetkinlik yaşına çatmayanların reabilitasiyası və cəmiyyətə inteqrasiyası, habelə hər bir uşağa ünvanlanmış fərdi inkişaf və reabilitasiya planlarının hazırlanması sahəsində intensiv təlim proqramları təşkil olunmalıdır.

# Əlavə 1. Xüsusi tədris müəssisələri

## *Quba rayon Oğlanlar üçün texniki peşə təlim-tərbiyə müəssisəsində tərbiyə olunanlar arasında sorğu*

Monitorinq zamanı müəssisədə tərbiyə olunan 13-18 yaş arasında olan 23 yetkinlik yaşına çatmayanlar arasında anonim sorğu aparılmışdır. Uşaqların bildirdiyinə görə, onlar buraya evdən, məktəbdən, tərbiyə aldıqları internatlardan qaçdıqları və ya oradakı intizamı pozduqlarına görə, həmçinin, cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətdiklərinə görə yerləşdirmişlər

Qeyd etmək lazımdır ki, dindirilən uşaqların əksəriyyəti aztəminatlı sosial təbəqəyə aid olan, natamam (əksəriyyətinin ataları və ya anaları yoxdur, mövcud olanı isə həbsxanada cəza çəkir və ya yataq xəstəsidir) ailələrdən olan uşaqlardır. Buraya onları kim göndərməsi sualına uşaqlar valideynləri, polis, əvvəllər saxlandıqları internatların müdiri olduğunu bildirdilər. Burada olmalarını yalnız 5 uşaq ədaləli sayır, 1 nəfər bu sualın cavabın bilmədiyini, qalanları isə buraya salınmalarını ədalətsiz hesab edirlər.

23 uşaqdan 18-i valideynləri və qohumlarının onları ziyarət etmədiklərini, 4 nəfər hərdən-bir ziyarət etdiklərini və 1 nəfər mütamadi olaraq ziyarət edildiyini bildirdi. Uşaqlardan 10 nəfəri müəssisədə ziyarət edənlərlə rahat, azad və məhdudiyyyətsiz danışmaq imkanının yaradılmadığını bildirdilər.

Sanitar-igiyenik vəziyyətin və avadanlıqların pis olmasını 16 şəxs etiraf etdi. Sorğu götürülən 23 nəfərin hamısı ümumi yataq otağında yatdıqlarını bildirdilər. Uşaqların hamısı yataq dəstlərinin köhnə və nəm olduqlarını bildirdilər. Uşaqlardan beşi tək adamlıq otaqlarda yatmaq istədiklərini bildirdilər. 4 nəfər isə yataq otağında gecə vaxtı digər uşaqların pis rəftarına məruz qalma hallarının olduğunu bildirdi.

Yeməyin keyfiyyətini yalnız 4 nəfər yaxşı qiymətləndirdi, 1 nəfər yeməyin keyfiyyətindən razı qalsa da, doymadığını, qalanları isə yeməyin dözülən həddə olduğunu bildirdilər.

«Siz nadinclik edəndə müəllimlər, tərbiyəçilər sizə qarşı hansı tədbirlər tətbiq edirlər» sualına uşaqların əksəriyyəti barələrində şifahi və məcburi əmək kimi tədbirlərin görüldüyünü bildirdilər. Lakin «döyülməyə, təhqirə məruz qalmısınızmı» sualına 6 yetkinlik yaşına çatmayan cavab vermək istəmədiyini söyləsə də, dördü hərdən döyülmə halların olmasını etiraf etdilər.

Əyləncə imkanlarının qiymətləndirməsinə gəldikdə isə uşaqların 7 nəfəri bu imkanların pis olduğunu, digərləri isə kifayət dərəcədə olmasını bildirdilər. Lakin uşaqların əksəriyyəti burada idman oyunlarının keçirilməsi üçün imkanın olmadığını və bu halın onların istirahət vaxtlarının səmərəli keçməsinə mane olduğunu bildirdilər.

## *Quba rayon Oğlanlar üçün texniki peşə təlim-tərbiyə müəssisəsinin rəhbəri ilə müsahibə*

Müəssisə rəhbəri Xalıq Bayramov 1974-cü ildən sözügüdən müəssisədə çalışır və 1985-ci ilin aprel ayından sözügedən müəssisənin rəhbəri vəzifəsindədir. O, öz işindən çox razı olduğunu bildirdi. Müəssisə rəhbərinin aylıq əmək haqqının 80-100 manat təşkil etdiyini bildirdi.

X. Bayramov müəssisədə uşaqların işləyib pul qazanması imkanın olmamasını bildirsə də, buradakı istirahət və əyləncə imkanlarının və sanitar-gigiyenik vəziyyəti orta olaraq qiymətləndirir (daha yaxşı da ola bilərdi). Ən böyük problemlərdən biri kimi cənab Bayramov

yetkinlik yaşına çatmayanların ali məktəbə qəbul imtahanlarda iştirak etmək və diplom əldə etmək imkanlarının olmamasını qeyd etdi. Onun verdiyi məlumata əsasən, müəssisə məzunlarından yalnız 1988-ci ildə 1 uşaq ali məktəbə qəbul olub.

X. Bayramov müəssisənin Nizamnaməsinə əsasən, yetkinlik yaşına çatmayanların valideynlərini görmək və ya digər məqsədlər üçün (təhsil və s.) müəssisənin hüdudlarını tərk edə bilmədiklərini bildirdi. O, eyni zamanda telefon danışıqlarına və məktublaşmaya heç bir məhdudiyyət olmadığını bildirdi. Müəssisədə tərbiyə olunanlara qarşı heç vaxt güc tətbiq edilmədiyini də söylədi.

Müəssisə rəhbərinin sözlərinə görə, tərbiyə olunanlar 18 yaşları tamam olduqda Pedoqoji Şuranın qərarı ilə evə buraxılır, 18 yaşına çatmayanlar isə Təhsil Nazirliyi tərəfindən evə buraxıla bilərlər.

Müəssisədə hər gün saat 14.00-dan 1 nəfər həkim, 1 psixoloq, saat 09.00-13.00 radələrində isə 4 nəfər müəllim, peşə təlimi üzrə 1 nəfər istesalat ustası çalışırlar. Işçilərin orta aylıq əmək haqqı 56 YAM təşkil edir.

## *Bakı şəhəri Mərdəkan qəsəbəsi Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsində tərbiyə olunanlar arasında sorğu*

Monitorinq zamanı müəssisədə tərbiyə olunan 9-16 yaş arasında olan 15 uşaq arasında anonim sorğu aparılmışdır. Uşaqların hamısının dediklərinə əsasən, onlar buraya evdən və ya məktəbdən qaçdıqları, valideynlərlə ünsiyyətdə çətinlik çəkdikləri səbəbindən yerləşdirilmişlər. Yalnız bir respondent buraya nə üçün düşdüyünü bilmədiyini söylədi. 15 uşaqdan 3-ü onların bura salındıqlarından əvvəl heç kim tərəfidən onlara və yaxud onların valideynlərinə xəbərdarlıq edilmədiklərini bildirdilər.

Qeyd etmək lazımdır ki, dindirilən uşaqların hamısı aztəminatlı sosial təbəqəyə aid olan natamam ailələrdən olan uşaqlardır. Uşaqların əksəriyyətinin ataları yoxdur, mövcud olanı isə həbsxanada cəza çəkir və ya yataq xəstəsidir, bir uşaq atası olamadığını və anası da onu tərk etdiyini bildirdi, biri isə, ümumilikdə, valideynlərinin olmamasını bildirdi. Buraya onları kimin göndərməsi sualına uşaqlar valideynləri, polis, əvvəllər təhsil aldıqları məktəbin müdiri və ya müəllimi olduğunu bildirdilər. Ümumilikdə, uşaqlar buradakı saxlanılma şəraitinin yaxşı olduğunu, onlarla müəssisədə yaxşı rəftar olduğunu bildirdilər. Uşaqlar müəssisədəki həyatlarını yaxşı qiymətləndirsələr də, əksəriyyəti öz ailələrinə qayıtmaq istədiklərini bildirdilər. 15 uşaqdan 2-si valideynləri və qohumları onları ziyarət etmədiklərini, üçü hərdən-bir ziyarət etdiklərini, qalanları isə mütamadi olaraq ziyarət edildiklərini bildirdilər. Uşaqlar yaxınları gəldikdə müəssisədə onların görüşməsinə imkan yaradıldığını bildirdilər.

«Siz nadinclik edəndə müəllimlər, tərbiyəçilər sizə qarşı hansı tədbirlər tətbiq edirlər» sualına uşaqlar barələrində şifahi tədbirlərin görüldüyünü bildirdilər. Yalnız bir uşaq müəlimlərin onun qulağını burduğunu və sillə vurduqlarını bildirdi.

Dindirənlərin əksəriyyəti 50-60 nəfərlə birgə idman zalında yatdıqlarını bildirdilər. Yataq dəstinin dəyişilməsini bir uşaq 10 gündən bir, digər uşaq isə 1 ayda 1 dəfə dəyişildiyini göstərdi.

«Sənin fikrincə, bura göndərilmənin əvəzində sənə qarşı hansı tədbirin görülməsi daha məqsədəuyğun olardı» sualına uşaqların əksəriyyəti bura göndərilmənin düzgün olduğunu, bəziləri isə bu haqda bir fikirləri olmadıqlarını bildirdilər.

15 uşaqdan yalnız 1-i buradakı təhsilin yaxşı olmadığını bildirdi. Uşaqlar dərs vaxtı qrup paltarlarını, adi vaxt isə umumi paltarlarını geyindiklərini bildirdilər.

Əyləncə imkanlarının qiymətləndirməsinə gəldikdə isə uşaqların çox hissəsi onlardan razı qaldıqlarını bildirdilər, yalnız bir uşaq müəssisədə olan kompüter otağına onları daha tez-tez buraxılmasını arzu etdi.

Dindirilən uşaqlardan (onların sözlərinə görə) ən uzun müddət burada saxlanılanı 6 il burada olduğunu bildirdi (hal-hazırda onun 16 yaşı var).

## *Bakı şəhəri Mərdakan qəsəbəsi Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsinin rəhbəri ilə müsahibə*

Müəssisə rəhbəri cənab Nadir Əhmədov artıq 10 ildir ki, açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsinin müdiri vəzifəsində çalışır və öz işindən qismən razı olduğunu bildirdi. Bunu işin ağırlığı, alınan məvacibin isə az olması ilə əlaqələndirdi (194,4 manat). Ümumiyyətlə, bu faktı müəssisənin bütün işçi heyətinə şamil etdi. Cənab Əhmədov buradakı istirahət və əyləncə imkanlarının orta olaraq qiymətləndirdi (daha yaxşı da ola bilərdi), sanitar-gigiyenik vəziyyəti yaxşı və ümumiyyətlə, hal-hazırda aparılan təmirdən sonra müəssisənin maddi-texniki imkanlarının qənaətbəxş olacağını bildirdi. Ən böyük problem kimi, cənab Əhmədov işçi heyətinin gördüyü ağır işin müqabilində az maaş aldıqlarını (texniki işçilər cəmi 30-50 YAM, müəllim və tərbiyəçilər 70-140 YAM) və bu səbəbdən kadrların bu müəssisəyə işləməyə can atmadıqlarını bildirdi, bu da öz növbəsində kadr çatışmazlığına gətirib çıxardır.

Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansının monitorinq qrupu 07 aprel 2006-cı il tarixində oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsində ikinji monitorinqi həyata keçirdi. Monitorinqin zamanı əsas məqsəd birinji monitorinq zamanı sorğu götürülməmiş uşaqlardan müsahibələrin götürülməsi və ilkin monitorinq zamanı diqqətdən yayınmış bəzi məqamların dəqiqləşdirilməsi idi.

## *Bakı şəhəri Mərdakan qəsəbəsi Oğlanlar üçün Açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsində 35 uşaq arasında aparılmış sorğunun nəticəsi*

| Yaş | Uşaqların sayı | Göndərən qurum | | Saxlanmanın səbəbi | | Qohumlar tərəfindən ziyarət edilmə | | Tək nəfərli otaqda qalmaq istəyi | | Cəzalandırma | | Müəssisədə saxlanması ədalətlidirmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 10 | 1 | Yetkinlik yaşına çatmayanlarla iş üzrə komissiya | 2 | Məktəb dərslərindən qaçmaq | 18 | Mütamadi | 23 | Bəli | 6 | Cismani cəzalandırma | 6 | Bəli | 20 |
| 11 | 1 | Valideynlər | 16 | Valideynləri ilə yola getməmək | 3 | Nadir hallarda | 8 | Xeyr | 20 | Tək nəfərli otağa salmaq | 0 | Xeyr | 14 |
| 12 | 0 | Məktəb | 9 | Şuluqluq salmaq | 3 | Ziyarət edilmir | 4 | | | Məcburi əməyə cəlb etmək | 3 | | |
| 13 | 10 | Polis | 3 | Digəri | 8 | | | | | Görüşlərin yasaqlanması | 1 | | |
| 14 | 13 | Digəri | 3 | Bilmir | 3 | | | | | Şifahi tədbirlər | 20 | | |
| 15 | 7 | | | | | | | | | Digəri | 3 | | |
| 16 | 2 | | | | | | | | | | | | |

# Əlavə 2. 3 saylı İstintaq Təcridxanası

## *3 saylı İstintaq Təcridxanasında həbsdə saxlanılanlar arasında sorğu*

Monitorinq zamanı müəssisədə saxlanılan 24 nəfər yetkinlik yaşına çatmayan şəxs arasında anonim sorğu aparılmışdır. Sorğu əsasən yetkinlik yaşına çatmayanların təcridxanada saxlanılma şəraiti, həmçinin saxlanılanlara qarşı tətbiq olunan bəzi prosessual qaydalar ilə bağlı idi.

Yetkinlik yaşına çatmayanlar 4 və 5 nəfərlə birgə kamerada qaldıqlarını və onların arasında 1 nəfər yetkinlik yaşına çatmış şəxs olduğunu (21, 38, 34, 42, 45, 47, 52 yaşlarında) bildirdilər.

Uşaqlardan onların yetkinlik yaşına çatmış şəxslərlə saxlanılmasına münasibətlərini soruşduqda demək olar ki, əksəriyyəti bu fakta müsbət münasibət göstərdilər və "ağsaqqalların" (onlar böyükləri bu cür çağırırlar) kamerada intizam yaratmaqda böyük rol oynadıqlarını bildirdilər.

Qeyd etmək lazımdır ki, «birnəfərlik kamerada qalmaq istərdinizmi» sualına, bir nəfər istisna olmaqla, bütün uşaqlar "Xeyr" cavabını verdilər. Onların fikrincə, belə olduğu təqdirdə çox darıxdırıcı olar.

Artıq məhkum edilmiş şəxslər ilə birgə saxlanılmaları barədə 4 yetkinlik yaşına çatmayan məlumat verdi.

Həbs altında saxlanılan yetkinlik yaşına çatmayanların böyük əksəriyyəti buradakı şəraitin, əyləncə-istirahət imkanlarının, sanitar gigiyenik vəziyyətin normal olduğunu bildirdilər.

Yeməyin keyfiyyətinin 7 nəfər dözülən həddə, 4 nəfər pis, qalanları isə qənaətbəxş olduğunu bildirdilər.

Uşaqların demək olar ki, hamısı (1 nəfər istisna olmaqla) burada heç bir təhsil və ya peşə təlimi keçilmədiyini bildirdilər.

Saxlanılanlar ümumilikdə intizam tədbirlərindən şifahi xəbərdarlıq və intizam təcridxanasına salınmanın tətbiq edilməsini və onların hər-hansı bir qəddar və ya ləyaqəti alçaldan rəftara məruz qalmadıqlarını bildirdilər. Lakin 3 nəfər intizam qaydalarını pozduqlarına görə döyüldükləri haqda məlumat verdilər. Uşaqlardan biri döşəməsinə xlor tökülmüş intizam kamerasında saxlanıldığını bildirdi. «Hansı hərəkətinə görə döyülmüsən» sualına yetkinlik yaşına çatmayanlardan biri pəncərədən digər kameranın məhbusu ilə söhbət etdiyinə görə bu cəzaya məruz qaldığını söylədi. 2 nəfər isə fiziki zorakılıqla bağlı olan suala cavab vermək istəmədiyini bildirdi.

Saxlanılanlar arasında yalnız 6 nəfər valideynlərinin onlara mütamadi olaraq və 6 nəfər hərdənbir baş çəkdiklərini və bu halda görüşə heç bir maneə törədilmədiyini bildirdilər. Digər saxlanılanların hamısı onların yanına müdiriyyət tərəfindən heç kimi, hətta valideynlərinin də buraxılmadığını bildirdilər.

3 nəfər ümumiyyətlə, tutulduqları andan indiyə qədər valideynlərini görmədiklərini dedilər. Uşaqlar bu faktı istintaq altında olmaları ilə izah etdilər. Təcridxana əməkdaşına bu haqda sual verildikdə bildirildi ki, valideynlər müstəntiq tərəfindən qanuni nümayəndə qismində tanındıqları halda, onlara uşaqları ilə görüşməyə icazə verilir[63].

[63] Belə qənaətə gəlmək olar ki, istintaq aparan şəxs yetkinlik yaşına çatmayanlara və onların nümayəndələrinə hüquqlarının həyata keçirmə mexanizmlərini izah etməmişdir.

Rüşvətxorluq hallarının olması sualına cavab verərkən yalnız 2 nəfər bu cür hal ilə qarşılaşdığını bildirdi.

«Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların nümayəndəsi ilə görüşmüsünüzmü, yaxud onlar sizin ilə maraqlanıblarmı» sualına, yetkinlik yaşına çatmayanlar hamısı belə qurumu ümumiyyətlə, tanımadıqlarını bildirdilər.

Respondentlərdən 3 nəfər orada nəyə görə olduğunu bilmədiyini bildirdi. Təcridxanada olmasını 11 nəfər ədalətsiz hesab edir. Onlardan bəziləri ümumiyyətlə, cinayət törətmədiyini, digərləri isə törətdiklərindən daha ağır əməllərdə təqsirləndirildiklərini bildirdilər.

Uşaqların hamısı qanunda nəzərdə tutulmuş tutulma müddətlərinin pozulduğunu, tutulan andan yalnız xeyli müddət keçdikdən sonra vəkilinin, valideynlərinin və ya digər qanuni nümayəndələrinin yanlarına buraxıldığını bildirdilər.

Azərbaycan Respublikası Cinayət Prossesual Məcəlləsinin 92.3.5 , 432.2-ci maddəllərinə əsasən, şübhəli və ya təqsirlndirilən şəxs cinayəti törətdərkən yetkinlik yaşına çatmadıqda müdafiəçinin iştirakı məcburidir. Həmçinin, müdafiəçinin iştirakı şəxsin tutulduğu andan təmin edilməlidir. Lakin təcridxanada saxlanılan yetkinlik yaşına çatmayan şəxslərin dediklərinə əsasən, onların işlərində müdafiəçinin iştirakı qanunda göstərilən müddətləri kobudcasına pozulması ilə müşayiət edilmişdir.

| **Tutulduqdan sonra keçən müddət** | **Uşaqların sayı** |
|---|---|
| 1 gün | 3 |
| 3 gün | 1 |
| 4 gün | 1 |
| 14 gün | 1 |
| 15 gün | 1 |
| 1 həftə və daha çox | 2 |
| 1 ay | 1 |

Yetkinlik yaşına çatmayanlar bir nəfər kimi dövlət tərəfindən təyin olunan vəkillərin göstərdiyi hüquqi yardımın formal xarakter daşıdığını dedilər.

AR CPM–nin 434.2-ci maddəsinə əsasən, yetkinlik yaşına çatmayan şəxs barəsində həbs qətimkan tədbirinin müstəsna tədbir kimi və mümkün qədər qısa müddət ərzində tətbiq edilməsinə yol verilir. Qeyd etmək lazımdır ki, beynəlxalq təcrübədə həbs qətimkan tədbirinin müddəti təyin olunaraq "ağlabatanlıq" məfhumu nəzərə alınmalıdır.

3 saylı İstintaq Təcridxanasında saxlanılan şəxslərin həbsdə saxlandıqları müddətlərə nəzər yetirdikdə görünür ki, müddət təyin edərkən ibtidai istintaqın maraqları nəzərə alınsa da, CPM-nin 434.2-ci maddəsinə riayət edilmir.

## *3 saylı İstintaq Təcridxanasının rəhbəri ilə müsahibə*

Müəssisənin rəisi Elxan Sadıxov artıq 25 ildir ki, azadlıqdan məhrumetmə yerlərində çalışır. 9 aydır ki, 3 saylı İstintaq Təcridxanasının rəisidir.

Qeyd etmək lazımdır ki, müəssisə işçiləri burada işin ağır, verilən məvacibin isə az olmasından gileyləndilər.

E.Sadıxov təcridxanada mövcud olan istirahət və əyləncə imkanlarının qənaətbəxş hesab edir. Lakin o, hər bir halda uşağın təcrid olunaraq dəmir barmaqlıqlar arasında saxlanmasını düzgün hesab etmir. Onun fikrincə, belə hal uşaq psixologiyasının korlanmasına, onlarda sərtləşmə, həyata küskünlük hisslərinin yaranmasına gətirib çıxarır. Hər bir halda uşaqlar onların psixologiyası və yaşları nəzərə alınmaqla yaradılmış xüsusi təlim-tərbiyə müəssisələrində saxlanılmalıdırlar.

E.Sadıxov burada təhsil almaq, ali məktəbə qəbul imtahanlarında iştirak etmək imkanının olmadığını, lakin bu məsələnin Təhsil Nazirliyində müzakirə edildiyini bildirdi.

Rəis buradakı yeməyin, sanitar gigiyenik vəziyyətin qənaətbəxş olduğunu qeyd etdi. O, hal-hazırda müəssisədə təmir işlərinin aparılması haqda məlumat verdi.

Rəisin bildirdiyinə görə, müəssisədə gecə vaxtı 26 nəfər növbə çəkir.

E.Sadıxov burada yetkinlik yaşına çatmayanların hər hansı bir səbəbə görə müəssisəni müvəqqəti tərk edə bilmədiklərini, telefonla hətta valideynləri ilə də əlaqə saxlaya bilmədiklərini bildirdi (Milli qanunvericilikdə bu hüquqlar nəzədə tutulmayıb).

Rəisin dediyinə görə, saxlanılanlara qanunla nəzərdə tutulmuş qaydada yazışma imkanı yaradılır.

Rəis onu da bildirdi ki, burada işlədiyi vaxt ərzində heç bir halda heç bir məhbusa qarşı güc, o cümlədən, silah tətbiq edilməmişdir.

Ən böyük problem kimi, cənab Sadıxov işçi heyətinin gördüyü ağır işin müqabilində az maaş aldığını və bu səbəbdən kadrların bu müəssisəyə işləməyə can atmadıqlarını bildirdi. Bu da öz növbəsində kadr çatışmazlığına gətirib çıxarır. (rəis 274, digər işçilər 150-250, 80-100 manat məvacib alırlar.)

## *3 saylı İstintaq Təcridxanasında monitorinq*

| № | Adı, Soyadı | Yaşayış yeri | Tutulduğu yer | Təhsili | Maddə | Həbs altında olduğu müddət |
|---|---|---|---|---|---|---|
| 1. | D.M. | Tərtər | Tərtər | Natamam orta | 126.1 | 2 ay |
| 2. | G.R. | Naxçıvan | Abşeron | Natamam orta | 126.2.4 | 7 ay |
| 3. | N.A. | Salyan | Salyan | Natamam orta | 150.2.3 | 7,5 ay |
| 4. | S.A. | Bakı ş. Yasamal r-n | Bakı ş. Yasamal r-n | | 180.2.1 | 20 gün |
| 5. | R.V. | Qobustan | Qobustan | Natamam orta | 150.3.3 | 2 ay |
| 6. | E.I. | Ağdam | Beyləqan | orta | 181.2.5 | 1,5 ay |
| 7. | R.A. | Sumqayıt | Sumqayıt | Natamam orta | 150.3.3 | 1 ay və 20 gün |
| 8. | N.Y. | Ağcabədi | Ağcabədi | - | - | 6 ay |
| 9. | Z.A. | Bakı ş. Binəqədi r-n | Bakı ş. Binəqədi r-n | Natamam orta | 150.1,153.3 | Bilinmir |
| 10. | S.B. | Bakı ş. | Bakı ş. | Orta | Əvvəl | 1.5 ay |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | Binəqədi r-n | Binəqədi r-n | | məhkum olunub,185.2.2 | |
| 11. | V.B. | Bakı ş. Əzizbəyov r-n | Bakı ş. Əzizbəyov r-n | Natamam orta | 180.1 | 13 months |
| 12. | R.B. | Bakı ş. Suraxanı r-n | Bakı ş. Suraxanı r-n | Orta | 120.2.1,120.2.4 | 15 ay |
| 13. | R.H. | Bakı ş. Binəqədi r-n | Bakı ş. Binəqədi r-n | Orta | 177.2.1,177.2.2,177.2.3 | 8 gün |
| 14. | F.H. | İmişli | Bakı ş. Binəqədi r-n | | 150.3.3 | 11 ay |
| 15. | M.G. | Bakı ş. Suraxanı r-n | Bakı ş. Suraxanı r-n | | 120.2.1,120.2.4 | 15 ay |
| 16. | A.G. | Sumqayıt | Bakı ş. Binəqədi r-n | Natamam orta | Əvvəl məhkum olunub, 177.2.1,177.2.2 | 12 ay |
| 17. | A.H. | Gürcüstan Resp. | Bakı ş. Nizami r-n | Natamam orta | 182.4 | 1 il |
| 18. | V.H. | İmişli | İmişli | Natamam orta | 150.3.3 | 5 ay |
| 19. | V.H. | Bakı ş. Nərimanov r-n | Bakı ş. Nərimanov r-n | Natamam orta | 180.2.2 | 13 ay |
| 20. | K.H. | Gədəbəy | Bakı | Orta | 126.1 | 5 ay |
| 21. | E.I. | Daimi yaşayıq yeri yoxdur. | Bakı ş. Xətai r-n | Orta | Əvvəl məhkum olunub, 177.2.2 | 4 ay |
| 22. | A.M. | Sumqayıt | Bakı ş. Xətai r-n | Natamam orta | 181.2.5 | 3 ay və 13 gün |
| 23. | E.M. | Bakı ş. Suraxanı r-n | Bakı ş. Suraxanı r-n | Natamam orta | 120.1 | 1 gün |
| 24. | A.M. | Bakı ş. Binəqədi r-n | Bakı ş. Binəqədi r-n | Natamam orta | 150.3.3 | 2,5 ay |
| 25. | P.M. | Bakı ş. Qaradağ r-n | Bakı ş. Qaradağ r-n | Natamam orta | 120.1 | Bilinmir |
| 26. | D.P. | Bakı ş. Suraxanı r-n | Bakı ş. Suraxanı r-n | Natamam orta | 120.2.4180.2.1 | 10 ay |
| 27. | K.P. | Bakı ş. Nizami r-n | Bakı ş. Nizami r-n | Natamam orta | | Bilinmir |

# Əlavə 3. Tərbiyə müəssisəsi

***Ədliyyə Nazirliy Penitensiar Xidmətinin Yetkinlik Yaşına çatmayanlar üçün Tərbiyə Müəssisəsində Yetkinlik yaşına çatmayan məhkumlar arasında keçirilən sorğu***

Monitorinq zamanı müəssisədə saxlanılan yetkinlik yaşına çatmayan məhkumlar arasında anonim sorğu keçirildi. Sorğu əsasən yetkinlik yaşına çatmayanların müəssisədə saxlanılma şəraiti, həmçinin onlara qarşı tətbiq olunan bəzi prosessual qaydalar ilə bağlı idi.

Yetkinlik yaşına çatmayan məhkumlar 6, 10, 12, 14 nəfərlə birgə yataq otağında qaldıqlarını və onların arasında yetkinlik yaşına çatmış şəxsin olmadığını bildirdilər[64]. Lakin onlar qeyd etdilər ki, belə hal əvvəlki müəssisədə – İstintaq Təcridxanasında (həmçinin müvəqqəti saxlama təcridxanasında) olmuşdur. Belə ki, orada onların saxlanıldıqları hər kamerada 20-50 yaşlarında olan, ("ağsaqqal" adlandırılan) məhkəmə hökmü ilə cəzaya məhkum edilən şəxs olmuşdur.

Bəzi uşaqların sözlərinə görə, "ağsaqqal" onlarla yaxşı, bəzilərinin fikrincə isə pis davranmışdır. Qeyd etmək lazımdır ki, "Birnəfərlik kamerada qalmaq istərdinizmi" sualına məhkumların böyük əksəriyyəti "Xeyr" cavabını verdilər. Onlar bunu təklikdə darıxacaqları və birlikdə olduqda vaxtın daha maraqlı keçməsi ilə əlaqələndirdilər.

Sorğuda iştirak edənlərdən altı nəfəri isə, birnəfərlik kamerada qalmağa üstünlük verdiklərini bildirdilər. Onların fikrincə, belə olduğu təqdirdə daha rahat olar və onlar özlərini sərbəst hiss edərlər.

Bir nəfər isə, yataq otaqlarının 3-4 nəfərlik olmasını daha yaxşı hesab etdiyini bildirdi.

Yetkinlik yaşına çatmayan məhkumların böyük əksəriyyəti müəssisədəki şəraitin, əyləncə-istirahət imkanlarının, sanitar gigiyenik vəziyyətin normal olduğunu bildirdilər.

Yeməyin keyfiyyəti haqda suala münasibət bildirərkən sorğu çeçirilən məhkumların 3-ü qeyri-kafi, 19-u dözüləbilən, qalanları isə yaxşı olduğunu bildirdilər.

Dörd nəfər istisna olmaqla, uşaqların hamısı müəssisədə təhsilini normal şəkildə davam etdirə bildiyini bildirdi.

Məhkumların böyük əksəriyyəti intizam tədbirlərindən şifahi xəbərdarlıq və intizam təcridxanasına salınmanın tətbiq edilməsini və onların hər-hansı bir qəddar və ya ləyaqəti alçaldan rəftara məruz qalmadıqlarını bildirdilər. Lakin bir neçə nəfər cəza tədbiri kimi valideynlərilə görüşün məhdudlaşdırıldığını, döyüldüyünü, həmçinin ləyaqəti alçaldan məcburi əməyə (zibil atmaq) cəlb edildiyini bildirdi.

Altı nəfər (rüşvətin könüllü xaraekter daşıdığını və "hörmət" mənasında verildlyini bildirdilər) istisna olmaqla, bütün məhkumlar müəssisədə rüşvətxorluq hallarının olmadığını qeyd etdi.

Məhkumlardan 17 nəfəri Tərbiyə Müəssisəsində saxlanılmasını ədalətsiz, digərləri isə ədalətli hesab etdiyini bildirdi.

Uşaqların hamısı dövlət tərəfindən təyin olunan vəkillərin göstərdiyi hüquqi yardımın formal xarakter daşıdığını, tutulan andan yalnız xeyli müddət keçdikdən sonra vəkili, valideynləri və ya digər qanuni nümayəndələrinin yanlarına buraxıldığını, qanunda nəzərdə tutulmuş tutulma

[64] 20 yaşadək olan şəxslər müstəsna haldır, çünki Cəzaların İcrası Məcəlləsi buna icazə verir və onlar 18 yaşa çatdıqda məhkəmə qərarı əsasında böyüklər üçün olan müəssisələrə keçirilmədən həmin müəssisədə saxlanılmışlar.

müddətlərinin pozulduğunu, həmçinin məhkəmə qarşısına qanunla nəzərdə tutlmuş müddətin pozulması ilə çıxarıldığnı bildirdi.

***Ədliyyə Nazirliy Penitensiar Xidmətinini Yetkinlik Yaşına satmayanlar üçün Tərbiyə Müəssisəsinin rəhbəri ilə müsahibə***

Müəssisənin rəisi ədliyyə-polis polkovnik-leytenantı İmran Məmmədov artıq 25 ildir ki bu sahədə xidməd edir. Ümumilikdə, qapalı tipli müəssisələrdə 4 il çalışan İ.Məmmədov artıq 1 ildir ki Tərbiyə Müəssisəsinin rəisidir.

Müsahibə zamanı İ.Məmmədov öz işindən çox razı olduğunu bildirdi. Onun fikrincə, müəssisədəki qida, sanitar gigiyenik vəziyyət, burada mövcud olan istirahət və əyləncə imkanları qənaətbəxşdir.

İmran müəllim həmçinin, müəssisədə olan uşaqların ali məktəbə qəbul imtahanlarında iştirak etmək və diplom əldə etmək imkanı olduğunu qeyd etdi.

İ.Məmmədov bildirdi ki, burada yetkinlik yaşına çatmayanlar valideynlərini görmək üçün müəssisəni qanunda nəzərdə tutlmuş qaydada tərk edə bilərlər. Hər hansı digər səbəbə görə müəssisəni müvəqqəti tərk etməyə icazə verilmir. Məhkumlara valideynləri ilə həmçinin telefon vasitəsi ilə də əlaqə saxlamağa icazə verilir.

Rəisin bildirdiyinə görə, məhkumlara qanunla nəzərdə tutulmuş qaydada yazışma imkanı yaradılır.

Rəisin sözlərinə görə, hər bir azadlığa buraxılan məhkum barəsində yerləşdirmə və işlə təmin etmə kimi zəruri tədbirlər görülür.

Rəis onu da bildirdi ki, burada işlədiyi vaxt ərzində heç bir halda heç bir məhkuma qarşı güc, o cümlədən silah tətbiq edilməmişdir.

İ.Məmmədov həmçinin müəssisənin bir sıra problemlərinə toxunaraq qeyd etdi ki, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin daha açıq tətbiq edilməsini təmin etmək üçün bu prosedurun həyata keçirilməsini müəssisə rəhbərliyi və Himayəçilik Şurasına həvalə edilməsi daha məqsədəuyğundur. Belə ki, bəzən elə hallar olur ki, məhkumun cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi üçün müəssisədən təqdimat, müsbət rəy verilsə də, məhkəmə bunu qəbul etmir.

İ.Məmmədov müəssisədə bədən tərbiyəsi müəlliminin olmamasını da mənfi hal kimi qeyd etdi. O, həmçinin kompüterlərin sayının artırılmasının vacıb olduğunu bildirdi.

İşçi heyətin sosial problemlərinə də toxunan İ.Məmmədov məvacibin azlığından gileyləndi. (Rəis 187, digər işçilər 60-180 manat məvacib alırlar.)

# Əlavə 4. 4 saylı cəzaçəkmə müəssisəsi (qadınlar üçün)

4 saylı cəzaçəkmə müəssisəsində yetkinlik yaşına çatmadıqları vaxt məhkum olunan qızlar arasında

Monitorinq zamanı müəssisədə cəza çəkən 4 nəfər gənc qızlardan (onların 3-ü müəssisəyə yetkinlik yaşına çatmamış vaxt düşüblər) anonim müsahibə götürüldü. Sorğu əsasən məhkumların müəssisədə saxlanılma şəraiti, həmçinin saxlanılanlara qarşı tətbiq olunan bəzi prosessual qaydalar ilə bağlı idi.

Sorğu aparılanlar buraya 17 (8 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş), 16 (5 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş), 16 (10 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş), 19 (10 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş) yaşlarında gətirilmişlər. Hal- hazırda onların 19 (üç nəfər) və 20 yaşları (1 nəfər) var.

Onlar hal-hazırda digər məhkumlar ilə birgə 22 və 30 nəfərlik yataqxanalarda saxlanılırlar.

Qeyd etmək lazımdır ki, birnəfərlik kamerada qalmaq istərdinizmi sualına, qızlardan 2 nəfəri təkliyi sevdiyindən istədiyini, 1 nəfər isə bu halda darıxıdırıcı ola biləcəyini bildirdi.

Dindirilmiş qızlar ümumilikdə, buradakı şəraitin, əyləncə-istirahət imkanlarının, sanitar gigiyenik vəziyyətin normal olduğunu bildirdilər. Qızlar paltarları, yataq dəstlərini və zəruri olan gigiyenik ləvazimatlarını özlərinin və yaxınlarının vəsaiti ilə əldə etdiklərini bildirdilər.

Yeməyin keyfiyyətini soruşduqda qızlar öz yaxınlarının gətirdiyi ərzaqlardan istədikləri xörəkləri bişirdiklərini bildirdilər.

Qızlar burada yalnız tünd rəngli paltar geyinməyə icazə olduğunu (tünd rəngdə paltar üstündən də tünd rəngdə olan xalatda gəzirlər) və daha rəngli və dəyişik çeşiddə paltar geyinmək arzusunda olduqlarını bildirdilər.

Sorğu aparılanlar burada heç bir təhsil almağa imkanın olmadığını bildirdilər[65]. Qızlardan yalnız biri müəssisəyə salınmamışdan əvvəl tam orta təhsil aldığını bildirdi (Cəzaların icrası Məcəlləsinin 104.1-ci maddəsinə əsasən məhkumların ümumi orta təhsili aparılmalıdır). Burada onlara yalnız peşə təliminin keçirildiyi bildirdilər (tikiş və toxuculuq).

Saxlanılanlar intizam tədbirlərindən şifahi xəbərdarlıq və intizam təcridxanasına salınmanın tətbiq edilməsini və onların hər-hansı bir qəddar və ya ləyaqəti alçaldan rəftara məruz qalmadıqlarını bildirdilər.

Qızlardan 2 nəfər valideynlərinin onlara mütamadi olaraq, 1 nəfər hərdən bir baş çəkdiklərini və bu halda görüşə heç bir maneə törədilmədiyini bildirdilər (1 nəfər müəssisədə elə anası ilə birgə saxlanılır).

Respondentlər burada rüşvətxorluq halları ilə rastlaşmadıqlarını bildirdilər.

Müəssisənin heyəti silah daşımır.

«Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların nümayəndəsi ilə görüşmüsünüzmü, yaxud onlar sizin ilə maraqlanıblarmı» sualına, sorğu aparılanlar hamısı belə qurumu ümumiyyətlə, tanımadıqlarını bildirdilər.

Müəssisədə saxlanılmasını 1 qız-məhkum cinayəti törətsə də, işə baxılarkən cinayətin motiv və səbəblərini həmçinin, yüngülləşdirici halların nəzərə alınmaması səbəbindən, 2 nəfər törətdikləri ilə yanaşı etmədikləri ağırlaşdırıcı halların nəzərə alınması, 1 nəfər isə çox sərt cəza təyin edildiyindən ədalətsiz hesab edir.

[65] AR CİM, Maddə 104.1 əsasən bütün cəzaçəkənlərə təhsil almaq üçün imkan yaradılmalıdır.

Gənclərin hamısı qanunda nəzərdə tutulmuş tutulma müddətlərinin pozulduğunu, tutulan andan yalnız xeyli müddət keçdikdən sonra vəkilinin, valideynlərinin və ya digər qanuni nümayəndələrinin yanlarına buraxıldığını bildirdilər.

Azərbaycan Cinayət Prossesual Məcəlləsinin 92.3.5 , 432.2-ci maddəllərinə əsasən şübhəli və ya təqsirlndirilən şəxs cinayəti törətdərkən yetkinlik yaşına çatmadıqda müdafiəçinin iştirakı məcburidir. Həmçinin müdafiəçinin iştirakı şəxsin tutulduğu andan təmin edilməlidir. Lakin məhkumların dediklərinə əsasən onların işlərində müdafiəçinin iştirakı qanunda göstərilən müddətləri kobudcasına pozulması ilə müşayiət edilmişdir. Sorğulara əsasən, 1 nəfər tutulduğu gündən 5-6 gün sonra vəkillə görüşdüyünü, 1 nəfər 8 ay vəkili olmadığını, 1 nəfər 3-4 gün və sonuncu respondent tutulduğundan 3 gün sonra vəkillə görüşdüyünü bildirdilər.

«Valideynlərinizlə tutulduğunuz andan nə vaxt sonra görüşdünüz» sualına 1 respondent anası ilə birgə tutulduğunu, digəri yalnız 2 il sonra, 1 nəfər isə 4 aydan sonra görüşdüklərini bildirdilər (1 nəfər xatırlamadığını bildirdi).

Sorğu aparılanlar bir nəfər kimi dövlət tərəfindən təyin olunan vəkillərin göstərdiyi hüquqi yardımın formal xarakter daşıdığını dedilər.

Qeyd etmək lazımdır ki, respondentlər aztəminatlı ailələrdən olan qızlar idi.

## Əlavə 5. Məhkəmə prosesləri

***Ucar Rayon Məhkəməsində yetkinlik yaşına çatmayanların cinayət işləri üzrə həyata keçirilən məhkəmə proseslərinin monitorinqinin nəticələrinə dair***

11 may 2006-cı il tarixdə Ucar rayon Məhkəməsində yetkinlik yaşına çatmayanların cinayət işi üzrə hazırlıq iclası keçirildi. İş üzrə iki nəfər təqsirləndirilən şəxs var idi:

1) 1989-cu il təvəllüdlü H.C.N. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 128-ci madəsində nəzərdə tutulmuş əməli törətməkdə ittiham olunurdu;

2) 1988-ci il təvəllüdlü H.C.E. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 132-ci madəsində nəzərdə tutulmuş əməli törətməkdə ittiham olunurdu.

Təqsirləndirilən şəxslərin hər ikisi yetkinlik yaşına çatmayan idi. Onlar barəsində başqa yerə getməmək barədə iltizam qətimkan tədbiri seçilmişdi.

İşə Ucar rayon məhkəməsinin hakimi İ.A.Əzizov sədrlik edirdi. Məhkəmə katibi A.M.Əliyev idi.

Təqsirləndirilən şəxslərin hər ikisinin hüquqlarını eyni müdafiəçi – Abdullayev Bəxtiyar Səfixan oğlu müdafiə edirdi. Vəkil, onlarla bağlanmış müqavilə əsasında fəaliyyət göstərirdi. Lakin qeyd etmək lazımdır ki, iclas zamanı təqsirləndirilən şəxslər öz müdafiəçilərini çətinliklə tanıya bildilər.

İşdə dövlət ittihamını Respublika Prokurorluğunun Dövlət ittihamını müdafiə idarəsinin prokuroru Abbasov Əmirxan Dilən oğlu müdafiə edirdi.

Onu da qeyd etmək lazımdır ki, prokuror iclas zalına məhkəmənin müşavirə otağından daxil oldu.

İş üzrə bir nəfər yetkinlik yaşına çatmış zərərçəkmiş var idi: H.İ.H.

Hazırlıq iclasında Ucar rayon İcra hakimiyyəti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın məsul katibi Məhəmməd Həsənli iştirak edirdi. İclasda həmçinin təqsirləndirilən şəxslərin, o cümlədən zərərçəkmiş şəxsin valideynləri iştirak edirdilər.

Hazırlıq iclasında heç bir tərəfdən vəsatət və etiraz olmadı. Hakim cinayət işinin məhkəmə baxışının təyin edilib-edilməməsi məsələsini həll etmək məqsədilə müşavirəyə getdi. Bir neçə dəqiqədən sonra hakim müşavirə otağından qayıdaraq təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi barədə qərarını elan etdi. Məhkəmə baxışı 17 may 2006-cı il tarixinə təyin edildi, seçilmiş qətimkan tədbiri dəyişdirilmədən qüvvədə saxlandı.

17 May saat 10:00-a təyin olumuş məhkəmə prosesi saat 10:45 də başladı. Prosesin gec başlanmasına səbəb dövlət ittihamçısının başqa rayondan gəlməsi idi. Məhkəmə baxışı təqsirləndirilən, zərərçəkmiş və şahidlərin ifadələri ilə davam etdirdi. Təqsirləndirilən şəxslərin təhsil aldıqları məktəbdən hakimin göstərişi ilə müəllim çağırıldı. Lakin axırda məlum oldu ki, təhsil şöbəsindən Hüseynov Eyvaz prosesdə iştirak edir.

Prosesdə Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyadan məsul katib iştirak edirdi. Prosesin gedişatı zamanı işdə başqa bir işin olması da üzə çıxdı. Təqsirləndirilən şəxs ifadə verdi və çayxanada olan hadisə haqqında danışarkən hakim "onun yeri deyil" deyə, onun sözünü kəsdi.

Proses təqsirləndirilən, zərərçəkmiş və şahidlərin ifadələri ilə davam etdi. Sonra hakim çıxışlara başlamağı elan etdi. Dövlət ittihamını müdafiə edən prokuror Abbasov Əmirxan Dilən oğlu vətəndaş H.C.N. Azərbaycan Respublikasının CM-in 128-ci maddəsinə əsasən, 6 ay islah işləri ilə cəzalandırlmasını xahiş etdi. Vətədaş H.C.E. Azərbaycan Respublikasının CM-in 132-ci maddəsi ilə 140 saat ictimai işlər cəzasının verilməsini xahiş etdi. Təqsirləndirilən şəxslərin hüquqlarını müdafiə edən vəkil onlara yüngül cəzanın verilməsini xahiş etdi. Təqsirləndirilən şəxslərə son söz verildi. Sonra hakim müşavirə otağına getdi . 40 dəqiqədən sonra hakim qərarı oxudu. Cəza təyin edərkən CPM-in 344, 347, 354-cü[66] maddələrini və hər iki təqsirləndirilən şəxsin yetkinlik yaşına çatmayan və işlərində ağırlaşdırıcı halların olmamasını nəzərə alaraq qərar verdi. Vətəndaş H.C.N. Azərbaycan Respublikası CM-in 128-ci maddəsinə əsasən, aylıq qazancının 10%-ni dövlət hesabına keçirmək şərti ilə 6 ay müddətinə islah işləri cəzasına məhkum edildi. Vətəndaş H.C.E. Azərbaycan Respublikası CM-in 132-ci maddəsinə əsasən, 100 saat ictimai iş cəzasına məhkum edildi. Qərarda göstərildi ki, qərar qüvvəyə mindikdən sonra təqsirləndirilən çəxslər barəsində seçilən başqa yerə getməmək barədə iltizam qətimkan tədbiri qüvvədən düşmüş hesab edilir.

Hökmdən hara və hansı müddətdə şikayət və ya protest vermə imkanı proses iştirakçılarına bildirildi.

***Xanlar Rayon Məhkəməsində yetkinlik yaşına çatmayanların cinayət işləri üzrə həyata keçirilən məhkəmə proseslərinin monitorinqinin nəticələrinə dair***

12 may 2006-cı il tarixdə saat 10:00-da Xanlar rayon Məhkəməsində yetkinlik yaşına çatmayanların cinayət işi üzrə məhkəmə baxışı keçirilməli idi. Lakin sonradan dəftərxana müdiri

[66] AR-nın CPM? Maddə 344: "Məhkəmənin müşavirə otağına getməsi".
AR-nın CPM, Maddə 347: "Məhkəmənin yekun qərarının çıxarılması qaydası".
AR-nın CPM Maddə 354: "Məhkəmənin hökmündə mülki iddianın həlli"

bildirdi ki, baxış saat 11-12 arası keçiriləcək. Dəqiq vaxtın müəyyən edilməsinin qeyri-mümkün olduğunu bildirən dəftərxana müdiri, bunu dövlət ittihamını müdafiə edəcək prokurorun gəlməsi ilə əlaqələndirdi.

Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, məhkəmənin qarşısında onlarla şikayətçi var idi və onları heç kəs qəbul etmir, kobud rəftar göstərərək susdurmağa çalışırdılar. Əhali ilə kobud rəftarına görə (daha sonra məhkəmə zalındakı davranışı ilə) dəftərxana müdiri Vidadi Zeynalov xüsusilə fərqlənirdi.

Onu da qeyd etmək lazımdır ki, Xanlar rayon məhkəməsində dəftərxana müdiri olduqca geniş "səlahiyyət"lərdən istifadə edir.

Hakim də prosesə başlamaq üçün prokuroru gözlədiyini bildirdi. Bu zaman prokuror hakimin otağına daxil oldu və hakim 5-10 dəqiqəyə prosesə başlayacaqlarını dedi.

Məhkəmə işçilərinin öz aralarındakı söhbətlərindən bəlli oldu ki, (onlar həmin gün işə iclas zalında baxılacağını eşidib təəccüblənmişdilər) hakim işlərə iclas zalında baxmır. Daha sonra iclas zalına baxış keçirdikdə bu öz təsdiqini tapdı. Belə ki, zalda prokuror üçün, vəkil üçün, iclas katibi üçün stol, stul ümumiyyətlə yox idi, o cümlədən təqsirləndirilən şəxslər üçün nəzərdə tutulmuş «qəfəs»də oturacaq yox idi. Hakimin masası və oturacağını isə tamamilə toz basmışdı. Bir neçə dəqiqədən sonra mülki geyimdə bir şəxs hakimin yerini təmizlədi, stolun üstünü, stulu sildi, stulun yerini düzəltdi. Təqsirləndirilən şəxslər üçün nəzərdə tutulmuş «qəfəs»ə oturacaq yerləşdirilməsi isə, elə təqsirləndirilən şəxslərin özlərinə (onlar zalda idilər) kobud tərzdə həvalə olundu. Daha sonra digər otaqlardan zala stol və stullar daşınmağa başlandı.

Bütün bu «quruculuq işləri»ni müşahidə etdiyimiz zaman, məhkəmə nəzarətçisi bildirdi ki, hakim sizi otağına çağırır. Hakim prokurorun başqa rayonda yarımçıq işi olduğuna görə oraya getməsi səbəbindən, işi təxirə saldığını və məhkəmə baxışını 17 may 2006-cı il saat 11:00-a təyin etdiyini bildirdi.

### *Siyəzən Rayon Məhkəməsində yetkinlik yaşına çatmayanların cinayət işləri üzrə həyata keçirilən məhkəmə prosesinin monitorinqinin nəticələrinə dair*

2 may 2006 cı il tarixdə Siyəzən rayon Məhkəməsində yetkinlik yaşına çatmayanların cinayət işi üzrə məhkəmə baxışı keçirildi. İş üzrə yeddi nəfər təqsirləndirilən şəxs qismində çıxış edirdi.

Təqsirləndirilən şəxslərin beşi yetkinlik yaşına çatmayan idi.

Uşaqlar həbs edilməmişdir. Onlar barəsində başqa yerə getməmək barədə iltizam qətimkan tədbiri seçilmişdi.

İşə Siyəzən rayon məhkəməsinin hakimi Məmmədova Südabə Əlislam qızı sədrlik edirdi. Məhkəmə katibi Dəmirov Zöhrab Azay oğlu idi. Təqsirləndirilən şəxslərin hüquqlarını Həbibzadə Arif və Qasımov Murad müdafiə edirdi. Vəkillər dövlət hesabına təyin olunmuşdular.

İşdə dövlət ittihamını Respublika Prokurorluğunun Dövlət ittihamını müdafiə idarəsinin prokuroru Həsənəliyev Babaxan Ramazan oğlu müdafiə edirdi. İş üzrə bir nəfər yetkinlik yaşına çatmış zərərçəkmiş var idi.

Məhkəmə baxışında Siyəzən Rayon İcra Hakimyyəti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafəiəsi üzrə Komissiyanın məsul katibi Muradov Eldar iştirak edirdi. İclasda həmçinin təqsirləndirilən və zərərçəkmiş şəxslərin valideynləri iştirak edirdilər.

Prokurorun başqa rayondan gəlməsi ilə əlaqədar olaraq, saat 10:00-a təyin olunmuş proses saat 11:00-da başladı.

Yenicə təmirdən çıxmış məhkəmə zalının ümumi vəziyyətini qənaətbəxş hesab etmək olar. Zalda təqsirləndirilən şəxslər üçün nəzərdə tutulmuş "qəfəs" yox idi.

Hakim təqsirləndirilən və zərərçəkmiş şəxsləri dindirməklə prosesə başladı. Hər iki tərəf çıxış etdikdən sonra, şahidlər gəlmədiklərinə görə, proses 11 may saat 10:00-a təxirə salındı.

11 May saat 10:00 təyin olunmuş proses gecikirdi. Məhkəmə katibi bunun səbəbini vəkilin başqa rayondan gəlməsi ilə əlaqələndirdi. Vəkil gəldikdən sonra prosesin nə vaxt başlayacağını soruşduqda şahidlərin gəlməsini gözlədiklərini bildirdilər.

Saat 10:00-a təyin olunmuş proses saat 13:00-da başladı. Təqsirləndirilən şəxlər, zərərçəkmiş şəxslər və şahidlər ifadə verdikdən sonra proses başa çatdı. Hakim çıxışlara başlamağı təklif etdi. Dövlət ittihamını müdafiə edən prokuror onları, CM-in 177.2.1 maddəsinə əsasən, 3 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum etməyi təklif etdi.

Təqsirləndirilən şəxslərin müdafiəçiləri məhkəmədən, təqsirləndirilən şəxslərin yetkinlik yaşına çatmayan olmalarını və ilk dəfə cinayət törətmələrini nəzərə alaraq, onlara daha yüngül cəza verilməsini xahiş etdi. Hakim təqsirləndirilən şəxslərə son söz verdikdən sonra müşavirə otağına getdi.

Müşavirə otağından qayıdan hakim hökmü elan etdi. Həmin hökmə görə:

İki nəfər yetkinlik yaşına çatmış şəxslər Azərbaycan Respublikası CM-nin 177.2.1 maddəsi ilə təqsirli bilinərək şərti maliyyə vahidinin 3000(üç min) misli məbləğində cərimə cəzasına məhkum edildi. Cəza çəkməyinin əvvəli hökmün icraya yönəldiyi gündən hesab edildi. Barəsində seçilmiş başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri hökm qanuni qüvvəyə minənə kimi öz qüvvəsində saxlanıldı.

İş üzrə keçən 5 yetkinlik yaşına çatmayan şəxs Azərbaycan Respublikası CM-nin 177.2.1 maddəsi ilə təqsirli bilinərək Azərbaycan Respublikası CM-nin 85.2 maddəsinə əsasən şərti maliyyə vahidinin 30 (otuz) misli məbləğində cərimə cəzasına məhkum edildi. Barəsində Azərbaycan Respubliksı CM-nin 89.1 maddəsi tətbiq edilməklə cəzadan azad edildi. Azərbaycan Respublikası CM-nin 87.2 maddəsinə əsasən valideynin nəzarətinə verildi. Barəsində seçilmiş başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri ləğv edildi.

***Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə yetkinlik yaşına çatmayanların cinayət işləri üzrə həyata keçirilən məhkəmə prosesinin monitorinqinin nəticələrinə dair***

22 sentyabr 2006-cı il tarixdə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə hakim Cavad Cüməliyevin sədrliyi ilə yetkinlik yaşına çatmayanların cinayət işi üzrə məhkəmə dindirməsi davam etdirildi. İş üzrə üç nəfər yetkinlik yaşına çatmayan şəxs qətldə ittiham edilirdi.

Bu məhkəmə işi bir neçə məqama görə monitorinq qrupunun diqqətini cəlb edib:

1. yetkinlik yaşına çatmayanlar ağır cinayətə görə təqsirli bilinir;
2. iş üzrə üç yetkinlik yaşına çatmayan şəxs keçdiyi üçün burada qrup şəklində törədilmiş cinayətin törədildiyi guman edilir;
3. sonuncu dəfə monitorinqi aparılan məhkəmə dinləməsi tərixində yetkinlik yaşına çatmayanlar istintaq təcridxanasında artıq 18 aya yaxın saxlanılıb;

4. məhkəmə dinləmələri zamanı yetkinlik yaşına çatmayanlara qarşı işgəncə və qeyri-insani rəftar hallarının olması halları qeyd edilmişdir; və
5. məhkəmə prosesi beynəlxalq ictimaiyyət və medianın diqqətini cəlb etmişdir. Məhkəmə ATƏT, "Human Rights Watch", ABŞ və Rusiya Federasiyasının səfirlikləri tərəfindən daim nəzarətdədir.

Məhkəmə iclası saat 10.00-a təyin edilsədə proses yalnız saat 11.00-da başlandı.

İttiham edilənlər rus dilli olduqlarından tərcüməçinin iştirakı təmin edilmişdi. Ancaq tərcümə çox aşağı səviyyədə aparılırdı. İttiham edilənlər məhkəmə salonunda gedən söhbətləri axıra qədər başa düşməkdə çətinlik çəkirdilər.

Hakim demək olar ki, prosesi idarə edə bilmirdi, onun hətta danışdıqlarını belə eşitmək xeyli çətinlik törədirdi. Həm ittiham olunanların, həm də zərərçəkmişlərin yaxınlar məhkəmənin işinə müdaxilə edirdilər.

Prosesin açıq keçirilməsinə baxmayaraq, məhkəməyə gələn adamlara təzyiq göstərilirdi. Onlar ya bayıra çıxarılır, ya da bayıra çıxanların içəriyə girmələrinə imkan verilmirdi.

Bu məhkəmə işinin digər bir xüsusiyyəti məhkəmənin tərkibinin qərəzli və ya qeyri-kompetent olduğuna görə üç dəfə dəyişdirilməsi olub.

Monitorinq zamanı məlum oldu ki, hakim məhkəmə zalında baş verənlərə nəzarət etmək iqtidarında deyil və səsküydən məhkəmə zalında səslənən çıxışları eşitmək mümkün olmayıb. Zərərçəkmişin və təqsirləndirilənlərin qohumları məhkəmənin gedişatına mane olurdu.

Məhkəmə prosesi uzun müddət davam etdiyindən (monitorinqin keçirildiyi zaman məhkəmə artıq 15 aya yaxın davam edirdi) bu prosesin monitorinqi davamlı şəkildə aparılıb. Məhkəmə dinləmələri dəfələrlə təxirə salınmış, lakin bu haqda əvvəlcədən nə təqsirləndirilənlərə, nə də ki, onların vəkilləri və ya qohumlarına məlumat verilməmişdir. Bu cür gecikdirmələr və dinləmələrin təxsirə salınması təqsirləndirilən uşaqlara qarşı qeyri-insani və alçaldıcı rəftara gətirib çıxarıb. Monitorinqin keçirildiyi üç ay ərzində təqsirləndirilən şəxslər saxlandıqları 3 saylı təcridxanadan məhkəməyə gətirilib. Naməlum səbəblərə görə üç dəfə məhkəmə dinləməsi təxirə salınmışdır. Hər dəfə bu baş verdikdə, uşaqlar məhkəmənin zirzəmisində bir neçə saat ac-susuz saxlanılıb və yenidən təcridxanaya geri gaytarılıblar.

Təqsirləndirilən uşaqlara qarşı uzun müddət davam edən ciddi psixoloji təzyiqi rəhbər tutaraq onların vəkilləri və valideynləri dəfələrlə məhkəmədən təcili olaraq psixoloq və tibbi personalın müdaxiləsini xahiş edib. Bir neçə məhkəmə dinləməsindən sonra, nəhayət məhkəmə uşaqların tibbi müayinəsinə icazə verib. Lakin sonradan vəkillər və valideynlər təmin edilmiş tibbi müayinənin formal olaraq aparıldığını qeyd edib.

Layihə çərçivəsində aparılan monitorinq fəaliyyətinin bitməsinə baxmayaraq bu uşaqların işi hələ də məhkəmədədir. Bu ilk növbədə iki beynəlxalq standartın və milli qanunvericiliyin pozulmasını göstərir: (1) yetkinlik yaşına çatmayanlara dair bütün prosedurlar yubadılmadan və tez aparılmalıdır; və (2) yetkinlik yaşına çatmayanlar ən mümkün qısa müddət ərzində həbs altında saxlanmalıdır. Lakin monitorinqin aparıldığı sonuncu məhkəmə dinləməsinin tarixinə yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslər artıq 15 aydır ki, istintaq təcridxanasında saxlanılırdı. Təqsirli bilinənlərin ikisi 2005-ci ilin Fevral ayında, digəri isə 2005-ci ilin Avqust ayında tutulub. Məhkəmə prosesi isə 2005-ci ilin May ayında başlayıb.

İstintaq təcridxanasında saxlandıqları müddət ərzində uşaqların valideynləri və özləri onların dəfələrlə döyüldüklərini qeyd edib. Bu cür hadisələrin baş verməsi vəkillər tərəfindən Ağır

Cinayətlərə dair İşlər üzrə Məhkəmənin diqqətinə çatdırılsa belə, məhkəmə heç bir araşdırmanın aparılmasına icazə verməyib.

**Yekun müddəalar**

Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı tərəfindən ATƏT-in Bakı ofisinin dəstəyi ilə həyata keçirilən yuvenal ədliyyə təsisatlarının monitorinqi nəticəsində hazırlanmış hesabat çapa verilməzdən əvvəl Azərbaycanın müvafiq hökumət qurumlarına təqdim edilmişdir. Bunun əsas məqsədi müvafiq hökumət qurumlarının hesabatda əksini tapmış məlumatlara dair fikirlərini və narahatlıqlarını öyrənmək, onların müzakirəsi üçün şərait yaratmaq və yuvenal ədliyyə sektorunda mövcud olan problemlərin həlli məqsədilə ikitərəfli əməkdaşlığın qurulması olub.

Qeyd etmək lazımdır ki, hesabat fakt-araşdırıcı monitorinq fəaliyyətinin nəticəsidr. Seçilmiş monitorinqçilər vəziyyətin müşahidə olunması məqsədilə yuvenal ədliyyə müəssisələrinə səfərləri zamanı müəssisələrin nümayəndələri və orada saxlanılan uşaqlarla müsahibələr aparmışlar. Monitorinq qısa müddət ərzində bütün ölkə ərazisində aparılmışdır. Buna görə də hesabat bu sahədə vəziyyəti tam şəkildə əks etdirmir, lakin monitorinq zamanı yuvenal ədliyyə sistemində mövcud problemlərin və boşluqların aşkarlanmasına yönəlmiş bir cəhd kimi qiymətləndirilməlidir. Hesabatın əsas məqsədi Azərbaycan hökumətinin uşaq problemlərinin daha səmərəli həlli imkanlarının genişləndirilməsi istiqamətində apardığı ardıcıl fəaliyyətinə dəstək verməkdir.

Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyi hesabata dair şərhlərini yazılı şəkildə göndərmişdir. Bu şərhlər Uşaq Hüquqları üzrə QHT Alyansı tərəfindən diqqətlə öyrənilmişdir. Azərbaycanın hökumət qurumlarının yazılı şəkildə təqdim etdiyi şərhlər insan hüquqlarının müdafiəsi və yuvenal ədliyyə sektorunda aparılan islahatlar barədə dolğun məlumat verir. Qeyd etmək lazımdır ki, hər iki nazirlik yuvenal ədliyyə sisteminin inkişafı sahəsində xeyli işlər görüb.

Son iki il ərzində Daxili İşlər Nazirliyinin polis uşaq müfəttişləri və polis müvəqqəti saxlama təcridxanalarının əməkdaşları usaqların hüquqlarının müdafiəsinə yönəlmiş tədris, təlim və imkanların artırılmasına dair tədbirlərdə fəal iştirak edib. 2006-ci ildə UNİCEF-in Azərbaycan ofisinin Daxili İşlər Nazirliyi ilə əməkdaşlıqda 350 polis uşaq müfəttişi üçün keçirilmiş təlimləri nazirliyin yuvenal ədliyyə məsələlərinə dair polis proqramının yaradılmasına olan istəyinin təzahürü kimi qəbul edilə bilər. "Azərbaycan Respublikasında Polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı (2004-2008)" da daxil olmaqla digər mövcud dövlət proqramları da polis orqanlarının imkanlarının gücləndirilməsinə yardım edəcəkdir. Bu proqramlar həmçinin polis əməkdaşlarının sosial müdafiəsini gücləndirəcək, ictimai təhlükəsizliyin müdafiəsini artıracaq və cinayətkarlığın profilaktikasının daha səmərəli həyata keçirilməsi məqsədilə onların müasir avadanlıq və vasitələrlə təchizatını yaxşılaşdıracaqdır. Daxili İşlər Nazirliyinin tabeliyində olan Polis Akademiyasının və Polis Məktəbinin əməkdaşlarına Pekin qaydalarının, Ər-Riyad prinsiplərinin, BMT-nin UHK da daxil olmaqla, yuvenal ədliyyə standartlarının və digər beynəlxalq sazişlərin tədrisi yuvenal ədliyyə sisteminin inkisafında mühüm rol oynayır. Daxili İşlər Nazirliyinin ATƏT-in Bakı ofisinin, Avropa Şurasının və UNİCEF-in Azərbaycan nümayəndəliyinin dəstəyi ilə apardığı təlimlər nəticə etibarilə daha səmərəli polis təcrübəsinin qurulmasına yardımçı olacaq.

Daxili İşlər Nazirliyi tərəfindən polis müvəqqəti saxlama təcridxanalarında (MST) saxlanılan şəxslərə qarşı baş vermiş zorakılıq və ya qanunazidd rəftar hallarının aşkar edilməsi və profilaktikası istiqamətində aparılan iş xüsusilə qeyd edilməlidir. Həmçinin, nazirliyin ölkə ərazisində yeni tikilmiş 11 və təmir edilmiş 51 müvəqqəti saxlama təcridxanasının şəraitinin yaxşılaşdırılması istiqamətində apardığı ardıcıl fəaliyyət də yüksək qiymətləndirilməlidir. Lakin, qeyd etmək lazımdır ki, müvəqqəti saxlama təcridxanalarında müşahidə edilmiş vəziyyət onu deməyə əsas verir ki, MST-lərdə saxlanılan uşaqların müdafiəsi mexanizmləri zəif təşkil olunub. Hesabatda uşaq hüquqları və uşaq müdafiəsinin təşkilinə dair MST-lərdə fəaliyyət göstərən polis əməkdaşlarının bilik və bacarıqlarının artırılması, MST-lərdə uşaqlara yararlı xidmətlərin təşkili, QHT-lərin MST-lərə daxil olma imkanlarının artırılması, müvafiq mentorluq və həmyaşıddan-

həmyaşıda dəstək mexanizmlərinin qurulması, uşaqların hüquq və vəzifələrinə dair buklet və digər çap materiallarının yayılması kimi tövsiyyələr öz əksini tapıb.

QHT Alyansı hesab edir ki, bu tövsiyyələr "Azərbaycan Respublikasında Polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramına (2004-2008)" daxil edilərsə qanunla ziddiyyətdə olan uşaqların müdafiəsi tədbirləri daha səmərəli təşkil edilə bilər. QHT Alyansı və onun tərəfdaşları həmçinin, uşaqlarla işləyən polis əməkdaşlarının bacarıqlarının davamlı şəkildə artırılmasını və qanunla ziddiyyətdə olan uşaqlarla profilaktik işin təşkilininin gücləndirilməsini tövsiyyə edirlər.

Monitorinq hesabatı həmçinin, qanunla ziddiyyətdə olan uşaqların işləri ilə məşğul olan məhkəmə sistemində mövcud olan boşluqlar və çatışmazlıqlara da yer ayırıb. Monitorinq missiyasının çoxlu sayda məhkəmə işlərinə baxış keçirmək imkanları olmamışdır. Lakin, Bakıda və rayonlarda bir sıra ağır və xüsusilə ağır cinayətlərə dair məhkəmə işlərini monitorinq etmək mümkün olmuşdur. Monitorinq zamanı uşaqlara dair cinayət işləri üzrə məhkəmə praktikasının, hakimlərin, vəkillərin və prokurorların davranaşı və fəaliyyətinin hərtərəfli öyrənilməsinə böyük diqqət ayrılmışdır. Hesabat təsadüfü yolla seçilmiş məhkəmə işlərinin monitorinqi zamanı aşkar edilmiş faktların əsasında hazırlanmışdır. Hesabatda monitorinq missiyası zamanı monitorinqçilərin aşkar etdikləri boşluqlar və narahatçılıqlar təsvir edilib. Müəyyən edilmiş boşluqlar və çatışmazlıqlar bu sahədə fəaliyyətin gücləndirilməsi və uşaqların hüquqlarının daha səmərəli müdafiəsinin təmin edilməsi məqsədilə islahatların davam etdirilməsinə çağırış kimi qəbul edilməlidir.

QHT Alyansı Ədliyyə Nazirliyinin məhkəmə sisteminin islahatı sahəsində aparıcı rolunu yüksək dəyərləndirir. Son dövrlər ölkənin bir sıra regionlarında yaradılmış Apellyasiya Məhkəmələri, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının Azərbaycanın yerli məhkəmə-hüquq sistemində istifadəsinin sürətləndirilməsinə dair nazirliyin əmrləri yerli məhkəmə praktikasının beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində aparılan davamlı islahatların bariz nümunəsidir. Ədliyyə Nazirliyi 13-14 Aprel 2006-cı il tarixində keçirilmiş "Azərbaycanda yuvenal ədliyyə sisteminin inkişafı perspektivlərinə" dair 1-ci Milli Konfransının təşkilində və onun işində fəal iştirak etmişdir. Həmçinin, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı ilə əməkdaşlıqda hakimlər və hakimliyə namizədlər üçün təşkil edilmiş təlim kursları bu sahədə çalışan mütəxəssislərin bilik və bacarıqlarının artırılması məqsədilə sektorlararası əməkdaşlığın da təzahürüdür.

Hesabatda uşaq tərbiyə müəssisəsində reabilitasiya proqramlarının mövcduluğu ilə bağlı əldə edilmiş məlumatlara dair Ədliyyə Nazirliyi öz şərhini də təqdim etmişdir. 31 may 2007-ci ildə Milli Məclis tərəfindən qəbul olunan "Penitensiar müəssisələrdə cəza cəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasi haqqında" Qanun bu istiqamətdə aparılan islahatların mühüm nəticəsidir. Bu qanun cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin reabilitasiyasının müvafiq standartlara uyğun qurulmasına şərait yaradacaqdır. QHT Alyansı ümid edir ki, bu qanun və ondan irəli gələn proqramlar uşaqların xüsusi ehtiyaclarını nəzərə alacaq və uşaq tərbiyə müəssisəsində aparılmış monitorinq nəticəsində aşkarlanmış boşluqların aradan qaldırılmasına kömək edəcəkdir.

Ədliyyə Nazirliyi həmçinin, nazirliyin Penitensiar Xidməti və Uşaq Tərbiyə Müəssisəsi tərəfindən müəssisədə cəza çəkən uşaqların cəmiyyətə inteqrasiyası sahəsində aparılan işə dair dolğun məlumat təqdim etmişdir. Bu fəaliyyət reabilitasiyasının uşaqların davamlı təhsili və onların asudə vaxtlarının təşkili kimi mühüm aspektlərinə toxunur. Lakin, qeyd etmək lazımdır ki, bu fəaliyyət reabilitasiya işinin bütün aspektlərini əhatə etmir və nəticə etibarilə uşaqların bütün ehtiyaclarını ödəyə bilmir. Hesabatda Uşaq Tərbiyə müəssisəsində cəza çəkən uşaqların müxtəlif və fərqli ehtiyaclarını ödəmək məqsədilə hər bir uşaqla onun müəssisəyə daxil olduğu andan müəssisəni tərk etdiyi anadək və hətta müəssisəni tərk etdikdən sonra fərdi qaydada

reabilitasiya işinin təşkili tövsiyyə edilib. Bu cür reabilitasiya fəaliyyəti hər bir uşağa yönəlik fərdi inkişaf planların hazırlanması və tətbiqi vasitəsilə təşkil edilə bilər. Fərdi inkişaf planına davamlı psixoloji dəstək, sosial iş, psixoterapiya, hüquqi məsləhət, valideynlər, qohumlar və həmyaşıdlarla ünsiyyətin qurulması, müvafiq mentorluq xidməti, tədris və peşə yönümlü təlim və işə düzəlmə sahəsində köməyin göstərilməsi kimi məsələlər daxildir.

Ümumiyyətlə, məmnuniyyətlə qeyd etmək lazımdır ki, monitorinq vasitəsilə QHT Alyansı və onun tərəfdaşları Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Məhkəmə-Hüquq Şurası və Nazirliyin Penitensiar Xidməti tərəfindən məhkəmə və huquq-mühafizə sistemində ölkə üzrə aparılan islahatlara yönəlmiş fəaliyyəti müşahidə etmək imkanı əldə etmişdir. Bunu nəzərə alaraq, əminiklə qeyd etmək olar ki, hesabat və orada əksini tapmış məlumatlar yuvenal ədliyyə sahəsində aparılan islahatların gücləndirilməsinə, o cümlədən, mövcud sistemin qanunla ziddiyyətdə olan uşaqların xüsusi ehtiyaclarını nəzərə alan, hüquqlarını müdafiə edən və onlara xüsusi qayğı göstərən sistemə çevrilməsinə xidmət edəcəkdir. Bütövlükdə bu fəaliyyət uşaqlar arasında cinayətkarlığın daha səmərəli profilaktikası, cinayətdə təqsirli bilinmiş uşaqların reabilitasiyası və cəmiyyətə inteqrasiyasına təkan verəcəkdir.

**Yekun olaraq, monitorinqin keçirilməsi və hesabatın hazırlanması və çapına göstərdikləri dəstəyə görə QHT Alyansı Azərbaycan hökumətinə, ATƏT-in Bakı Ofisi və Böyük Britaniya Səfirliyinə təşəkkür edir. Həmçinin, QHT Alyansı Azərbaycan hökumətinin daha yaxşı uşaq müdafiəsi sisteminin qurulmasına yönəlmiş fəaliyyətinə bundan sonra da kömək etməyə hazır olduğunu ifadə edir.**

**Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı**

# BİBLİOQRAFİYA


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 2000
2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, 2000
3. "Azərbaycanda yuvenal ədliyyənin vəziyyətinə dair alternativ hesabat". Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı, 2005
4. "Azərbaycanda uşaqların vəziyyəti və uşaq hüquqlarının icrasına dair alternativ hesabat", Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı, 2005
5. Yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın və baxımsızlığın profilaktikasına dair Azərbaycan Respublikasının qanunu, 2005
6. "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə, Nazirlər Kabineti, 2003
7. Yetkinlik yaşına çatmayanların işləri və və hüquqlarının müdafiəsinə üzrə komissiyaların Əsasnaməsi, Nazirlər Kabineti, 2003
8. Həbsdə saxlanılma yerlərində şəxslərin saxlanılmasına dair Müvəqqəti Əsasnamə.
9. Yuvenal əliyyənin icrasının monitorinqi üzrə sorğular toplusu, Uşaq Hüquqları üzrə QHT Alyansı, ATƏT-in Bakı Ofisi, 2006